# Yeremya

*Peyğəmbərin Kitabı*

***Giriş***

Yeremya peyğəmbər miladdan əvvəl VII əsrin ikinci yarısında və VI əsrin birinci yarısında yaşamışdır. O, kahin idi. Uzun sürən xidmət müddətində Allahın xalqını bütpərəstliyə uymaqları və günah nəticəsində düçar olduqları bəla barədə xəbərdarlıq edirdi. Onun qabaqcadan söylədiyi peyğəmbərliklər – Yerusəlimin süqutu, Navuxodonosorun şəhəri və mə'bədi dağıtması, Yəhuda padşahının və xalqının Babilə sürgün edilməsi gerçək oldu. Yeremya həmçinin xalqın sürgündən qayıtmasını və millətin dirçəlişini də qabaqcadan söyləmişdi.

Yeremya peyğəmbər öz xalqını sevən, onun məhkum olmasından kədərlənən həssas bir adam idi. Kitabın çox yerində o, Allahın peyğəmbəri olduğu üçün iztirablar çəkməsi barədə ürək ağrısı ilə danışır. Rəbbin sözü onun qəlbində sanki yanar od idi, Yeremya onu ürəyində saxlaya bilmirdi.

Kitabda bə'zi böyük peyğəmbərliklər Yeremyanın yaşadığı çətin dövrdən sonrakı gələcəyə işarə edir: Yeremya Yeni Əhd barədə danışır. Allahın xalqı bu əhdi yadda saxlayacaq, çünki həmin əhd onların qəlbinə yazılacaq.

***Kitabın məzmunu***

Yeremyanın çağırışı 1:1-19
Yoşiyanın, Yehoyaqimin, Yehoyakinin və Sidqiyanın hökmranlıq etdiyi dövrdə peyğəmbərliklər 2:1-25:38
Yeremyanın həyatında olan hadisələr 26:1-45:5
Millətlərə qarşı peyğəmbərliklər 46:1-51:64
Yerusəlimin süqutu 52:1-34

1 [1] Bunlar Binyamin torpağındakı
Anatotda yaşayan kahinlərdən biri olan
Xilqiya oğlu Yeremyanın sözləridir. [2] Yəhuda
padşahı Amon oğlu Yoşiyanın dövründə –
padşahlığının on üçüncü ilində Yeremyaya
Rəbbin sözü nazil oldu. [3] Bu, Yəhuda padşahı
Yoşiya oğlu Yehoyaqimin dövründən Yəhuda
padşahı Yoşiya oğlu Sidqiyanın padşahlığının
on birinci ilinin sonunadək, beşinci ayda
Yerusəlim əhalisinin sürgünə aparılmasına
qədər davam etdi.

### *Yeremyaya çağırış*

[4] Mənə Rəbbin bu sözü nazil oldu: [5] «Mən
sənə ananın bətnində surət verməzdən əvvəl
səni tanıdım, doğulmazdan əvvəl səni təqdis
edib millətlərə peyğəmbər etdim». [6] Onda mən
dedim: «Ah, ya Xudavənd Rəbb! Axı mənim
danışıq qabiliyyətim yoxdur, çünki hələ
cavanam». [7] Rəbb mənə dedi: «Sən
"cavanam" demə. Mən səni kimin yanına
göndərsəm, gedəcəksən, sənə nə əmr etsəm,
onu söyləyəcəksən. [8] Adamlardan qorxma,
çünki səni qurtarmaq üçün Mən səninlə
olacağam» Rəbb belə bəyan edir. [9] Rəbb əlini
uzadıb ağzıma toxundu və mənə dedi: «Bax
sözlərimi sənin dilinə qoydum. [10] Bu gün səni
millətlər və ölkələr üzərinə tə'yin etdim ki,
onları kökündən yıxıb dağıdasan, qırıb məhv
edəsən, əkib tikəsən».
[11] Mənə Rəbbin bu sözü nazil oldu: «Ey
Yeremya, nə görürsən?» Mən dedim: «Badam
ağacının bir budağını görürəm». [12] Rəbb mənə
dedi: «Düz görmüsən. Axı Mən hər sözümü
yerinə yetirməkdə sayığam».[1]
[13] Mənə yenə Rəbbin bu sözü nazil oldu:
«Nə görürsən?» Mən dedim: «Şimaldan bu
tərəfə yönəlmiş qaynar bir qazan görürəm».
[14] Rəbb mənə dedi: «Bu ölkədə yaşayanların
hamısının üzərinə şimaldan bəla yağacaq.
[15] Çünki Mən şimal ölkələrinin bütün
tayfalarını çağıracağam» Rəbb belə bəyan
edir. «Hər biri gəlib öz taxtını Yerusəlim
darvazalarının girişində, onun bütün
darvazalarının ətrafında və bütün Yəhuda
şəhərlərində quracaq. [16] Bütün pisliklərinə
görə onların əleyhinə hökmlərimi
bildirəcəyəm. Çünki Məndən üz döndərib
başqa allahlara buxur yandıraraq öz əl işlərinə
səcdə etdilər. [17] Sən belini qurşayıb qalx, sənə
əmr edəcəyim bütün şeyləri onlara söylə.
Onlardan qorxma, yoxsa Mən də səni onların
önündə qorxuya salacağam. [18] Budur, Mən bu
gün səni bütün ölkənin, Yəhuda padşahlarının,
bu yerin başçılarının, kahinlərinin və xalqının
əleyhinə qalalı şəhər, dəmir sütun və tunc

***1:2*** *– 2Pad. 22:3-23:27; 2Saln. 34:8-35:19*
***1:3*** *– 2Pad. 23:36-24:7; 2Saln. 36:5-8*
***1:3*** *– 2Pad. 24:18-25:21; 2Saln. 36:11-21*

[1] **1:11-12** İbrani dilində *badam – şaqed* və *sayıq – şoqed* sözləri bir-birinə oxşayır.

divar etdim. 19 Onlar səninlə vuruşacaq, ancaq
gücləri çatmayacaq, çünki səni qurtarmaq
üçün Mən səninlə olacağam» Rəbb belə
bəyan edir.

### *İsrailin yoldan azması*

2 1 Mənə Rəbbin sözü nazil oldu: «Get
Yerusəlimə ucadan e'lan et ki, 2 Rəbb
belə deyir: "Mən sənin cavanlığındakı
mehrini, gəlin olanda məhəbbətini, səhrada, ot
bitməyən torpaqda ardımca gəldiyini yadıma
saldım. 3 Onda İsrail Rəbbə həsr olunmuşdu
və Onun məhsulunun nübarı idi. Onu udmaq
istəyənlərin hamısı mühakimə olunur,
üstlərinə bəla gəlirdi" Rəbb belə bəyan edir.
4 Ey Yaqub nəsli, ey İsrail nəslinin bütün
tayfaları, Rəbbin sözünü eşidin, 5 Rəbb belə
deyir: "Atalarınız Məndə nə haqsızlıq tapdılar
ki, Məndən uzaqlaşdılar və puç bütlər ardınca
getdilər, özləri də puç adam oldular. 6 Daha
demədilər ki, Misir torpağından bizi çıxaran,
səhrada, uçurumlarla dolu boz çöllərdə, ölüm
kölgəsində qalan quraq torpaqda, bir insanın
keçmədiyi, heç kəsin yaşamadığı diyarda
gəzdirən Rəbb haradadır? 7 Mən sizi bərəkətli
torpağa gətirdim ki, onun meyvələrindən və
ne'mətlərindən dadasınız. Ancaq siz oraya
girən kimi torpağımı murdar etdiniz,
mülkümü iyrənc bir yerə çevirdiniz. 8 Kahinlər
‹Rəbbi axtaraq› demədilər, qanun müəllimləri
Məni tanımadılar, rəhbərlər Mənə qarşı üsyan
etdilər, peyğəmbərlər Baalın adı ilə
peyğəmbərlik etdilər, faydasız şeylərin
dalınca getdilər".
9 Buna görə Rəbb belə bəyan edir: "Mən
yenə sizinlə çəkişəcəyəm, Mən övladlarınızın
övladları ilə də çəkişəcəyəm. 10 Siz Kittim[2]
adalarına gedib görün, Qedara[3] adam
göndərib öyrənin. Görün belə bir şey oldumu?
11 Bir millət allahlarını dəyişdirdimi? Əslində
onlar allah deyil. Ancaq Mənim xalqım öz
Cəlalını faydasız bütlərə dəyişdi. 12 Ey göylər,
siz buna heyrət edib tir-tir əsin və dəhşətə
gəlin" Rəbb belə bəyan edir. 13 "Çünki xalqım
iki pis əməl etdi: Məni – axar suların
mənbəyini atıb özlərinə hovuzlar, su
saxlamayan çatlı hovuzlar düzəltdilər.
14 Məgər İsrail quldur? Yoxsa o, kölə
doğulmuşdu? Bəs nə üçün qarət malı oldu?
15 Onun üstünə cavan aslanlar nərildədi və
səslərini ucaltdılar. Ölkəsini viran etdilər.
Şəhərləri yandı, bir nəfər sakin qalmadı.
16 Nof və Taxpanxes sakinləri sənin başını
yardı. 17 Səni yolla aparan Allahın Rəbbi tərk
etməklə bu işi öz başına gətirmədinmi? 18 Bəs
Şixor[4] suyundan içmək üçün Misirə niyə
gedirsən? Fərat suyundan içmək üçün Aşşura
niyə gedirsən? 19 Səni öz pisliyin
cəzalandıracaq, dönüklüyün töhmətini
alacaqsan. Sən də görüb bil ki, Allahın Rəbbi
atmağın, Məndən qorxmamağın pis və acı
şeydir" Ordular Rəbbi Xudavənd belə bəyan
edir.
20 "Sən boyunduruğunu ta qədimdən qırdın,
iplərini qopardın və ‹sənə qulluq
etməyəcəyəm› dedin. Üstəlik hər uca təpənin
üstündə, hər kölgəli ağacın altında yerə sərilib
bütlərə səcdə edərək Mənə xəyanət etdin.
21 Mən səni gözəl meynə, tər-təmiz toxum
kimi əkmişdim. Sən necə əleyhimə çıxıb cır,
yabanı meynə oldun? 22 İndi isə sən gilabı ilə
yuyunsan, çoxlu sabun əritsən də, yenə
günahın önümdə ləkə kimi qalacaq"
Xudavənd Rəbb belə bəyan edir. 23 "Axı necə
deyə bilərsən ki, murdar olmadım, Baal
bütlərinin yolu ilə getmədim? Dərədə necə
rəftar etdiyinə bax, nə etdiyini gör. Sən
qızışan, ora-bura qaçan dişi dəvə kimi,
24 şəhvətlə havanı iyləyən, səhraya öyrəşmiş
vəhşi eşşək kimisən. Qızanda onu kim saxlaya
bilər? Onu istəyənlər özlərini yormaz,
cütləşmə vaxtı onu tapar. 25 Ayağı yalın
gəzmə, boğazın susuzluqdan qurumasın.
Ancaq sən dedin: ‹Xeyr, olmaz! Çünki mən
yad allahları sevdim və onların ardınca
gedəcəyəm›.
26 Oğru tutulanda necə utanırsa, İsrail nəsli
də padşahları, başçıları, kahinləri və
peyğəmbərləri ilə birgə eləcə utanırlar.
27 Onlar ağaca ‹atamsan›, daşa ‹bizi sən
doğdun› deyir. Çünki Mənə tərəf üzlərini
deyil, arxalarını çevirdilər. Ancaq üstlərinə
bəla gələndə ‹qalxıb bizi qurtar› deyirlər.
28 Bəs özün üçün düzəltdiyin bütlərin
haradadır? Başına bəla gəldiyi vaxt səni
qurtara bilərlərsə, gəlsinlər. Sənin allahların
şəhərlərinin sayı qədərdir, ey Yəhuda!

---

[2] **2:10** *Kittim* – İsrailin qərbindəki ölkələr nəzərdə tutulur.

[3] **2:10** *Qedar* – İsrailin şərqindəki ölkələr nəzərdə tutulur.

[4] **2:18** *Şixor* – Nil çayının qollarından biri.

29 Nə üçün Mənimlə çəkişirsiniz? Hamınız
Mənə qarşı üsyan etdiniz” Rəbb belə bəyan
edir. 30 “Övladlarınızı nahaq yerə
cəzalandırdım, çünki onlar ibrət götürmədilər.
Öz qılıncınız qırıb-çatan aslan kimi
peyğəmbərlərinizi tələf etdi”. 31 Ey bu nəslin
övladları, Rəbbin sözünə diqqət edin: “Məgər
Mən İsrail üçün bir səhra oldum? Yaxud bir
zülmət ölkəsi oldum? Xalqım nə üçün deyir ki,
biz öz-özümüzə ağayıq, bir daha Sənə tərəf
gəlmərik? 32 Qız öz bəzəklərini, gəlin öz
cehizini unuda bilərmi? Ancaq xalqım uzun
müddət məni unutdu. 33 Oynaşlarının dalına
düşməkdə nə qədər mahirsən. Ən pis arvadlar
belə, səndən dərs ala bilər. 34 Sənin ətəklərin
öldürdüyün məzlum, günahsız adamların
qanına bulaşıb, halbuki onları oğurluq
üstündə tutmadın. Hələ bununla belə, 35 sən
deyirsən: ‹Mən təqsirsizəm, Rəbbin qəzəbi
hökmən məndən yan keçəcək›. Bax Mən səni
mühakimə edəcəyəm, çünki günah etmədiyini
söyləyirsən. 36 Nə üçün tez-tez dolanıb
dönüklük edirsən? Aşşurda pərt olduğun kimi
Misirdə də pərt olacaqsan. 37 Oradan da
əllərinlə başını tutub çıxacaqsan, çünki bel
bağladıqlarını Rəbb rədd etdi, onlarla uğur
qazana bilməyəcəksən”.

### *Xəyanətkar İsrail*

3 1 Əgər bir adam öz arvadını boşasa,
arvad da onu tərk edib başqasına ərə
getsə, o adam bir də arvadının yanına
qayıdarmı? Belə etsə, ölkə də tamamilə
murdar olmazmı? Sənsə çoxlu oynaşla zina
etdin, yenə də Mənə tərəf dönürsən?» Rəbb
belə bəyan edir. 2 «Başını çılpaq təpələrə tərəf
qaldırıb bax. Sevişmədiyin yer varmı?
Səhrada yaşayan bədəvi kimi yol kənarında
oturdun və oynaşlarını gözlədin. Zinakarlığın
və pisliklərinlə ölkəni murdar etdin. 3 Buna
görə də yağışların ardı kəsildi və yaz yağışı
yağmadı. Tərs sifətli fahişəyə oxşadın,
utanmaq istəmədin. 4 İndi Məni “Atam,
cavanlığımdan bəri Mənim dostumsan. 5 Sən
həmişə qəzəbli olacaqsan, əbədi kin
saxlayacaqsanmı?” deyə çağırırsan. Belə
danışırsan, amma gücün çatdığı qədər pislik
edirsən».

6 Yoşiyanın padşahlığı dövründə Rəbb
mənə dedi: «Dönük İsrailin nə etdiyini
gördünmü? Hər uca təpənin üstünə, kölgəli
ağacın altına gedib orada bütlərə səcdə edərək
Mənə xəyanət etdi. 7 İsrail bütün bunları
edəndən sonra “o Mənə tərəf qayıdacaq”
dedim, ancaq o qayıtmadı. Xəyanətkar bacısı
Yəhuda da bunu gördü. 8 Dəfələrlə zina etdiyi
üçün dönük İsrailə talaq kağızı verib onu
boşadım. Ancaq gördüm ki, onun xəyanətkar
bacısı Yəhuda yenə qorxmadı, o da gedib
fahişəlik etdi. 9 Heç əhəmiyyət vermədən
zinakarlığı ilə ölkəni murdar etdi, daşlara və
ağaclara səcdə edib xəyanət etdi. 10 Bütün
bunlara baxmayaraq onun xəyanətkar bacısı
Yəhuda Mənə bütün qəlbi ilə deyil, hiylə ilə
üz tutdu» Rəbb belə bəyan edir.

11 Rəbb mənə dedi: «Dönük İsrail xain
Yəhuda ilə müqayisədə daha saleh oldu. 12 Get,
bu sözləri şimal səmtinə e’lan edib söylə: “Ey
dönük İsrail, geri qayıt” Rəbb belə bəyan edir.
“Sənə qəzəblə baxmayacağam, çünki Mən
mərhəmətliyəm” Rəbb belə bəyan edir.
“Əbədi kin saxlamaram. 13 Ancaq sən öz
təqsirini boynuna al ki, Allahın Rəbbə qarşı
üsyan etdin, hər kölgəli ağacın altında yad
allahlara könül verdin və Mənim sözümə
qulaq asmadınız” Rəbb belə bəyan edir.

14 “Ey dönük övladlar, geri qayıdın” Rəbb
belə bəyan edir. “Çünki Ağanız Mənəm. Sizi
bir-bir şəhərdən, iki-iki tayfadan çıxarıb Siona
gətirəcəyəm. 15 Ürəyimə yatan çobanları sizə
verəcəyəm, sizə ağıl və müdrikliklə rəhbərlik
edəcəklər. 16 Sizin törəyib çoxaldığınız
günlərdə daha Rəbbin Əhd sandığından
danışmayacaqlar” Rəbb belə bəyan edir. “O
sandıq bir daha kimsənin ağlına gəlməyəcək,
yada salınmayacaq, onun üçün
heyfsilənməyəcəklər, yenisi də
düzəldilməyəcək. 17 O zaman Yerusəlimə
‹Rəbbin taxtı› deyəcəklər. Bütün millətlər
Rəbbin adı naminə Yerusəlimdə toplaşacaq.
Daha pis ürəklərinin inadkarlığına görə
hərəkət etməyəcəklər. 18 O günlərdə Yəhuda
nəsli İsrail nəsli ilə birləşib şimal ölkəsindən
atalarınıza irs olaraq verdiyim torpağa birgə
gələcək”.

19 Mən dedim: “Necə də istərdim, səni
oğullarımın arasına qoyum, sənə füsunkar
torpağı – millətlər arasında ən gözəl irsi verim!
Güman etdim ki, Məni ‹Ata› deyə
çağıracaqsınız, Məndən üz
döndərməyəcəksiniz. 20 Bir arvad öz ərinə
xəyanət edirsə, siz də Mənimlə eləcə

---

***3:6*** *– 2Pad. 22:1-23:30; 2Saln. 34:1-35:27*

xəyanətlə rəftar etdiniz, ey İsrail nəsli!" Rəbb belə bəyan edir.
[21] "Çılpaq təpələr üzərində bir səs –
İsrail övladlarının
Ağlaşma və yalvarışları eşidilir,
Çünki onlar yollarını azdı,
Özlərinin Allahı Rəbbi unutdu.
[22] Geri qayıdın, ey dönük övladlar,
Dönüklüyünüzə şəfa verim".
Onlar da deyəcək:
"Budur, biz Sənə tərəf gəlirik,
Çünki Allahımız Rəbb Sənsən.
[23] Doğrudan da, təpələrdən, dağlardan gələn
Hay-küy yalandır.
Əslində İsrailin xilası
Allahımız Rəbdədir.
[24] Cavanlığımızdan bəri
Rüsvayçı bütlər
Atalarımızın zəhmətini,
Sürülərini və mal-qaralarını,
Oğullarını və qızlarını tələf etdi.
[25] Biz xəcalətimiz içində yatırıq,
Rüsvayçılıq bizim yorğanımızdır,
Çünki cavanlığımızdan indiyədək
Biz və atalarımız
Allahımız Rəbbə qarşı günah etdik,
Allahımız Rəbbin sözünə qulaq asmadıq"».

4 [1] Rəbb bəyan edir: «Ey İsrail, əgər geri qayıtsan,
Mənə tərəf qayıtsan,
İyrənc bütlərini önümdən götürsən,
Bir daha sərgərdan gəzməsən,
[2] Həqiqət, ədalət və doğruluqla
"Var olan Rəbbə and olsun!" deyə and içsən,
O zaman millətlər
Rəbb vasitəsilə bərəkət alacaq,
Onunla öyünəcək».
[3] Çünki Yəhuda adamlarına və Yerusəlimə
Rəbb belə deyir:
«Özünüz üçün təzə əkin yeri şumlayın,
Ancaq tikanlar arasında əkməyin.
[4] Ey Yəhuda adamları və Yerusəlimdə yaşayanlar,
Özünüzü Rəbb üçün sünnət edin,
Ürəyinizin sünnət ətini kəsin.
Yoxsa pis əməllərinizə görə
Qəzəbim od kimi püskürüb yandıracaq,
Söndürən olmayacaq.

### *Yəhudaya hücum*

[5] Yəhudada e'lan edin,
Yerusəlimdə car çəkib deyin:
"Ölkədə şeypur çalın!"
Ucadan qışqırıb söyləyin:
"Gəlin toplanıb
Qalalı şəhərlərə girək!"
[6] "Siona qaçın" deyə bayraq qaldırın,
Qaçıb qurtulun, dayanmayın.
Çünki Mən şimaldan
Bəla və böyük qırğın gətirəcəyəm».
[7] Aslan yuvasından çıxdı,
Millətləri məhv edən yola düşdü.
Öz yerindən çıxdı ki,
Ölkənizi viran etsin.
Şəhərləriniz yerlə yeksan olacaq,
Orada sakin qalmayacaq.
[8] Buna görə də çul geyinin,
Yas tutub ağlayın.
Çünki Rəbbin qızğın qəzəbi
Bizdən dönmədi.
[9] «O gün padşahın və başçıların
Ürəyi gedəcək» Rəbb belə bəyan edir.
«Kahinlər çaşacaq,
Peyğəmbərlər karıxacaq».
[10] Mən dedim: «Ah, ey Xudavənd Rəbb! Bu
xalqı və Yerusəlimi tamamilə aldatdın. "Sizin
üçün əmin-amanlıq olacaq" dedin, halbuki
qılınc boğazımıza dirəndi».
[11] O vaxt bu xalqa və Yerusəlimə deyiləcək:
«Səhradakı çılpaq təpələrdən əziz xalqıma
tərəf isti bir külək əsir. Bu külək dən
sovurmayacaq, taxıl təmizləməyəcək.
[12] Mənim əmrimlə bundan da güclü bir külək
əsəcək və Mən indi onlara Öz hökmümü
bildirəcəyəm».
[13] Budur, düşmən buludlar kimi, onun
döyüş arabaları isə qasırğa kimi yüksəlir,
atları qartallardan iti gedir. Vay halımıza!
Çünki bərbad olduq. [14] Ey Yerusəlim, ürəyini
pislikdən yuyub-təmizlə ki, xilas olasan. Bəd
fikirlərin nə vaxta qədər içində qalacaq?
[15] Artıq Dandan bir səs gəlir, Efrayimin dağlıq
bölgəsindən bəd xəbər eşidilir. [16] «Millətlərə
e'lan edin, Yerusəlimə xəbər çatdırın ki, uzaq
bir ölkədən gələn qoşun onu mühasirəyə
alacaq, Yəhuda şəhərlərinin önündə nə'rə
çəkəcək. [17] Onlar tarla nəzarətçiləri kimi hər

***4:3** – Huş. 10:12*

tərəfdən şəhərə doğru gəlir, çünki o Mənə
qarşı üsyan etdi» Rəbb belə bəyan edir.
18 «Bunları sənin başına gətirən öz işlərin, öz
əməllərindir. Cəzanın acısı lap ürəyinə çatıb.
19 Ah, sinəmdəki dərdim!
Əzabdan qıvrılıram.
Ah, qəlbim, qəlbim çırpınır,
Susa bilmirəm.
Çünki, ey canım,
Şeypur səsini, döyüş nə'rəsini eşidirəm.
20 Qırğın üstünə qırğın gəlir,
Bütün ölkə xaraba qalıb.
Çadırlarım qəflətən,
Pərdələrim bir anda dağıdıldı.
21 Nə vaxta qədər bayraq görəcəyəm,
Boru səsi eşidəcəyəm?

22 Həqiqətən, xalqım ağılsızdır,
Məni tanımır.
Onlar cahil övladlardır,
Dərrakələri yoxdur,
Ağılları pislik etməyə çatır,
Yaxşılıq etməyin nə olduğunu bilmirlər.

23 Yer üzünə baxdım,
Quruluşsuz və boşdur.
Göylərə baxdım,
İşıqları yoxdur.
24 Dağlara baxdım, titrəyirdilər,
Bütün təpələr yerlərindən qopurdu.
25 Baxıb gördüm ki, bir adam qalmayıb,
Göydəki quşların hamısı uçub getmişdir.
26 Baxıb gördüm ki, bəhərli torpaq
Səhraya çevrilib,
Rəbbin önündə bütün şəhərləri
Onun qızğın qəzəbi ilə dağılıb».

27 Bəli, Rəbb belə deyir:
«Bütün ölkə viran olacaq,
Ancaq tam məhv olmasına yol
verməyəcəyəm.
28 Buna görə yer yas tutacaq,
Yuxarıda göylər qaralacaq,
Çünki bunu Mən demişəm,
Fikrimdən daşınmayacağam,
Sözümdən dönməyəcəyəm.

29 Bütün şəhərlərin əhalisi
Süvarilərin və oxatanların
Gurultusundan qaçacaq.
Onlar sıx meşələrə girir,
Qayalara dırmaşır.
Bütün şəhərlər tərk edilmiş,
Orada kimsə yaşamır.
30 Bəs sən ey viran şəhər, nə edəcəksən?
Qırmızı paltar geyinsən də,
Qızıl bəzəklər taxsan da,
Gözlərinə sürmə sürtsən də,
Əbəs yerə özünü bəzəyirsən.
Sənə oynaşların xor baxır,
Canını almaq istəyir.
31 Mən bir səs eşidirəm:
Sanki doğuş ağrısı çəkən,
Birinci dəfə doğan qadının –
Əllərini uzatmış,
Nəfəsi kəsilmiş Sion qızının səsidir.
O deyir: "Vay halıma!
Qatillərin önündə
Canım taqətdən düşdü".

### *Yerusəlimin günahı*

5 1 Yerusəlimin küçələrini dolaşın,
Ətrafa baxıb fikirləşin,
Onun meydanlarını axtarın.
Əgər bir nəfər düz iş görən,
Həqiqət axtaran adam tapsanız,
Mən şəhəri bağışlayaram.
2 Onlar "var olan Allaha and olsun"
desələr də,
Yalandan and içirlər».
3 Ya Rəbb, gözlərin həqiqətə tərəf
yönəlməyibmi?
Sən onları vurdun,
Ancaq ağrı hiss etmədilər.
Sən onları qırdın,
Ancaq ibrət götürmədilər.
Üzləri daşdan bərk olub,
Dönmək istəmədilər.

4 Mən dedim: «Bunlar ancaq yoxsul,
ağılsız avamlardır,
Çünki Rəbbin yolunu,
Özlərinin Allahının hökmlərini bilmirlər.
5 Qoy mən böyüklərin yanına gedib
Onlarla danışım,
Çünki Rəbbin yolunu,
Özlərinin Allahının hökmlərini bilirlər».
Ancaq onlar da boyunduruğu sındırıb
İpləri qopardılar.
6 Buna görə də meşədən bir aslan çıxıb
Onları öldürəcək,
Səhradan qurd gəlib onları parçalayacaq,
Şəhər kənarında bəbir pusqu quracaq,
Şəhərdən çıxan hər adam parçalanacaq.
Çünki çox üsyan etdilər,

Dəfələrlə dönük oldular.

7 «Buna görə səni necə bağışlaya bilərəm?
Övladların Məni tərk etdi,
Allah olmayan bütlərin adı ilə and içdi.
Mən onları doydurdum,
Amma onlar zina etdi,
Fahişələrin evlərinə yığışdı.
8 Onlar harınlaşmış, şəhvətli atlar kimidir.
Hər biri qonşusunun arvadına kişnəyir».
9 Rəbb bəyan edir: «Bunlara görə
Mən onlara cəza verməyimmi?
Belə bir millətdən qisas almayımmı?
10 Onların bağlarını dolaşıb dağıdın,
Amma büsbütün məhv etməyin.
Meynə budaqlarını qoparıb atın,
Çünki onlar Rəbbə məxsus olmayan insanlardır».
11 Rəbb bəyan edir: «İsrail və Yəhuda nəsli
Mənə tamamilə xəyanət etdi.

12 Onlar Rəbb üçün yalandan dedi:
"O heç nə etməz,
Başımıza bəla gəlməz.
Nə qılınc görəcəyik, nə aclıq".
13 Peyğəmbərlər boşboğazdır.
Allahın sözü onlarda deyil,
Qoy onların başına bu iş gəlsin».

14 Buna görə də Ordular Allahı Rəbb belə deyir:
«Belə sözlər dedikləri üçün,
Ey Yeremya, sözlərimi sənin ağzında atəşə,
Bu xalqı isə oduna çevirəcəyəm,
Atəş onları yandırıb-qurtaracaq».
15 Rəbb bəyan edir: «Ey İsrail xalqı,
Uzaqdan üstünüzə bir millət gətirəcəyəm.
Dilini bilmədiyin,
Dediklərini anlamadığın
Güclü, qədim bir millət.
16 Onların oxdanları
Açıq qəbir kimidir,
Hamısı igid döyüşçüdür.
17 Onlar sənin məhsul və çörəyini yeyəcək.
Oğul və qızlarını yeyəcək,
Sürü və naxırlarını yeyəcək,
Meynə və əncir ağaclarını yeyəcək.
Güvəndiyin qalalı şəhərləri
Qılıncla dağıdacaq».

18 Ancaq Rəbb bəyan edir: «Hətta o günlər
sizi tamamilə qırıb-çatmayacağam. 19 Bir vaxt
onlar soruşacaq: "Nə üçün Allahımız Rəbb
bütün bunları başımıza gətirdi?" Onda onlara
belə söylə: "Necə Məni tərk edərək öz
ölkənizdə yad allahlara xidmət etdinizsə,
eləcə də özgə ölkədə yadellilərə xidmət
edəcəksiniz".
20 Bunu Yaqub nəslinin içində bildirin,
Yəhudada e'lan edin.
21 Ey gözləri olub görməyən,
Qulaqları olub eşitməyən,
Ağılsız və dərrakəsiz xalq,
Bu sözə qulaq asın!
22 Məndən qorxmursunuzmu?» Rəbb belə bəyan edir.
«Mənim qarşımda titrəmirsinizmi?
Axı Mən əbədi fərmanla
Dəniz üçün qumu sərhəd qoydum,
Dəniz bu sərhədi keçə bilməz.
Dalğaları coşsa da,
Üstün gələ bilməz.
Nə'rə çəksə də, keçə bilməz.
23 Bu xalqın ürəyi inadlı və üsyankardır.
Onlar azıb öz yolları ilə getdi.
24 Daha öz-özlərinə demirlər ki,
Payız və yaz yağışlarını vaxtında verən,
Müəyyən biçin həftələrini bizim üçün qoruyan
Allahımız Rəbbə sitayiş edək.
25 Təqsirləriniz bunları sizdən aldı,
Günahlarınız sizi bu ne'mətdən məhrum etdi.
26 Mənim xalqımın içində pis adamlar var:
Quş ovçuları kimi pusquda dururlar,
Tələ qurub adam tuturlar.
27 Quşlarla dolu qəfəs kimi
Onların evləri hiylə ilə doludur.
Bunun sayəsində yüksəldilər, varlandılar.
28 Onlar piylənib, yoğunlaşıb,
Pis işlərlə hədlərini aşıb,
Məhkəmə işlərini,
Yetimlərin işlərini
Ədalətlə həll etmirlər ki,
Qalib gəlsinlər.
Yoxsulların haqqını müdafiə etmirlər».
29 Rəbb bəyan edir:
«Bunlara görə Mən onlara cəza verməyimmi?

---

***5:21*** *– Yeş. 6:9-10; Yez. 12:2; Mrk. 8:18-19*
***5:22*** *– Əyy. 38:8-11*

Belə bir millətdən qisas almayımmı?
30 Bu ölkədə heyrətli və dəhşətli bir iş oldu:
31 Peyğəmbərlər yalandan peyğəmbərlik edir,
Kahinlər onların əli ilə hökmranlıq edir.
Xalqım da bunu bəyənir.
Amma axırda nə edəcəksiniz?»

### *Yerusəlimin mühasirəsi*

6 1 Ey Binyamin övladları,
Yerusəlimin içindən qaçıb qurtarın.
Teqoada şeypur çalın,
Bet-Hakkeremdə odla işarə verin,
Çünki şimaldan fəlakət,
Böyük qırğın zahir olur.
2 Mən gözəl və zərif qızı –
Sion qızını talan edəcəyəm.
3 Çobanlar öz sürüləri ilə
Ona qarşı gələcək,
Hər tərəfdən onun önündə çadır quracaq.
Hər kəs öz yerində sürüsünü otaracaq.
4 Sion qızı ilə döyüşə hazırlaşın!
Qalxın, günorta çağı hücum edək!
Vay halımıza!
Gün tutqunlaşır,
Axşam kölgələri uzanır.
5 Qalxın, gecə vaxtı hücum edək!
Onun imarətlərini dağıdaq!

6 Ordular Rəbbi belə dedi:
«Ağac kəsin,
Yerusəlimin önündə torpaq qalağı qurun.
Bu şəhər cəzalanmalıdır,
Çünki zorakılıqla dolub-daşır.
7 Bir bulaqdan necə su axarsa,
Bu şəhərdən də eləcə pislik fışqırır.
İçində zorakılıq və soyğunçuluq səsi eşidilir.
Önümdə həmişə dərd və yara görürəm.
8 Ey Yerusəlim, ibrət al,
Yoxsa səndən üz döndərərəm,
Səni xarabaya, əhalisiz torpağa çevirərəm».

9 Ordular Rəbbi belə deyir:
«Tənəkdən son üzümlər yığılan kimi
İsrailin qalan əhalisi də
Yığılıb qurtaracaq.
Üzümyığan kimi
Yenə meynə budaqlarına əlini uzat».

10 Kiminlə danışım,
Kimə xəbərdarlıq edim ki, qulaq assın?
Axı qulaqları tıxanıb,
Eşidə bilmirlər.
Onların arasında Rəbbin sözünə lağ edilir,
Ondan xoşları gəlmir.
11 Buna görə də mən Rəbbin qəzəbi ilə dolmuşam,
Özümü ələ almaqdan yorulmuşam.
«Qəzəbini küçədə olan uşaqların,
Yığılan cavanların üzərinə tök.
Bəli, ər də, arvad da,
Qoca da, yaşa dolmuş adam da ələ keçəcək.
12 Evləri, tarlaları və arvadları da
Başqalarına qalacaq.
Çünki əlimi ölkədə yaşayanlara qarşı uzadacağam»
Rəbb belə bəyan edir.

13 «Ona görə ki böyüyündən kiçiyinə qədər
Hər kəs haram qazanc dalınca qaçır.
Peyğəmbərdən kahinə qədər hər kəs hiylə qurur.
14 Xalqımın yarasını yüngülcəsinə müalicə edirlər,
"Sülh, sülh" deyirlər,
Amma sülh yoxdur.
15 İyrənc işlər görəndə utanırlarmı?
Yox, heç utanmırlar,
Utanıb qızarmaq bilmirlər.
Buna görə yıxılanlar arasında
Onlar da olacaq.
Mən onları cəzalandıranda
Yerə səriləcəklər» deyir Rəbb.

16 Rəbb belə deyir:
«Yolayrıcında dayanıb baxın,
Əzəldən olan yolları soruşun.
Yaxşı yolun harada olduğunu öyrənin,
O yolla gedin.
Onda ürəyiniz dinclik tapar.
Ancaq siz "o yolla getməyəcəyik" dediniz.
17 Mən sizin üzərinizə
Keşikçilər qoyub dedim:
"Şeypur səsinə qulaq asın!"
Ancaq siz "qulaq asmayacağıq" dediniz.

***6:12-15** – Yer. 8:10-12*
***6:14** – Yer. 8:11; Yez. 13:10*
***6:16** – Mat. 11:29*

18 Buna görə də, ey millətlər, qulaq asın,
Ey camaat, bilin ki,
Onların başına nə gələcək.
19 Eşit, ey yer üzü,
Mən bu xalqın başına fəlakət
gətirəcəyəm.
Bu onların niyyətlərinin bəhrəsi olacaq.
Çünki Mənim sözlərimə qulaq asmadılar,
Mənim qanunumu rədd etdilər.
20 Səbadan gətirilən kündür,
Uzaq ölkədən gəlmiş ətirli qamış
Nəyimə lazımdır?
Yandırma qurbanlarınız Mənə məqbul
deyil,
Başqa qurbanlarınız da Mənə xoş deyil».
21 Buna görə də Rəbb belə deyir:
«Mən bu xalqın qabağına
Maneələr qoyacağam.
Atalar və oğullar birlikdə
Onlara ilişib yıxılacaq.
Qonşu dostu ilə birgə həlak olacaq».

22 Rəbb belə deyir:
«Budur, şimal ölkəsindən
Bir xalq gəlir,
Dünyanın uzaq yerlərindən
Böyük bir millət hərəkətə gəlir.
23 Onlar əllərində ox-kaman və nizə
tutub,
Rəhmsizdirlər, heç kəsə acımırlar.
Səsləri dəniz kimi gurlayır,
Atlara miniblər.
Onlar yekdilliklə səninlə
Müharibəyə hazırdır, ey Sion qızı!»

24 Onlar haqqında xəbər eşitdik,
Əllərimiz yanımıza düşdü.
Doğan qadın kimi bizi
Sıxıntı və əzab bürüdü.
25 Çölə çıxma, yola düşmə,
Çünki düşməndə qılınc,
Hər tərəfdə dəhşət var.

26 Ey əziz xalqım!
Çul geyin və küldə yuvarlan.
Yeganə oğluna yas tutan kimi
Yas tutub acı-acı ağla.
Çünki məhv edən qəflətən başımızın
üstünü alacaq.

27 Rəbb deyir: «Ey Yeremya, Mən səni
qoydum ki,
Xalqımı yoxlayıb imtahan edəsən,
Onlara nəzər qoyub əməllərini sınayasan.
28 Hamısı inadkar dönükdür,
Böhtançılar kimi dolaşan adamlardır.
Tunc və dəmir kimi sərtdirlər,
Hamısı pozğun olub.
29 Körük basılır,
Atəşində qurğuşun əriyir.
Ancaq dəmirçi nahaq yerə əridir,
Çünki pislər ayrılmır.
30 Onlara isə "atılmış gümüş" deyəcəklər,
Çünki Rəbb onları atdı».

### *Mə'bəddə bütpərəstlik*

7 1 Rəbdən Yeremyaya bu söz nazil oldu:
2 «Rəbbin mə'bədinin qapısında dur və
orada bu sözü e'lan edib söylə ki, ey bütün
Yəhuda, Rəbbə ibadət etmək üçün bu
qapılardan girənlər, Rəbbin sözünə qulaq asın.
3 İsrailin Allahı olan Ordular Rəbbi belə deyir:
"Yollarınızı və əməllərinizi islah edin ki, Mən
sizi bu yerdə yaşamağa qoyum. 4 ‹Burada
Rəbbin mə'bədi var, Rəbbin mə'bədi var,
Rəbbin mə'bədi var› deyib yalan sözlərə
güvənməyin. 5 Əgər yollarınızı və əməllərinizi
tamamilə islah etsəniz, bir-birinizlə, həqiqətən,
ədalətlə rəftar etsəniz, 6 qəribə, yetimə və dul
qadına zülm etməsəniz, bu yerdə günahsız
qan tökməsəniz, özünüzə zərər vuraraq başqa
allahların tərəfdarı olmasanız, 7 o zaman
burada əbədilik atalarınıza verdiyim torpaqda
sizi yaşamağa qoyacağam.
8 Siz isə faydasız olan yalan sözlərə
güvənirsiniz. 9 Siz oğurluq edirsiniz, adam
öldürürsünüz, zina edirsiniz, yalandan and
içirsiniz, Baal bütlərinə buxur yandırır,
tanımadığınız başqa allahların tərəfdarı
olursunuz. 10 Sonra bütün bu iyrənc işləri
görmək üçün Mənim adımla çağırılan bu
mə'bədə gəlib önümdə durur və ‹biz əmin-
amanlıqdayıq› deyirsiniz. 11 Mənim adımla
çağırılan bu mə'bəd, sizcə, quldur yuvasına
çevrildimi? Amma Mən nə etdiyinizi
görürəm" Rəbb belə bəyan edir.
12 "İndi adımı ilk dəfə qoyduğum Şilodakı
məskənimə gedin və xalqım İsrailin pisliyinə
görə ona nə etdiyimi görün". 13 Rəbb bəyan
edir: "Siz bütün bu işləri gördünüz, dəfələrlə
xəbərdarlıq etdiyim halda Mənə qulaq
asmadınız, sizi çağırdığım halda cavab

---

*7:11 – Mat. 21:13; Mrk. 11:17; Luk. 19:46*
*7:12-14 – Yeşua 18:1; Zəb. 78:60; Yer. 26:6*

vermədiniz. [14] Buna görə də Şilo ilə necə rəftar etdimsə, Mənim adımla çağırılan, güvəndiyiniz mə’bədlə, sizə və atalarınıza verdiyim bu yerlə də elə rəftar edəcəyəm. [15] Efrayim nəslindən olan soydaşlarınızı necə rədd etdimsə, sizi də eləcə önümdən rədd edəcəyəm.

[16] Sən isə, ey Yeremya, bu xalq üçün dua etmə, onlar üçün yalvarıb xahiş etmə və önümdə mərhəmət istəmə, çünki sözünə qulaq asmayacağam. [17] Yəhuda şəhərlərində, Yerusəlim küçələrində onların nə etdiklərini görmürsənmi? [18] Uşaqlar odun yığır, ataları od yandırır, qadınlar Göylər Mələkəsinə xəmir yoğurub kökə bişirir. Onlar başqa allahlara maye təqdimləri verir ki, Məni qəzəbləndirsinlər”. [19] Rəbb bəyan edir: “Onlar Mənimi incidirlər? Məgər özlərini rüsvay etmirlərmi?” [20] Buna görə də Xudavənd Rəbb belə deyir: “Bax bu yerin, insanların, heyvanların, çöl ağaclarının, torpağın məhsulu üzərinə qəzəbim və qızğınlığım töküləcək, alışıb sönməyəcək”.

[21] İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: “Yandırma qurbanlarımızı başqa qurbanlarınıza qatıb ət yeyin. [22] Çünki atalarınızı Misir torpağından çıxaran vaxt yandırma qurbanı və başqa qurban barədə onlara əmr etmədim və bir söz demədim. [23] Ancaq onlara bunu əmr edib dedim: ‹Sözümə qulaq asın. Onda Mən sizin Allahınız olacağam, siz də Mənim xalqım olacaqsınız. Hər barədə sizə əmr etdiyim yolla gedin ki, uğur qazanasınız›. [24] Ancaq Məni eşitmədilər, qulaq asmadılar. Bunun əvəzinə öz istəklərinə, pis ürəklərinin inadkarlığına görə hərəkət etdilər, irəliyə deyil, geriyə getdilər. [25] Atalarınız Misir torpağından çıxdıqları gündən bu günə qədər Öz qullarım olan peyğəmbərləri hər gün dəfələrlə yanınıza göndərdim. [26] Amma Məni eşitmədilər, qulaq asmadılar, inadkarlıq etdilər, atalarından da pis işlər gördülər.

[27] Sən bütün bu sözləri onlara söyləyəcəksən, ancaq sənə qulaq asmayacaqlar, onları çağıracaqsan, ancaq sənə cavab verməyəcəklər”. [28] Sən onlara söylə: “Bu həmin xalqdır ki, öz Allahı Rəbbin sözünə qulaq asmır və cəzadan ibrət almır. Onlarda həqiqət yox oldu, həqiqətdən heç danışmırlar.

[29] Ey Yerusəlim, saçını kəsib at,
Çılpaq təpələr üzərində mərsiyə oxu,
Çünki Rəbb qəzəbləndiyi nəsli
Rədd edib tərk etdi.

[30] Ona görə ki Yəhuda övladları gözümdə pis olan işlər gördü” Rəbb belə bəyan edir. “Mənim adımla çağırılan mə’bədə iyrənc bütlərini qoyub oranı murdarladılar. [31] Onlar oğul və qızlarını odda yandırmaq üçün Ben-Hinnom dərəsindəki Tofetdə səcdəgahlar düzəltdilər. Mən belə bir şeyi nə buyurdum, nə də ağlıma gətirdim”».

[32] Rəbb bəyan edir: «Buna görə də bir gün gələcək ki, oraya Tofet yaxud Ben-Hinnom dərəsi deyil, Qırğın dərəsi deyiləcək. Tofetdə yer qalmayana qədər ölüləri basdıracaqlar. [33] Bu xalqın cəsədləri göydəki quşlara, yerdəki heyvanlara yem olacaq, onları qorxudub qaçıran olmayacaq. [34] Yəhuda şəhərlərində, Yerusəlim küçələrində sevinc və şadlıq sədasını, bəy-gəlin səsini kəsəcəyəm, çünki ölkə viran olacaq».

# 8

[1] Rəbb bəyan edir: «O vaxt Yəhuda padşahlarının və başçılarının, kahinlərinin, peyğəmbərlərin və Yerusəlimdə yaşayanların sümüklərini qəbirlərindən çıxarıb atacaqlar. [2] Onların sümükləri sevdikləri, qulluq etdikləri, tərəfdarı olduqları, müraciət və səcdə etdikləri günəşin, ayın və bütün səma cisimlərinin önünə töküləcək. Onlar bir yerə yığılıb basdırılmayacaq, torpağın üstündə peyin kimi olacaq. [3] Bu pis tayfadan sağ qalanların hamısı sürgün etdiyim hər yerdə həyatı yox, ölümü seçəcək» Ordular Rəbbi belə bəyan edir.

### *Günah və mükafat*

[4] Onlara söyləyəcəksən ki, Rəbb belə
deyir:
«Yıxılanlar qalxmazmı?
Yoldan azan geri qayıtmazmı?
[5] Bəs nə üçün bu xalq yoldan azdı?
Nə üçün Yerusəlim daim dönüklük edir?
Onlar yalandan bərk yapışıb,
Dönmək istəmir.
[6] Mən diqqət edib qulaq asdım:
Heç kəs düz danışmır,

---

***7:31*** *– Lev. 18:21*
***7:31*** *– 2Pad. 23:10; Yer. 32:35*
***7:33*** *– Qanun. 28:26*
***7:34*** *– Yer. 16:9; 25:10; Vəhy 18:23*
***8:3*** *– Əyy. 3:21; Vəhy 9:6*

"Nə etdim?" deyib öz pisliyindən tövbə
etmir.
Hər biri döyüşə atılan at kimi
Öz yoluna tərəf dönür.
7 Hətta göydə uçan leylək də
Öz vaxtını bilir,
Qumru, qaranquş, durna da
Uçub gələcəkləri vaxtı gözləyir,
Amma Mənim xalqım Rəbbin
hökmlərini bilmir.

8 Nə haqla deyirsiniz ki, biz müdrikik,
Rəbbin qanunu bizdədir?
Budur, alimlərin hiyləgər qələmi
Onu yalan şərh edir.
9 Müdriklər rüsvay oldu,
Çaşıb tora düşdü.
Onlar Rəbbin sözünü rədd etdi.
Bəs onların müdrikliyi nədədir?
10 Buna görə də arvadlarını başqa
adamlara,
Tarlalarını isə başqa sahiblərə
verəcəyəm,
Ona görə ki böyükdən kiçiyə qədər
Hər kəs haram qazanc dalınca qaçır.
Peyğəmbərdən kahinə qədər
Hər biri yalan iş görür.
11 Əziz xalqımın yarasını
Yüngülcəsinə müalicə edirlər.
"Sülh, sülh" deyirlər,
Amma sülh yoxdur.
12 İyrənc işlər görəndə utanırlarmı?
Yox, heç utanmırlar,
Utanıb-qızarmaq bilmirlər.
Buna görə də yıxılanlar arasında
Onlar da olacaq.
Onları cəzalandırdığım vaxt
Yerə səriləcəklər» deyir Rəbb.

13 «Onları qırıb-çatacağam»
Rəbb belə bəyan edir.
«Tənək üzüm gətirməyəcək,
Əncir ağacı bar verməyəcək,
Yarpaqlar solacaq.
Mən onlara nə verdimsə,
Hamısı əllərindən alınacaq».

14 «Nə üçün yerimizdə oturmuşuq?
Yığılın, gedib qalalı şəhərlərə girək,
Orada həlak olaq,
Çünki Allahımız Rəbb
Bizi ölümə təslim etdi,
Bizə zəhərli su içirdi,
Ona görə ki Rəbbə qarşı günah etdik.
15 Sülh gözləyirik, amma xeyir gəlmir.
Şəfa vaxtını gözləyirik,
Amma dəhşət gəlir.
16 Dandan onların atlarının fınxırtısı
eşidilir,
Ayğırlarının kişnəmə səsindən
Bütün ölkə titrəyir.
Onlar gəlir,
Torpağı və orada olan hər şeyi,
Şəhəri və orada yaşayanları yeyib-
qurtarır.
17 Baxın Mən üstünüzə ilanlar,
Ovsunla ram olmayan gürzələr
göndərəcəyəm,
Onlar sizi sancacaq» Rəbb belə bəyan
edir.

### *Yeremyanın xalqın taleyi üçün narahatlığı*

18 Dərdimə təsəlli yoxdur,
Ürəyim köksümdə taqətsizdir.
19 Baxın uzaq ölkədən
Əziz xalqımın fəryadını eşidirəm:
«Məgər Rəbb Sionda yoxdur?
Onun padşahı orada deyilmi?

Onlar nə üçün oyma bütləri,
Yad olan puç şeyləri ilə
Məni qəzəbləndirirlər?

20 Biçin sona çatdı, yay qurtardı,
Biz xilas olmadıq».

21 Əziz xalqımın yarasından
Mən də yaralandım,
Yas tutub dəhşətə gəldim.
22 Məgər Gileadda məlhəm yoxdur?
Orada həkim yoxdur?
Əgər varsa,
Əziz xalqıma nə üçün şəfa verilmədi?

9 1 Kaş ki başım bulaq olaydı,
Gözlərim yaş çeşməsinə dönəydi,
Əziz xalqımdan öldürülənlərə
Gecə-gündüz yas tutaydım.
2 Kaş ki kimsə mənə səhrada
Səyyahların sığınacağını verəydi!
Mən xalqımı tərk edib
Onlardan uzaqlaşardım.

***8:10-12** – Yer. 6:12-15*
***8:11** – Yer. 6:14; Yez. 13:10*

Çünki onların hamısı
Zinakar və xain yığınıdır.

3 «Dillərini yalan üçün
Kaman kimi dartırlar.
Həqiqət naminə güc göstərmirlər.
Çünki pisliyi pislik dalınca edirlər,
Məni tanımırlar» Rəbb belə bəyan edir.
4 «Hər kəs dostundan çəkinsin,
Heç qardaşına da e’tibar etməsin.
Çünki hər qardaş başqasına badalaq gəlir,
Hər dost böhtançıdır.
5 Hər kəs öz dostunu aldadır,
Doğru söyləmir.
Onlar dillərini yalan danışmağa öyrətdi,
Yorulana qədər günah işlətdi.
6 Ey Yeremya, hiylə içində yaşayırsan,
Hiylədən ötrü Məni tanımaq istəmirlər»
Rəbb belə bəyan edir.
7 Buna görə də Ordular Rəbbi belə deyir:
«Mən onları əridəcəyəm,
Sınaqdan keçirəcəyəm.
Axı Mən əziz xalqımla
Başqa cür necə rəftar edə bilərəm?
8 Dilləri öldürücü oxdur,
Məkrlə danışırlar.
Ağzı ilə qonşusuna xoş sözlər söyləyir,
Ürəyində isə ona tələ qururlar».
9 Rəbb bəyan edir:
«Bunlara görə Mən onlara cəza
verməyimmi?
Belə bir millətdən qisas almayımmı?»

10 Dağlar üçün ağlayıb nalə çəkəcəyəm,
Çölün otlaqları üçün mərsiyə
oxuyacağam.
Çünki hamısı yandı,
Daha kimsə oradan keçmir,
Naxırın böyürtüsü eşidilmir.
Quşlar və heyvanlar da qaçıb getdi.

11 «Yerusəlimi daş qalaqlarına,
Çaqqal yuvasına döndərəcəyəm.
Yəhuda şəhərlərini
Sakinsiz bir xarabalığa çevirəcəyəm»
deyir Rəbb.
12 Bir müdrik adam varmı, bunu anlasın?
Rəbbin dili ilə danışan bir adam varmı, bunu
izah etsin? Niyə bu ölkə məhv oldu, səhra
kimi yandı və heç kəs oradan keçmir? 13 Rəbb
deyir: «Ona görə belə oldu ki, onlar üçün
qoyduğum qanunumu rədd etdilər, sözümə
qulaq asıb əməl etmədilər, 14 ürəklərinin
inadkarlığına görə rəftar etdilər və atalarının
öyrətdiyi kimi Baal bütlərinə itaət etdilər.
15 Buna görə də İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: “Mən bu xalqa yovşan
yedirəcək, zəhərli su içirəcəyəm. 16 Onları
özlərinin və atalarının tanımadıqları millətlər
arasına səpələyəcəyəm. Onları məhv
edənədək arxalarınca qılınc göndərəcəyəm”».
17 Ordular Rəbbi belə deyir:
«İndi düşünün,
Mərsiyəçi qadınları çağırın gəlsinlər,
Bu işdə bacarıqlı olanları
Gətirin gəlsinlər.
18 Qoy onlar tələsib o qədər
Bizim üçün fəryad etsinlər ki,
Gözlərimizdən yaş axsın,
Kirpiklərimizdən su süzülsün».
19 Çünki Siondan fəryad səsi eşidilir:
«Biz necə talan olunduq,
Yaman rüsvay edildik.
Çünki ölkəni tərk edirik,
Məskənlərimiz dağıdılır».

20 Ey qadınlar, Rəbbin sözünü eşidin,
Ağzından çıxan sözə qulaq asın.
Qızlarınıza fəryad etməyi öyrədin,
Hər kəs yoldaşına mərsiyə oxumağı
öyrətsin.
21 Çünki ölüm pəncərələrimizə dırmaşdı,
Saraylarımıza girdi ki,
Küçədə uşaqları,
Meydanlarda cavanları qırıb-çatsın.

22 Sən söylə ki, Rəbb belə bəyan edir:
«İnsan cəsədləri tarlada peyin kimi,
Biçinçinin ardınca qalan taya kimi yerə
yıxılacaq.
Onları yığıb aparan olmayacaq».

23 Rəbb belə deyir:
«Müdrik müdrikliyi ilə öyünməsin,
İgid öz gücü ilə öyünməsin,
Varlı öz sərvəti ilə öyünməsin.
24 Ancaq öyünən onunla öyünsün ki,
Mən Rəbbin dünyada
Məhəbbət, ədalət və salehlik yaratdığını
Dərk edir və Məni tanıyır.
Çünki Mən bunlardan xoşlanıram»
Rəbb belə bəyan edir.

---

***9:15** – Vəhy 8:11*
***9:24** – 1Kor. 1:31; 2Kor. 10:17*

25 Bəli, Rəbb bəyan edir: «Gün gələcək ki,
Mən yalnız bədəni sünnət olanları
cəzalandıracağam. 26 Misiri, Yəhudanı,
Edomu, Ammon övladlarını, Moavı, çöldə
yaşayıb kəkillərini qırxanların hamısını
cəzalandıracağam, çünki bütün bu millətlər
sünnətsizdir, bütün İsrail nəslinin də ürəyi
sünnətsizdir».

### *Allaha ibadət və bütlərə pərəstiş*

10 1 Rəbbin sizə söylədiyi sözü eşidin,
ey İsrail nəsli!
2 Rəbb belə deyir:
«Başqa millətlərin yolu ilə getməyin,
Göy əlamətlərindən qorxmayın,
Bunlardan başqa millətlər qorxur.
3 Çünki xalqların adətləri boş şeydir.
Meşədə ağac kəsirlər,
Usta əli kəski ilə onu düzəldir.
4 Sonra qızıl-gümüşlə bəzəyirlər,
Çəkiclə, mıxla bərkidirlər ki,
Yerindən tərpənməsin.
5 Bütləri xiyar bostanındakı müqəvva
kimi
Danışa bilmir.
Onları daşımaq lazımdır,
Çünki gedə bilmirlər.
Onlardan qorxmayın,
Çünki nə pislik edə bilərlər,
Nə də yaxşılıq».

6 Sənin kimi Allah yoxdur, ya Rəbb.
Sən böyüksən, əzəmətdə adın ucadır.
7 Ey millətlərin Padşahı,
Sənə kim hörmət etməz?
Sənə hörmət yaraşır,
Çünki millətlərin bütün müdrikləri
arasında,
Bütün ölkələrində Sənin kimisi yoxdur.
8 Bütlərə səcdə edənlərin hamısı
Ağılsız və axmaqdır,
Boş şeylərdən tə'lim alırlar.
Büt bir ağacdır!
9 Tarşişdən döyülmüş gümüş,
Ufazdan qızıl gətirilir.
Ustanın və zərgərin əli ilə düzəldilən
bütə
Bənövşəyi və tunc qırmızı paltar
geyindirilir.
Hamısı bacarıqlı toxucu işidir.
10 Ancaq Rəbb haqq Allahıdır.
Var olan Allahdır,
Əbədi Padşah Odur.
Qəzəbindən dünya titrəyər,
Hiddətinin qarşısında
Millətlər dura bilməz.

11 Allah mənə dedi ki, onlara belə söylə:
«Yeri və göyü yaratmayan allahlar
Yer üzündən və göyün altından yox
olacaq».[5]
12 Rəbb qüdrəti ilə yer üzünü yaratdı,
Hikməti ilə dünyanı qurdu,
Dərrakəsi ilə göyləri yaydı.
13 O gurlayanda göylərdəki sular
çağlayır,
Yerin ucqarlarından buludları yüksəldir,
Yağış üçün şimşək çaxdırır,
Anbarlarından külək çıxarır.
14 Hər kəs ağılsız oldu,
Bilikləri qalmadı.
Hər zərgər düzəltdiyi bütdən utanacaq,
Çünki onun tökdüyü büt puçdur,
Onda nəfəs yoxdur.
15 Onlar boş şey,
Masqaraçıların işidir.
Cəza vaxtı məhv olacaqlar.
16 Yaquba Nəsib Olan isə onlara
bənzəməz,
Çünki hər şeyi yaradan Odur.
İsrail Onun irs qəbiləsidir,
Onun adı Ordular Rəbbidir.

17 Ey sən mühasirəyə alınan şəhərdə
yaşayan,
Şələ-küləni yerdən yığışdır.
18 Çünki Rəbb belə deyir:
«Mən bu dəfə ölkənin sakinlərini
Sapandla kənara atacağam.
Onları dara salacağam ki,
Düşmən əlinə keçsinlər».

### *Yeremyanın duası*

19 Əzabıma görə vay halıma!
Yaram sağalmaz.
Ancaq mən dedim:
«Həqiqətən, bu mənim dərdimdir,
Mən də ona dözməliyəm.
20 Çadırım yıxıldı,
Bütün iplərim qopdu.

***10:7*** *– Vəhy 15:3-4*

[5] **10:11** Bu ayə arami dilində yazılmışdır.
***10:12-15*** *– Yer. 51:15-18*
***10:13*** *– Zəb. 135:7; Yer. 51:16*

Uşaqlarım məni tərk etdi,
Onlar artıq yoxdur.
Çadırımı quran, pərdələrimi asan
qalmadı.
21 Çünki xalqın çobanları ağılsız oldu,
Rəbdən soruşmadılar.
Buna görə də uğur qazanmadılar,
Bütün sürüləri dağıldı.
22 Dinləyin, bir xəbər yayılır:
Şimal ölkəsindən böyük gurultu gəlir ki,
Yəhuda şəhərlərini xarabalığa,
Çaqqal yuvasına çevirsin.

23 Ya Rəbb, bilirəm ki,
İnsanın ömrü öz əlində deyil.
Addımlarını düzəltmək
Gedən adamın işi deyil.
24 Mənə cəza ver, ya Rəbb,
Ancaq qəzəbinlə yox, ədalətinlə.
Yoxsa məni heçə çıxardarsan.
25 Qəzəbini Səni tanımayan millətlərin,
Adını çağırmayan tayfaların üzərinə tök.
Çünki onlar Yaqub nəslini yedi,
Onu yeyib-qurtardı,
Yurdunu viran etdi».

### *Allahla əhdə xəyanət*

11 1 Rəbdən Yeremyaya bu söz nazil
oldu: 2 «Bu əhdin sözlərinə qulaq asın,
Yəhuda adamlarına və Yerusəlimdə
yaşayanlara söyləyib 3 bildirin ki, İsrailin
Allahı Rəbb belə deyir: "Bu əhdin sözlərinə
qulaq asmayana lə'nət olsun. 4 Bu əhd
barəsində Mən atalarınızı Misir torpağından,
dəmir əridən sobanın içindən çıxardığım vaxt
əmr edib dedim: ‹Mənim sözümə qulaq asın,
sizə əmr etdiyim hər şeyi edin. Onda siz
Mənim xalqım, Mən də sizin Allahınız
olacağam. 5 Belə etsəniz, Mən də atalarınıza
and içib və'd verdiyim şeyə əməl edərəm, bu
gün sizin olan torpağı – süd və bal axan
torpağı sizə verərəm›"». Mən də cavab verib
«amin, ya Rəbb» dedim.
6 Rəbb mənə dedi: «Bu sözlərin hamısını
Yəhuda şəhərlərində və Yerusəlim
küçələrində car çəkib söylə: "Bu əhdin
sözlərinə qulaq asın, onlara əməl edin". 7 Bəli,
Mən atalarınıza onları Misir torpağından
çıxardığım gündən indiyə qədər ciddi
xəbərdarlıq etdim. Onlara dəfələrlə
xəbərdarlıq edib dedim: "Mənim sözümə
qulaq asın". 8 Ancaq onlar qulaq asmadı,
diqqət etmədi, inadkarlıqla qara ürəklərinin
istədiyinə uydu. Buna görə də Mən əhddə
deyilən bütün cəzaları onların başına gətirdim.
Mən onlara bu əhdə əməl etməyi əmr
etmişdim, onlarsa əməl etmədi».
9 Sonra Rəbb mənə dedi: «Yəhuda adamları
və Yerusəlimdə yaşayanlar arasında bir qəsd
üzə çıxdı. 10 Sözlərimə qulaq asmaq istəməyən
əcdadlarının günahlarına qayıtdılar, başqa
allahların tərəfdarı olub onlara qulluq etdilər.
İsrail və Yəhuda nəsli onların ataları ilə
bağladığım əhdimi pozdu. 11 Buna görə də
Rəbb belə deyir: "Mən onların üzərinə bəla
gətirəcəyəm və onun içindən çıxa
bilməyəcəklər. Onlar Mənə üz tutub fəryad
edəcək, amma Mən onları eşitməyəcəyəm.
12 O zaman Yəhuda şəhərlərinin əhalisi və
Yerusəlimdə yaşayanlar gedib buxur
yandırdıqları allahlara üz tutub fəryad edəcək,
amma başlarına bəla gələn vaxt bu allahlar
onlara heç kömək etməyəcək. 13 Çünki
şəhərlərinin sayı qədər sənin bütlərin var, ey
Yəhuda. Siz Yerusəlim küçələrinin sayı qədər
rüsvayçı şeylərə qurbangahlar, Baal bütlərinə
buxur yandırmaq üçün qurbangahlar
düzəltdiniz".
14 Sən bu xalq üçün dua etmə, onlar üçün
yalvarıb xahiş etmə. Çünki fəlakətlərindən
ötrü Mənə tərəf fəryad edəndə qulaq
asmayacağam.
15 Sevimli xalqım, pis niyyətlər qurarkən
Mənim evimdə nə işin var?
Təqdis olunmuş ətin çoxluğu ilə
Üzərinizdən bəla çəkilərmi?
Çünki sən pis iş görəndə sevinirsən.
16 Rəbb sənin adını
"Dadlı meyvəsi olan
Yaşıl zeytun ağacı" qoydu.
İndi isə böyük fırtınanın gurultusu ilə
Ağacı oda verəcək,
Onun budaqları qırılacaq.
17 Səni əkən Ordular Rəbbi başına fəlakət
gətirməyə qərar verdi. Çünki İsrail və Yəhuda
nəsli pislik etdi, Baal bütlərinə buxur
yandırmaqla Məni qəzəbləndirdi».

### *Yeremyaya qarşı qəsd*

18 O vaxt Rəbb onların etdiklərini mənə
göstərdi. O bunu mənə aşkar etdi, mən də
xəbərdar oldum. 19 Mənsə kəsilməyə aparılan
müti quzu kimi idim, bilmirdim ki, onlar

---

***10:25*** *– Zəb. 79:6-7*

«ağacı və meyvəsini məhv edək, onu dirilər
arasından yox edək ki, adı bir daha
xatırlanmasın» deyərək mənə qəsd qururlar.
20 Ancaq, ey Ordular Rəbbi, ürəkləri və
fikirləri sınayan ədalətli Hakim, mənə imkan
ver ki, onlardan alacağın qisasını görüm!
Çünki mən öz işimi Sənə tapşırdım.
21 «Buna görə də Rəbb səni öldürmək
istəyən və "Rəbbin adı ilə peyğəmbərlik etmə,
yoxsa bizim əlimizdə ölərsən" deyən Anatot
əhalisi barədə belə deyir. 22 Bəli, Ordular
Rəbbi belə deyir: "Bax Mən onları
cəzalandıracağam: cavanları qılıncla həlak
olacaq, oğul və qızları aclıqdan öləcək.
23 Onların nəsli də qalmayacaq, çünki Mən
onlar üçün cəza gəldiyi ildə Anatot əhalisinin
başına fəlakət gətirəcəyəm"».

### *Yeremyanın Allahla söhbəti*

12 1 Əgər Səninlə mübahisə etsəm,
Sən haqlı çıxarsan, ya Rəbb.
Ancaq yenə də ədalət barədə
Səninlə danışmaq istəyirəm.
Nə üçün pis adamlar əməllərində
Uğur qazanır,
Bütün xainlər dinc yaşayır?
2 Onları Sən əkdin, kök saldılar,
Qol-budaq atdılar,
Bar verdilər.
Sən onların dillərinə yaxınsan,
Amma ürəklərindən uzaqsan.
3 Məni isə, ya Rəbb, Sən tanıyırsan,
Görürsən və sınayırsan.
Ürəyim səninlədir.
Onları qurbanlıq qoyun kimi ayır,
Həlak günü üçün hazırla.
4 Nə vaxta qədər torpaq yas tutacaq,
Bütün çöl otları quruyacaq?
Orada yaşayanların pisliyi üzündən
Heyvanlar və otlar məhv oldu.
Onlar isə «bu adam aqibətimizi
görməyəcək» deyir.

### *Allahın cavabı*

5 «Ey Yeremya, əgər sən piyadalarla
qaçanda yoruldunsa,
Atlarla necə yarışa bilərsən?
Əgər əmin-amanlıq olan torpaqda
büdrəsən,
İordan çayının kənarındakı sıx meşədə
nə edəcəksən?
6 Hətta öz qardaşların – ata evin də
Sənə xəyanət etdi,
Onlar da sənin ardınca
Ucadan bağırdı.
Sənə yaxşı sözlər söyləsələr də,
Onlara inanma.

7 Evimi tərk etdim,
İrsimi əldən verdim,
Sevgilimi düşmənlərə təslim etdim.
8 İrsim Mənim üçün
Meşədəki aslan kimi oldu.
Üstümə nə'rə çəkdi,
Buna görə də ona nifrət etdim.
9 İrsim Mənim üçün
Alabəzək yırtıcı quş oldumu?
Hər tərəfdən yırtıcı quşlar
Onun üstünə töküldü.
Gedin bütün vəhşi heyvanları toplayın,
Yeyib-qurtarmaq üçün onun üstünə
gətirin.
10 Bir çox çoban bağımı viran etdi,
Tarlamı tapdalayıb əzdi,
Gözəl zəmimi boş çölə çevirdi.
11 Onu xaraba qoydular,
Xarabalıq içində önümdə ağlayır.
Bütün ölkə viran oldu,
Amma heç kəsin vecinə deyil.
12 Çöldəki bütün çılpaq təpələrə
Məhv edənlər gəldi.
Çünki ölkənin bir ucundan
O biri ucuna qədər
Rəbbin qılıncı qırıb-çatır.
Heç kim salamat qalmır.
13 Onlar buğda əkdi,
Qanqal biçdi.
Zəhmət çəkdilər,
Xeyir görmədilər.
Rəbbin qızğın qəzəbindən ötrü
Məhsullarınızdan utanacaqsınız».
14 Rəbb belə deyir: «Xalqım İsrailə irs
olaraq verdiyim mülkə toxunan bütün bədxah
qonşularıma gəlincə, Mən onları
torpaqlarından çıxarıb-atacağam, onların
arasından Yəhuda nəslini də çıxarıb-atacağam.
15 Amma onları çıxarıb-atdıqdan sonra yenə
hallarına acıyacağam. Hər kəsi öz mülkünə,
öz torpağına qaytaracağam. 16 Əgər onlar
xalqımın yolunu yaxşı öyrənsələr, xalqımı
Baal adı ilə and içməyi öyrətdikləri kimi "var
olan Rəbbə and olsun" deyib Mənim adımla
and içsələr, o zaman xalqımın arasında sakin
olacaqlar. 17 Ancaq qulaq asmasalar, o zaman

belə bir milləti mütləq kökündən çıxarıb yox
edəcəyəm» Rəbb belə bəyan edir.

### *Kətan qurşaqla müqayisə*

13 [1] Rəbb mənə belə dedi: «Get özünə
bir kətan qurşaq al və belinə bağla,
amma onu suya qoyma». [2] Mən Rəbbin
sözünə görə qurşaq aldım və belimə bağladım.
[3] Mənə yenə Rəbbin sözü nazil oldu:
[4] «Belindəki aldığın qurşağı götürüb qalx və
Fərat çayına tərəf get. Onu orada qayanın
oyuğunda gizlət». [5] Mən gedib Rəbbin əmr
etdiyi kimi onu Fərat çayının yaxınlığında
gizlətdim. [6] Uzun müddət sonra Rəbb mənə
dedi: «Qalx Fərat çayına tərəf get və sənə
gizlətməyi əmr etdiyim qurşağı oradan götür».
[7] Mən Fərat çayına tərəf getdim və qurşağı
gizlətdiyim yerdən qazıb götürdüm. Gördüm
ki, qurşaq çürüyüb və daha heç nəyə yaramır.
[8] O zaman mənə Rəbbin bu sözü nazil oldu:
[9] «Rəbb belə deyir: "Yəhudanın təkəbbürünü
və Yerusəlimin böyük qüririnu beləcə
çürüdəcəyəm. [10] Sözlərimə qulaq asmayan,
inadkarlıqla ürəklərinin istədiyinə uyan, başqa
allahlara qulluq və səcdə edərək onların
tərəfdarı olan bu pis xalq heç bir şeyə
yaramayan həmin qurşaq kimi olacaq".
[11] Rəbb deyir: "Qurşaq insanın belinə necə
yapışırsa, bütün İsrail nəslini və Yəhuda
nəslini özümə eləcə yapışdırdım ki, Öz
xalqım olub Mənə şöhrət, tə'rif və izzət
gətirsinlər, ancaq onlar qulaq asmadı". [12] Buna
görə onlara bu sözü çatdır ki, İsrailin Allahı
Rəbb belə deyir: "Hər tuluq şərabla dolacaq".
Onda sənə deyəcəklər: "Hər tuluğun şərabla
dolacağını biz də bilmirikmi?" [13] O zaman
onlara söylə ki, Rəbb belə deyir: "Bütün bu
ölkədə yaşayanları, Davudun taxtı üzərində
oturan padşahları, kahinləri, peyğəmbərləri,
bütün Yerusəlimdə yaşayanları sərxoş olana
qədər şərabla doyduracağam". [14] Rəbb bəyan
edir: "Mən onları ata və oğulları ilə birlikdə
bir-birlərinə çırpacağam. Onlara rəhm
etməyəcək, aman verməyəcək, həlak etməyə
heyfsilənməyəcəyəm"».

### *Əsarət barədə xəbərdarlıq*

[15] Eşidin və qulaq asın,
Qürurlu olmayın,
Çünki Rəbb belə söylədi.
[16] O nə qədər ki qaranlıq çökdürməyib,
Zülmət dağlarında ayaqlarınız
büdrəməyib,
Allahınız Rəbbi izzətləndirin.
Siz işıq gözləyirsiniz,
Amma Rəbb onu ölüm kölgəsinə çevirər,
Dərin zülmətə döndərər.
[17] Ancaq siz ona qulaq asmasanız,
Gözlərim acı-acı yaş tökəcək,
Göz yaşları sel kimi axacaq.
Çünki Rəbbin sürüsünü
Sürgün etdilər.

[18] Padşaha və onun anasına söylə:
«Taxtınızdan enin,
Çünki şərəf tacınız başınızdan düşdü».
[19] Negev şəhərlərinin darvazaları
bağlandı,
Açan yoxdur.
Bütün Yəhuda sürgün edildi,
Hamı sürgün edildi.
[20] Başınızı qaldırıb
Şimaldan gələnləri görün.
Sənə verilən sürü,
Sənin gözəl sürün haradadır?
[21] Rəbb müttəfiq kimi hazırladığın
adamları
Sənə hakim qoyanda nə deyəcəksən?
Məgər doğan qadının çəkdiyi sancı kimi
Səni də ağrı tutmayacaqmı?
[22] Əgər ürəyində
«Bütün bunlar nə üçün başıma gəldi»
desən,
Bil ki, günahının çoxluğundan
Ətəklərin qaldırıldı və zorlandın.

[23] Kuşlu öz dərisini,
Bəbir öz xallarını dəyişdirə bilərmi?
Pislik etməyə alışmış
Siz də yaxşılıq edə bilməzsiniz.
[24] «Bundan ötrü səni çöl küləyi ilə
Sovrulan saman çöpü kimi
səpələyəcəyəm.
[25] Sənə düşən püşk,
Mənim sənə ayırdığım pay budur»
Rəbb belə bəyan edir.
«Çünki Məni unutdun,
Yalana güvəndin.
[26] Bundan ötrü Mən də sənin ətəklərini
Üzünə qaldıracağam ki,
Ayıbın görünsün.
[27] Çöldəki təpələr üzərində
Gördüyün iyrənc işləri,
Zinakarlığını, şəhvətlə kişnəməyini,
Həyasız əxlaqsızlığını gördüm.

Vay halına, ey Yerusəlim!
Sən nə vaxta qədər
Təmizlənə bilməyəcəksən?»

### *Qılınc, aclıq, vəba*

14 [1] Bu, quraqlıq haqqında Yeremyaya
nazil olan Rəbbin sözüdür.
[2] «Yəhuda yas tutur,
Onun şəhər darvazaları qəmli görünür.
Adamlar qara geyinmişlər,
Yerusəlimin fəryadı ucalmışdır.
[3] Ə'yanlar nökərlərini su dalınca
göndərir,
Onlar isə quyu yanına gəlib
Su tapmır,
Boş qablarla geri dönürlər,
Utanıb xəcalət çəkərək
Başlarını örtürlər.
[4] Ölkədə yağış olmadığı üçün
Torpaq cadar-cadar oldu.
Əkinçilər utanır,
Başlarını örtür.
[5] Hətta çöldəki maral da
Balasını doğub tərk edir,
Çünki ot yoxdur.
[6] Vəhşi eşşəklər çılpaq təpələrdə durub,
Çaqqal kimi tez-tez nəfəs alır.
Onların gözləri korlaşır,
Çünki otlaq yoxdur».

[7] Ya Rəbb, hərçənd təqsirlərimiz
Bizə qarşı şəhadət edir,
Sən Öz adından ötrü sə'y göstər.
Çünki dəfələrlə dönüklük etmiş,
Sənə qarşı günah etmişik.
[8] Ey İsrailin Ümidgahı,
Məşəqqət zamanı Xilaskarı!
Nə üçün Sən bu torpaqda bir qərib,
Gecələmək üçün yoldan ayrılan bir
səyyah kimisən?
[9] Nə üçün çaşmış adam,
Qurtarmağa gücü çatmayan
İgid kimi olmusan?
Ancaq Sən aramızdasan, ya Rəbb.
Biz Sənə məxsusuq,
Bizi tərk etmə.
[10] Rəbb bu xalq barədə belə deyir: «Onlar
gəzib-dolaşmağı o qədər sevir ki, ayaq
saxlamırlar. Buna görə də Rəbb onlardan razı
deyil. İndi onların təqsirkarlığını yada salacaq,
günahları üçün cəza verəcək».
[11] Rəbb mənə dedi: «Sən bu xalqın uğur
qazanması üçün dua etmə. [12] Oruc tutsalar da,
Mən onların fəryadını eşitməyəcəyəm.
Yandırma qurbanı və taxıl təqdimi gətirdikləri
zaman onlardan razı olmayacağam. Mən
onları qılınc, aclıq və vəba ilə qırıb-
çatacağam». [13] Mən dedim: «Ah, Xudavənd
Rəbb, peyğəmbərlər onlara belə deyir: "Qılınc
görməyəcəksiniz, aclıq olmayacaq. Ancaq
Mən bu yerdə sizə həqiqi sülh verəcəyəm"».
[14] Rəbb mənə dedi: «Peyğəmbərlər Mənim
adımla yalançı peyğəmbərlik edir. Onları Mən
göndərməmişəm, onlara əmr edib söz
deməmişəm. Sizə peyğəmbərlik etdikləri
şeylər yalan bir görüntü, falçılıq, boş bir şey,
öz ürəklərinin uydurmasıdır. [15] Buna görə də
Rəbb o peyğəmbərlər barədə belə deyir:
"Onları göndərmədiyim halda Mənim adımla
peyğəmbərlik edən, ‹bu torpaqda qılınc və
aclıq olmayacaq› deyən bu peyğəmbərlər
özləri qılınc və aclıqdan həlak olacaq.
[16] Peyğəmbərlik etdikləri xalq da qılınc və
aclıq üzündən Yerusəlim küçələrinə atılacaq.
Onların özlərini, arvadlarını, oğullarını və
qızlarını basdıran olmayacaq, çünki onların
pisliklərini öz başlarına gətirəcəyəm".
[17] Onlara bu sözü söylə:
"Qoy gözlərim gecə-gündüz
Dayanmadan yaş töksün.
Çünki bakirə qıza bənzəyən əziz xalqım
Ağır bir yara aldı,
Şiddətli bir zərbə yedi.
[18] Çölə çıxıram,
Qılıncla öldürülənləri görürəm,
Şəhərə girirəm,
Aclıqdan üzülənləri görürəm.
Çünki peyğəmbər də, kahin də
Bixəbər olaraq ölkəni dolaşır"».

[19] Məgər Sən Yəhudanı birdəfəlik rədd
etmisən?
Məgər Siona nifrət edirsən?
Niyə bizi elə vurdun ki,
Sağaltmaq mümkün olmasın?
Sülh gözlədik, amma xeyir gəlmədi.
Şəfa vaxtını gözlədik,
Ancaq dəhşət gəlir.
[20] Ya Rəbb, pisliyimizi,
Atalarımızın təqsirkarlığını bilirik.
Çünki Sənə qarşı günah etdik.
[21] Öz adın naminə bizdən imtina etmə,
Öz izzətli taxtını alçaltma.

---

***14:10** – Huş. 8:13*

Bizimlə olan əhdini pozma, yada sal.
[22] Millətlərin bütləri arasında
Yağış yağdıra biləni varmı?
Göylər leysan tökə bilərmi?
Bunu edən Sən deyilsənmi, ya Rəbb
Allahımız?
Ümidimiz Sənədir.
Çünki bütün bu şeyləri Sən etdin.

### *Yəhuda xalqının məhvi*

15 [1] Rəbb mənə dedi: «Musa ilə
Şamuel önümdə dursalar da, yenə
ürəyim bu xalqa tərəf yönəlməz. Onları
qarşımdan rədd et ki, getsinlər. [2] Sənə "Hara
gedək?" dedikləri zaman onlara söylə ki,
Rəbb belə deyir: "Vəba üçün ayrılanlar
vəbaya, qılınc üçün ayrılanlar qılınca, aclıq
üçün ayrılanlar aclığa, sürgün üçün ayrılanlar
sürgünə getsin". [3] Rəbb bəyan edir: "Onların
başına dörd növ bəla gətirəcəyəm: öldürmək
üçün qılıncı, parçalamaq üçün itləri, yeyib
həlak etmək üçün göydəki quşları və yerdəki
heyvanları. [4] Yəhuda padşahı Xizqiya oğlu
Menaşşeyə, onun Yerusəlimdə etdiyi işlərə
görə onları yer üzünün bütün ölkələrinin
qarşısında dəhşətli hala salacağam".
[5] Ey Yerusəlim, bəs sənə kim acıyacaq?
Sənin üçün kim yas tutacaq?
Halını soruşmaq üçün
Kim yolundan dönüb sənin yanına
gələcək?
[6] Rəbb bəyan edir: "Sən Məni rədd etdin,
Geri çəkildin.
Mən də əlimi uzadıb səni məhv edirəm.
Daha bağışlamaqdan yoruldum.
[7] Onları ölkənin şəhər darvazalarında
Kürəklə sovurdum,
Xalqımı övladsız qoydum,
Onları məhv etdim.
Çünki yollarından dönmədilər.
[8] Mənim önümdə onların dul
qadınlarının sayı
Dəniz qumundan da çox oldu.
Günorta çağı
Cavanlarının analarını ağlar qoymaq
üçün
Məhv edəni gətirdim.
Qəflətən onları qorxu və dəhşətə saldım.
[9] Yeddi uşaq doğan qadın zəifləyib can
verdi,
Onun günəşi günorta çağı batdı,
Utanıb alçaldı.
Onlardan sağ qalanları
Düşmənlərinin önündə
Qılınca təslim edəcəyəm"»
Rəbb belə bəyan edir.

[10] Vay mənim halıma!
Ey anam, sən məni bütün ölkə ilə
Mübahisə və dava etmək üçün
doğmusan!
Mən heç kəsə salam vermədim,
Heç kəs də mənə salam vermədi.
Ancaq hamı məni lə'nətləyir.

[11] Rəbb dedi:
«Bundan sonra mütləq səni
Xeyir üçün xilas edəcəyəm.
Bəla və kədər vaxtı düşmənlərini
Sənə yalvarmağa məcbur edəcəyəm.

[12] Dəmiri, şimaldan gələn dəmiri və
tuncu
Kim qıra bilər?
[13] Sənin sərvətini və xəzinələrini
Qarət malı kimi başqalarına havayı
verəcəyəm.
Bunu ölkənin hər tərəfində
Sənin günahlarından ötrü edəcəyəm.
[14] Mən səni tanımadığın ölkədə
Düşmənlərinə qul edəcəyəm.
Çünki qəzəbim od tutub
Sizi yandıracaq».

[15] Sən bilirsən, ya Rəbb!
Məni yada sal və qayğıma qal.
Məni tə'qib edənlərdən qisasımı al,
Səbirli olduğuna görə məni həlak etmə.
Bil ki, Sənin üçün rüsvay oldum.
[16] Sözlərini tapıb yedim,
Sözlərin mənə sevinc və ürəyimə şadlıq
gətirdi.
Çünki Sənə məxsusam,
Ey Ordular Allahı Rəbb!
[17] Kef çəkənlərin məclisində oturaraq
Sevinib coşmadım,
Əlin üzərimdə olduğuna görə
Tək-tənha oturdum.
Çünki məni qəzəblə doldurmuşdun.
[18] Nə üçün ağrım kəsilməz,

---

***15:1*** *– Çıx. 32:11-14; Say. 14:13-19*
***15:1*** *– 1Şam. 7:5-9*
***15:2*** *– Yer. 43:11; Vəhy 13:10*
***15:4*** *– 2Pad. 21:1-16; 2Saln. 33:1-9*

Yaram çarəsizdir,
Şəfasına ümid yoxdur?
Məgər mənim üçün suyu qurumuş,
E'tibarsız bir vadi olacaqsan?

19 Buna görə Rəbb belə deyir:
«Əgər sən tövbə etsən,
Səni yenə qəbul edib xidmətimə tə'yin
edərəm.
Əgər cəfəngiyyat danışmaq əvəzinə
Qiymətli sözlər söyləsən,
O zaman Mənim dilimlə danışacaqsan.
Onlar özləri sənə tərəf dönəcək,
Amma sən onlara tərəf qayıtmayacaqsan.
20 Səni bu xalq üçün
Möhkəm tunc bir divar edəcəyəm.
Sənə qarşı döyüşəcəklər,
Ancaq qalib gələ bilməyəcəklər.
Çünki Mən səninlə olacağam ki,
Səni qurtarıb azad edim»
Rəbb belə bəyan edir.
21 «Səni pis adamların əlindən azad
edəcəyəm,
Zülmkarların pəncəsindən xilas
edəcəyəm».

### *Fəlakət dövrü*

16 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Özünə arvad alma, qoy bu yerdə
oğulların və qızların olmasın. 3 Çünki bu
yerdə doğulan oğullar və qızlar, onları doğan
analar və onları törədən atalar üçün Rəbb belə
deyir: 4 "Onlar ölümcül xəstəliklərdən öləcək.
Onlar üçün yas tutulmayacaq,
basdırılmayacaqlar, torpağın üstündə peyin
kimi olacaqlar. Qılınc və aclıqla qırılıb-
qurtaracaqlar. Cəsədləri də göydəki quşlara və
yerdəki heyvanlara yem olacaq".
5 Çünki Rəbb belə deyir: "Yas evinə girmə,
ağlamaq üçün getmə, başsağlığı vermə, çünki
bu xalqın arasından Öz sülhümü,
məhəbbətimi və mərhəmətimi götürdüm"
Rəbb belə bəyan edir. 6 "Bu ölkədə böyüklər
də, kiçiklər də öləcək, qəbrə qoyulmayacaq,
adamlar onlar üçün yas tutmayacaq, özlərini
yaralayıb saçlarını qırxmayacaq. 7 Ölüdən ötrü
yas tutana təsəlli vermək üçün kimsə onunla
çörək kəsməyəcək, ata-anaları üçün onlara
təsəlli kasasını içirməyəcək. 8 Sən onlarla
oturaraq yeyib-içmək üçün ziyafət
məclislərinə də girmə". 9 Çünki İsrailin Allahı
olan Ordular Rəbbi belə deyir: "Bax bu yerdə
sizin günlərinizdə gözlərinizin önündə sevinc
və şadlıq sədasını, bəy-gəlin səsini yox
edəcəyəm".
10 Bütün bu sözləri xalqa bildirəndə onlar
sənə belə deyəcək: "Nə üçün Rəbb başımıza
bu qədər böyük bəla gətirəcəyini söylədi?
Təqsirimiz nədir? Allahımız Rəbbə qarşı nə
günah etmişik?" 11 Sən onlara söylə ki: "Sizin
atalarınız Məni tərk etdi" Rəbb belə bəyan
edir. "Başqa allahların tərəfdarı oldular,
onlara qulluq və səcdə etdilər, Məni tərk edib
qanunuma əməl etmədilər. 12 Siz atalarınızdan
da artıq pislik etdiniz, özünüz də Mənə qulaq
asmayaraq qara ürəklərinizin inadı ilə hərəkət
etdiniz. 13 Buna görə də sizi bu ölkədən
atalarınızın və özünüzün tanımadığı bir
ölkəyə atacağam. Orada gecə-gündüz başqa
allahlara qulluq edəcəksiniz, çünki sizə
mərhəmət etməyəcəyəm"».
14 Buna görə də Rəbb bəyan edir: «Bir gün
gələcək ki, insanlar artıq "İsrail övladlarını
Misir torpağından çıxaran Rəbbin varlığına
and olsun" deməyəcəklər, 15 amma "İsrail
övladlarını şimal ölkəsindən və qovduğu
başqa ölkələrdən çıxaran Rəbbin varlığına and
olsun" deyəcəklər. Çünki onları atalarına
verdiyim torpağa qaytaracağam».
16 Rəbb bəyan edir: «Mən çoxlu balıqçı
göndərəcəyəm, onları tutacaqlar. Ondan sonra
mən çoxlu ovçu göndərəcəyəm, hər dağ və
təpə üzərindən, qaya oyuqlarından onları
ovlayacaqlar. 17 Çünki Mənim nəzərim onların
bütün yollarını izləyir. Onlar Məndən gizlənə
bilməz, təqsirləri də Mənim nəzərimdən qaça
bilməz. 18 İlk növbədə onların təqsirlərinin və
günahlarının əvəzini alacağam. Çünki iyrənc
bütlərinin qurbanları ilə ölkəmi murdarladılar,
mülkümü murdar bütlərlə doldurdular».
19 Ya Rəbb, qüvvətim və qalam,
Sıxıntı günündə sığınacağım!
Millətlər dünyanın ucqarlarından
Sənin yanına gəlib deyəcək:
«Atalarımız saxta və puç bütlərə –
Heç bir fayda görmədikləri şeylərə varis
oldu.
20 Adam da özünə bütlər düzəldər?
Axı onlar allah deyil.
21 Buna görə də onlara göstərəcəyəm,
Əlimi və qüdrətimi nümayiş etdirəcəyəm.
Onda biləcəklər ki, adım Rəbdir.

***16:9*** *– Yer. 7:34; 25:10; Vəhy 18:23*

### *Yəhudanın günahı və cəzası*

17 [1] Yəhudanın günahı dəmir qələmlə
yazıldı, ürəklərinin lövhələri və
qurbangahlarının buynuzları üzərinə almaz
uclu alətlə həkk edildi.
[2] Onlar kölgəli ağacların yanında,
Yüksək təpələrdə, çöldəki dağlarda
Qurbangahlarına və Aşera bütlərinə
Öz uşaqlarına göstərdikləri qədər maraq
göstərir.
[3] Sənin mal-dövlətini,
Bütün xəzinələrini, səcdəgahlarını
Ölkənin hər tərəfində işlənən
günahlardan ötrü
Qarətə təslim edəcəyəm.
[4] Sənə verdiyim irsi
Öz qəbahətinlə yox edəcəksən.
Tanımadığın ölkədə səni
Düşmənlərinə qul edəcəyəm.
Çünki siz Mənim qəzəbimdən
Od alışdırdınız,
O əbədi yanacaq».

[5] Rəbb belə deyir:
«O adam lə'nətlidir ki,
İnsana güvənir,
Bəşərin gücünə arxalanır,
Ürəyi Rəbdən ayrılır.
[6] O, çöldəki yulğun ağacı kimi olacaq,
Xeyir gələndə onu görməyəcək.
Səhrada olan quraq yerlərdə
Heç kəs yaşamayan şoranlıqda sakin
olacaq.
[7] Nə xoşbəxtdir o adam ki
Rəbbə güvənir,
Rəbbi özünə arxa sayır.
[8] O, sular kənarında
Əkilmiş ağac kimi olacaq.
Elə ağac ki çay kənarında kök salar,
İsti gələndə qorxmaz,
Yarpağı həmişə yaşıl qalar,
Quraqlıq olan il qayğı çəkməz,
Bəhər verməkdən qalmaz».

[9] İnsan ürəyi hər şeydən hiyləgərdir,
Sağalmaz xəstəliyi var.
Onu kim başa düşə bilər?
[10] «Mən Rəbb ürəyi yoxlayıram,
İnsanın fikrini sınayıram ki,
Hər kəsə əməllərinə görə,
İşlərinin bəhrəsinə görə əvəz verim».

[11] Haqsızlıqla var-dövlət toplayan adam
Özünün yumurtlamadığı yumurtaların
üstünə
Oturan kəklik kimidir.
Ömrünün ortasında var-dövləti əldən
gedəcək,
Axırda o adam axmaq çıxacaq.

[12] Müqəddəs məkanımızdakı yer
Əvvəlcədən ucaldılmış izzət taxtıdır.
[13] Ya Rəbb, İsrailin Ümidgahı,
Səni tərk edənlərin hamısı utanacaq.
Rəbb deyir:
«Məndən üz döndərənlərin adı
Toz-torpağa yazılacaq,
Çünki Rəbbi – axar sular mənbəyini tərk
etdilər».

[14] Ya Rəbb, mənə şəfa versən,
Mən sağalaram.
Məni xilas etsən,
Mən xilas olaram.
Çünki həmd etdiyim Sənsən.
[15] Bax onlar mənə
«Rəbbin sözü hanı?
Qoy yerinə yetsin!» deyir.
[16] Mən Sənin xidmətində
Çoban olmaqdan boyun qaçırmadım.
Bəla gününün gəlməsini istəmədim.
Sən bilirsən ki,
Ağzımdan nə çıxdısa,
Sənin gözünün önündədir.
[17] Mənim üçün dəhşətə çevrilmə,
Qara gündə sığınacağım Sənsən.
[18] Qoy məni tə'qib edənlər utansın,
Mən isə utanmayım.
Qoy onlar qorxuya düşsün,
Mən isə qorxmayım.
Qara günü onların başına gətir,
Tamamilə qırılana qədər onları qır.

### *Şənbə gününə əməl edilməsi*

[19] Rəbb mənə belə dedi: «Get Yəhuda
padşahlarının girib-çıxdıqları Xalq
darvazasında və Yerusəlimin bütün
darvazalarında dayanıb [20] onlara söylə ki, ey
Yəhuda padşahları, Yəhuda və Yerusəlimin
bütün əhalisi, bu darvazalardan girənlər,

---

***17:8*** *– Zəb. 1:3*
***17:10*** *– Zəb. 62:12; Yer. 32:19*
***17:10*** *– Vəhy 2:23*

Rəbbin sözünə qulaq asın. [21] Rəbb belə deyir:
“Öz canınızı qorumaq üçün Şənbə günü yük
daşımayın, Yerusəlim darvazalarından içəri
gətirməyin. [22] Şənbə günü evlərinizdən yük
çıxarmayın, heç bir iş görməyin. Atalarınıza
əmr etdiyim kimi Şənbə gününü təqdis edin.
[23] Ancaq onlar eşitmədi, qulaq asmadı.
İnadkarlıq edərək Məni eşitmədilər və nəsihət
almaq istəmədilər”. [24] Rəbb bəyan edir: “Əgər
siz Şənbə günü bu şəhərin darvazalarından
yük daşımamaq, Şənbə gününü təqdis etmək
və bu gün heç bir işlə məşğul olmamaqla
Mənə, həqiqətən, itaət etsəniz, [25] o zaman
Davudun taxtında oturan padşahlar və başçılar
döyüş arabalarına və atlara minib Yəhuda
adamları, Yerusəlimdə yaşayanlarla birgə bu
şəhərin darvazalarından girəcək. Bu şəhər
əbədi olaraq məskunlaşmış qalacaq. [26] Yəhuda
şəhərlərindən, Yerusəlimin ətrafından,
Binyamin torpağından, yamaclı-düzənlikli
bölgədən, dağlıq bölgədən və Negevdən
adamlar gəlib Rəbbin mə’bədinə yandırma
qurbanları, başqa qurbanlar, taxıl təqdimləri,
kündür və şükür təqdimləri gətirəcək. [27] Əgər
siz Şənbə günü yük daşıyıb Yerusəlim
darvazalarından girərək Şənbə gününü təqdis
etməməklə Mənim sözümə qulaq asmasanız,
onda onun darvazalarını oda qalayacağam,
alov Yerusəlimin saraylarını yandırıb-yaxacaq
və heç vaxt sönməyəcək”».

### *Yeremya dulusçunun evində*

18 [1] Rəbdən Yeremyaya bu söz nazil
oldu: [2] «Qalx dulusçunun evinə en,
orada sözlərimi sənə bildirəcəyəm». [3] Mən
dulusçunun evinə endim. Gördüm ki, o, çarx
üzərində işləyir. [4] Palçıqdan düzəltdiyi qab
əlində xarab olanda dulusçu özünün istədiyi
kimi palçıqdan başqa bir qab düzəldirdi.

[5] Mənə yenə Rəbbin sözü nazil oldu: [6] «Ey
İsrail nəsli, Mən də sizinlə bu dulusçunun
etdiyi kimi rəftar edə bilmərəmmi?» Rəbb
belə bəyan edir. «Bilin ki, palçıq dulusçunun
əlində necədirsə, siz də Mənim əlimdə o
cürsünüz, ey İsrail nəsli. [7] Bə’zən bir milləti
yaxud ölkəni kökündən dağıdacağımı, yıxıb
məhv edəcəyimi söyləyirəm. [8] Əgər Mənim
xəbərdarlıq etdiyim bu millət öz pis
əməlindən dönərsə, ona göndərmək istədiyim
bəladan vaz keçəcəyəm. [9] Bə’zən bir milləti
yaxud da ölkəni əkib tikəcəyimi söyləyirəm.
[10] Əgər bu millət sözümə qulaq asmayıb pis
əməl edərsə, ona və’d verdiyim yaxşılıqdan
vaz keçəcəyəm. [11] İndi Yəhuda adamlarına,
Yerusəlimdə yaşayanlara söylə ki, Rəbb belə
deyir: “Mən sizə bir bəla hazırlayıram, sizə
bir qəsd qururam. İndi hər biriniz öz pis
yolunuzdan dönüb yaşayışınızı və
əməllərinizi islah edin”. [12] Ancaq onlar deyir:
“Boş sözdür, biz öz niyyətlərimizin dalınca
gedəcəyik, hər birimiz öz qara ürəyimizin
inadına görə rəftar edəcəyik”».

[13] Buna görə Rəbb belə deyir:
«İndi millətlər arasında soruşun ki,
Kim belə sözlər eşitmişdir?
Bakirə qıza bənzəyən İsrail
Dəhşətli bir iş etdi.
[14] Livanın qarı qayalı dağ yamaclarından
Heç əskik olarmı?
Uzaqdan axan soyuq sular quruyarmı?
[15] Amma xalqım Məni unutdu,
Saxta allahlara buxur yandırdı.
Bu allahlar onların gedəcəyi yollarda,
Qədim yollarda büdrəmələrinə səbəb
oldu,
Onları hamar olmayan
Dolanbac yollarda gəzdirdilər.
[16] Ölkələri viran ediləcək,
Əbədi kinayə hədəfinə çevriləcək.
Onda oradan ötən hər kəs
Heyrətə gəlib başını bulayacaq.
[17] Onları səmum küləyi kimi
Düşmən önündə pərən-pərən salacağam.
Onlara fəlakət günündə
Üzümü deyil, arxamı göstərəcəyəm».

[18] O zaman onlar dedi: «Gəlin Yeremyaya
qəsd quraq. Çünki qanunu öyrədəcək kahin,
nəsihət verəcək müdrik adam, söz deyəcək
peyğəmbər heç vaxt əskik olmayacaq. Gəlin
ona dilimizlə hücum edək, sözlərinə qulaq
asmayaq».

[19] Ya Rəbb, mənə yaxşı qulaq as,
Mənimlə çəkişənlərin sözünü eşit.
[20] Yaxşılığın əvəzində pislik edilərmi?
Onlar canımı almaq üçün quyu qazır.
Unutma, mən önündə ona görə
dayanmışam ki,
Onlar üçün yaxşı şey istəyim,
Onlardan qəzəbini döndərim.
[21] Buna görə də onların övladlarını
Aclığa ver, qılınc ağzına təslim et.
Qadınları uşaqsız və dul qalsın,

---

***17:21*** *– Neh. 13:15-22; Yəh. 5:10*
***17:22*** *– Çıx. 20:8-10; Qanun. 5:12-14*

Ərlərini ölüm aparsın.
Cavanlarını müharibədə qılınc öldürsün.
22 Sən onların üzərinə
Qəflətən qarətçilər göndərəndə
Qoy evlərindən fəryad eşidilsin.
Çünki məni tutmaq üçün quyu qazdılar,
Ayağımın altında gizlincə tələ qurdular.
23 Ancaq, ya Rəbb, məni öldürmək üçün
Qurduqları bütün qəsdləri Sən bilirsən.
Təqsirlərini bağışlama,
Günahlarını önündən silmə.
Sənin önündə yıxılsınlar,
Qəzəbin vaxtı onlara qarşı hərəkət et.

### *Sınmış kuzə ilə müqayisə*

19 1 Rəbb belə dedi: «Get, dulusçunun
düzəltdiyi bir gil kuzə al. Sonra isə
xalqın və kahinlərin ağsaqqallarından bir
neçəsini götür, 2 Xarsit[6] darvazasının girişində
olan Ben-Hinnom dərəsinə get. Sənə
deyəcəyim sözləri orada e'lan edib söylə ki,
3 ey Yəhuda padşahları, Yerusəlimdə
yaşayanlar, Rəbbin sözünü eşidin, İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir: "Bax
Mən bu yerin üzərinə elə bir bəla gətirəcəyəm
ki, hər eşidənin qulağı cingildəyəcək. 4 Çünki
onlar Məndən üz döndərdi, buranı yad bir
ölkəyə çevirdi. Orada özlərinin, atalarının və
Yəhuda padşahlarının tanımadıqları başqa
allahlara buxur yandırdılar və bu yeri
günahsız qanla doldurdular. 5 Öz uşaqlarını
odda Baal bütlərinə yandırma qurbanı vermək
üçün Baal səcdəgahlarını qurdular. Mən belə
bir şeyi nə buyurdum, nə söylədim, nə də
ağlıma gətirdim"». 6 Rəbb bəyan edir: «Buna
görə də bir gün gələcək ki, daha bu yerə Tofet
yaxud Ben-Hinnom dərəsi deyil, Qırğın dərəsi
deyiləcək. 7 Bu yerdə Yəhuda ilə Yerusəlimin
niyyətlərini boşa çıxaracağam.[7] Onları
düşmənlərinin önündə canlarını almaq
istəyənlərin əli ilə qılıncla həlak edəcəyəm.
Cəsədlərini göydəki quşlara və yerdəki
heyvanlara yem olaraq verəcəyəm. 8 Bu şəhəri
viran edəcəyəm, rişxənd hədəfinə
çevirəcəyəm. Oradan keçən hər kəs onun
başına gələn bəlaları görüb heyrət içində fit
çalacaq. 9 Oğullarının və qızlarının ətini
özlərinə yedirdəcəyəm. Canlarını almaq
istəyən düşmənləri onları mühasirəyə alanda
çəkdikləri sıxıntıdan ötrü bir-birlərinin ətini
yeyəcəklər».
10 Sonra səninlə gedən adamların gözü
önündə kuzəni sındırıb 11 onlara söylə ki,
Ordular Rəbbi belə deyir: «Necə ki
dulusçunun əlində qab sınanda bir də
düzəlmir, Mən də bu xalqı və şəhəri beləcə
məhv edəcəyəm. Basdırmaq üçün yer
qalmadığı üçün ölüləri Tofetdə də
basdıracaqlar. 12 Bu yer və sakinləri ilə belə
rəftar edəcəyəm, bu şəhəri Tofet kimi
edəcəyəm» Rəbb belə bəyan edir.
13 «Yerusəlimin evləri və Yəhuda
padşahlarının sarayları Tofetin ərazisi kimi
murdar olacaq, çünki bütün evlərin damları
üzərində səma cisimlərinə buxur yandırdılar,
yad allahlara maye təqdimləri gətirdilər».
14 Peyğəmbərlik etmək üçün Rəbbin Tofetə
göndərdiyi Yeremya oradan qayıtdı. O,
Rəbbin mə'bədinin həyətində dayanıb bütün
xalqa dedi: 15 «İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Mən bu şəhər barədə
söylədiyim bütün fəlakətləri onun və ətrafında
olan kəndlərin üzərinə gətirəcəyəm, çünki
inadkarlıq edərək sözlərimə qulaq asmırlar"».

### *Yeremyanın Paşxurla mübahisəsi*

20 1 Rəbbin mə'bədində baş nəzarətçi
olan kahin İmmer oğlu Paşxur
Yeremyanın bu sözlərlə peyğəmbərlik
etdiyini eşitdi. 2 Paşxur Yeremya peyğəmbəri
döydü və Rəbbin mə'bədinin yanındakı
Yuxarı Binyamin darvazasında olan kündəyə[8]
saldı. 3 Ertəsi gün Paşxur Yeremyanı
kündədən çıxartdı. Yeremya ona dedi: «Rəbb
sənin adını Paşxur deyil, Maqor-Missaviv[9]
qoydu. 4 Çünki Rəbb belə deyir: "Bax mən
səni özün və bütün səni sevənlər üçün dəhşətə
çevirəcəyəm. Onlar öz düşmənlərinin qılıncı
ilə həlak olacaq və sənin gözlərin bunu
görəcək. Bütün Yəhudanı Babil padşahına
təslim edəcəyəm. O, xalqı Babilə sürgün
edəcək və qılıncla həlak edəcək. 5 Bu şəhərin
bütün var-dövlətini, qazancını, qiymətli
şeylərini və Yəhuda padşahlarının bütün
xəzinələrini düşmənlərə təslim edəcəyəm.
Onları qarət edəcəklər, götürüb Babilə
aparacaqlar. 6 Sən Paşxur və evində

***19:2** – 2Pad. 23:10; Yer. 7:30-32; 32:34-35*
[6] **19:2** *Xarsit* – ibrani dilində *saxsı qırığı.*
***19:5** – Lev. 18:21*
[7] **19:7** İbrani dilində *boşa çıxarmaq* – *baqa* və *kuzə* – *baqbuq* sözləri (19:1,10) bir-birinə oxşayır.

[8] **20:2** *Kündə* – dustaqları bağlamaq üçün cəza aləti.
[9] **20:3** *Paşxur* – ibrani dilində *azad, Maqor-Missaviv* – *hər tərəfdə dəhşət.*

yaşayanların hamısı Babilə sürgün
olunacaqsınız. Sən və yalandan peyğəmbərlik
etdiyin bütün dostların orada öləcəksiniz,
orada da basdırılacaqsınız"».

### *Yeremyanın şikayəti*

7 Ya Rəbb, Sən məni aldatdın,
Mən də aldandım.
Sən məndən güclüsən,
Sən mənə üstün gəldin.
Bütün gün mənə gülürlər,
Hər kəs mənimlə əylənir.
8 Çünki mən danışmağa başlayan kimi
Fəryad edib
«Zorakılıq və talan!» deyə qışqırıram.
Rəbbin sözündən ötrü
Mən bütün gün rüsvay oldum,
Təhqir edildim.
9 Mən fikirləşdim:
«Daha Onu yada salmayacağam,
Onun adı ilə danışmayacağam».
Onda Onun sözü sümüklərimdə həbs
edilən,
Ürəyimdə yanan bir od oldu.
Onu içimdə saxlamaqdan yoruldum,
Artıq bunu edə bilmirəm.
10 Çünki çoxlarının
«Hər tərəfdə dəhşət!
Onu mühakimə edin,
Biz də onu mühakimə edək!»
Deyə pıçıldaşdığını eşitdim.
Bütün güvəndiyim adamlar
Büdrəməyimi gözləyərək
«Bəlkə aldanar, onda onu məğlub edərik,
Ondan qisasımızı alarıq» dedilər.
11 Ancaq Rəbb igid bir döyüşçü kimi
mənimlədir.
Buna görə də məni tə'qib edənlər
büdrəyəcək,
Qalib gələ bilməyəcək.
Uğur qazana bilmədikləri üçün
Böyük xəcalət çəkəcəklər.
Rüsvayçılıq əbədi olacaq,
Heç vaxt unudulmayacaq.

12 Ancaq, ey Ordular Rəbbi,
Sən salehi sınağa çəkirsən,
Fikri və ürəyi görürsən.
Qoy gözüm Sənin onlardan alacağın
Qisası görsün!
Çünki işimi Sənə tapşırdım.

13 Rəbbi tərənnüm edin,
Rəbbə həmd edin!
Çünki fəqiri
Zalımların əlindən qurtardı.

14 Doğulduğum gün lə'nətə gəlsin!
Anamın məni doğduğu günə
Bir daş düşsün!
15 Atamı çox sevindirərək
«Bir oğlan uşağın oldu!»
Deyə müjdə verən adam
Lə'nətə gəlsin.
16 Qoy o adam Rəbbin
Yazığı gəlməyib dağıtdığı
Şəhərlər kimi olsun!
Səhər fəryad,
Günorta nalə eşitsin.
17 Çünki bətndə ikən məni öldürmədi.
Onda anamın qarnı qəbrim olardı,
Bətni daim hamilə qalardı.
18 Nə üçün ana bətnindən çıxdım?
Əzab-əziyyət görmək,
Ömrümü rüsvayçılıqla keçirmək üçünmü?

### *Allahın Sidqiyanın sözünü rədd etməsi*

21 1 Padşah Sidqiya Malkiya oğlu
Paşxuru və Maaseya oğlu Sefanyanı
Yeremyanın yanına göndərəndə Rəbdən
Yeremyaya söz nazil oldu. Paşxur ilə Sefanya
belə demişdi: 2 «Gəl bizim barəmizdə Rəbdən
soruş. Çünki Babil padşahı Navuxodonosor
bizə qarşı müharibə edir. Bəlkə Rəbb
keçmişdə etdiyi mö'cüzələrə bənzər bir şey
edər və Navuxodonosor bizdən əl çəkər?»
3 O zaman Yeremya onlara dedi:
«Sidqiyaya söyləyin ki, 4 İsrailin Allahı Rəbb
belə deyir: "Divarların o tərəfində sizi
mühasirəyə alan Babil padşahı və
Xaldeylilərlə müharibədə istifadə etdiyiniz
silahları özünüzə qarşı çevirəcəyəm.
Silahlarınızı bu şəhərin ortasına toplayacağam.
5 Mən sizə qarşı əl qaldıracağam, güclü
qolumla, qızğınlıq, qəzəb və böyük hiddətlə
sizinlə vuruşacağam. 6 Bu şəhərdə yaşayan
insanı da, heyvanı da məhv edəcəyəm. Onlar
şiddətli vəbadan öləcək". 7 Rəbb belə bəyan
edir: "Bundan sonra Yəhuda padşahı
Sidqiyanı və ə'yanlarını, həmçinin bu şəhərdə
vəbadan, qılıncdan və aclıqdan sağ qalanları

***20:10** – Zəb. 31:13*

***20:14-18** – Əyy. 3:1-19*
***21:2** – 2Pad. 25:1-11; 2Saln. 36:17-21*

Babil padşahı Navuxodonosora və canlarını
almaq istəyən düşmənlərinə təslim edəcəyəm.
O onları qılıncdan keçirəcək, onlara nə rəhm,
nə şəfqət, nə də mərhəmət edəcək”.

8 Bu xalqa söylə ki, Rəbb belə deyir:
“Budur, həyat yolunu və ölüm yolunu
önünüzə qoyuram. 9 Bu şəhərdə qalan qılınc,
aclıq və vəbadan öləcək. Lakin kim bayıra
çıxıb sizi mühasirəyə alan Xaldeylilərə təslim
olsa, sağ qalacaq, heç olmasa öz canını
qurtaracaq. 10 Ona görə ki bu şəhərə yaxşılıq
deyil, pislik etməyə niyyət etdim” Rəbb belə
bəyan edir. “Bura Babil padşahına təslim
ediləcək, o da buranı yandırıb yox edəcək”.

### *Zalım padşahları məzəmmət*

11 Yəhuda padşahının ailəsinə söylə ki,
Rəbbin sözünü eşidin.
12 Ey Davud nəsli, Rəbb belə deyir:
“Hər səhər ədalətlə rəftar edin,
Məzlumu zalımın əlindən qurtarın.
Yoxsa pis əməllərinizə görə
Qəzəbim od kimi çıxıb yandıracaq,
Onu söndürən olmayacaq”.
13 Rəbb bəyan edir:
“Mən sənə qarşıyam,
Ey vadinin üstündəki
Yaylada olan qayada oturan Yerusəlim!”
Siz deyirsiniz:
“Üstümüzə kim gələr?
Məskənlərimizə kim girər?”
14 Rəbb bəyan edir:
“Mən sizi əməllərinizin
Bəhrəsinə görə cəzalandıracağam.
Meşələrində bir od qalayacağam ki,
Ətrafındakı hər şeyi yandırıb-yaxacaq”».

### *Allahın padşah sülaləsinə müraciəti*

22 1 Rəbb belə dedi: «Yəhuda
padşahının sarayına get, orada bu sözü
bildirib söylə ki, 2 ey Davudun taxtı üzərində
oturan Yəhuda padşahı, ey bu darvazalardan
girən ə’yanlarla xalq, Rəbbin sözünü eşidin.
3 Rəbb belə deyir: “Ədalət və salehliklə rəftar
edin. Məzlumu zalımın əlindən qurtarın.
Qəribə, yetimə və dul qadına haqsızlıq
etməyin, zorakılıq etməyin, bu yerdə günahsız
qan tökməyin. 4 Əgər siz bu əmrə, həqiqətən,
əməl etsəniz, o zaman Davudun taxtında
oturan padşahlar döyüş arabalarına və atlara
minib ə’yanları və xalqları ilə birgə bu sarayın
darvazalarından girəcək. 5 Lakin bu sözləri
eşitməsəniz, Öz varlığıma and içirəm ki, bu
ev viran qalacaq” Rəbb belə bəyan edir. 6 Bəli,
Yəhuda padşahının sarayı barədə Rəbb belə
deyir:
“Sən Mənim üçün Gilead,
Livanın zirvəsi kimisən.
Ancaq Mən hökmən səni bir çölə,
Kimsənin yaşamadığı şəhərlərə
çevirəcəyəm.
7 Sənə qarşı həlak edənlər tə’yin
edəcəyəm,
Hamısının əlində silah olacaq.
Sənin ən yaxşı sidr ağaclarını kəsəcəklər,
Onları oda atacaqlar.

8 Bir çox millətlər bu şəhərin yanından
keçib bir-birlərindən soruşacaq: ‹Bu böyük
şəhəri Rəbb niyə belə xaraba qoydu?› 9 Onda
deyəcəklər: ‹Çünki özlərinin Allahı Rəbbin
əhdini tərk etdilər, başqa allahlara səcdə və
qulluq etdilər›”».

### *Padşah Şallum barədə vəhy*

10 Ölən padşah üçün ağlamayın,
Yas tutmayın.
Ancaq sürgünə gedən üçün acı-acı
ağlayın,
Çünki daha qayıtmayacaq,
Doğma vətənini görməyəcək.

11 Bəli, atası Yoşiyanın yerinə Yəhuda
padşahı olan və buradan çıxıb gedən Yoşiya
oğlu Şallum barədə Rəbb deyir: «O daha bura
qayıtmayacaq, 12 sürgün olunduğu yerdə
öləcək və artıq bu ölkəni görməyəcək.

### *Padşah Yehoyaqim barədə vəhy*

13 Vay o adamın halına ki,
Sarayını haqsızlıqla,
Yuxarı otaqlarını ədalətsizliklə tikir,
Öz soydaşını müftə işlədir,
Ona muzdunu vermir.
14 Vay o adamın halına ki,
“Özümə geniş yuxarı otaqları olan
Böyük bir saray tikdirəcəyəm” deyib
Oraya pəncərələr açır,
Ətrafını sidr ağacı ilə örtür.
Qırmızı rənglə boyayır.
15 Çoxlu sidr ağacın olduğu üçünmü
Özünü padşah sanırsan?
Atan da doyunca yeyib-içirdi,
Ədalət və salehliklə rəftar edirdi.
Ona görə də işləri uğurlu oldu.

---

***22:8-9*** – *Qanun. 29:24-26*

[16] Məhkəmədə məzlum, yoxsul adamın
işinə baxırdı,
Ona görə də işləri uğurlu oldu».
Rəbb bəyan edir: «Məni tanımaq
Elə bu deyilmi?
[17] Ancaq sənin gözlərin və ürəyin
Öz haram qazancında,
Tökmək istədiyin günahsız qanda,
Etmək istədiyin qəddarlıqda,
Zorakılıqda qalıb».
[18] Buna görə də Yəhuda padşahı Yoşiya
oğlu Yehoyaqim barədə Rəbb belə deyir:
«Onun üçün "vay qardaşım, vay bacım"
söyləyib yas tutmayacaqlar, "vay ağam, heyf
onun izzəti" söyləyib yas tutmayacaqlar.
[19] Onu sürüyüb Yerusəlim darvazalarından
kənara atacaqlar, eşşək basdırılan kimi
basdırılacaq».

### *Yerusəlim barədə vəhy*

[20] «Livana qalxıb fəryad et,
Başanda səsini ucalt,
Avarimdən nalə çək,
Çünki bütün müttəfiqlərin əzildi.
[21] Hər şeyin əmin-amanlıqda olanda
Sənə nəsihət etdim,
Ancaq "qulaq asmayacağam" dedin.
Uşaqlığından xasiyyətin belədir,
Sözümə qulaq asan deyilsən.
[22] Külək bütün başçılarını alıb-aparacaq,
Müttəfiqlərin sürgünə gedəcək.
O zaman etdiyin bütün pisliklərdən ötrü
Utanıb rüsvay olacaqsan.
[23] Ey sən "Livanda"[10] yaşayan,
Yuvasını sidr ağacından quran!
Sənə hamilə qadın kimi
Ağrılar, sancılar gələndə
Necə ah-zar edəcəksən!»

### *Padşah Yehoyakin barədə vəhy*

[24] Rəbb bəyan edir: «Varlığıma and olsun
ki, ey Yəhuda padşahı Yehoyaqim oğlu
Yehoyakin, sağ əlimdəki möhür üzüyü olsan
da, səni çıxarıb atardım. [25] Canını almaq
istəyənlərə, qorxduğun adamlara, Babil
padşahı Navuxodonosora və Xaldeylilərə səni
təslim edəcəyəm. [26] Özünü, səni doğan ananı
doğulmadığınız yad bir ölkəyə atacağam və
orada öləcəksiniz. [27] Qayıtmağa can atdığınız
ölkəyə bir daha qayıtmayacaqsınız».
[28] Bu adam – Yehoyakin
Xor baxılan qırıq bir kasa,
Heç kəsin bəyənmədiyi bir qabdırmı?
Bəs nə üçün özü də, övladları da aparılıb
Tanımadıqları bir ölkəyə atıldı?
[29] Ölkə, ey ölkə,
Rəbbin sözünü eşit, ey ölkə!
[30] Rəbb deyir:
«Bu adamı övladsız,
Ömründə işləri uğurlu olmayan
Bir kişi hesab edin.
Çünki nəslindən heç kim
Uğur qazanmayacaq.
Nəslindən heç kim
Davudun taxtında oturmayacaq,
Yəhudada bir daha padşahlıq
etməyəcək».

### *Saleh padşah*

23 [1] Rəbb bəyan edir: «Otlağımın
qoyunlarını məhv edən və pərən-pərən
salan çobanların vay halına!» [2] Buna görə də
İsrailin Allahı Rəbb xalqımı otaran çobanların
əleyhinə belə deyir: «Siz Mənim sürümü
pərən-pərən salıb qovdunuz, onların qeydinə
qalmadınız. İndi Mən də etdiyiniz bəd
əməllərə görə cəzanızın qeydinə qalacağam»
Rəbb belə bəyan edir. [3] «Sürümün qalanlarını
sürgün etdiyim bütün ölkələrdən yığıb-
toplayacağam, onları yenə ağıllarına
qaytaracağam və törəyib çoxalacaqlar.
[4] Üstlərinə onları otaracaq çobanlar
qoyacağam. Daha qorxub dəhşətə
düşməyəcəklər, biri də itməyəcək» Rəbb belə
bəyan edir.
[5] «Budur, Davud üçün saleh bir Pöhrə
Çıxaracağım günlər gəlir.
Bu Padşah müdrikliklə padşahlıq edəcək,
Ölkədə ədalətli və saleh işlər görəcək»
Rəbb belə bəyan edir.
[6] «Onun dövründə Yəhuda xilas olacaq,
İsrail əmin-amanlıqda yaşayacaq.
Onu "Rəbb salehliyimizdir"
çağıracaqlar».
[7] Buna görə də Rəbb bəyan edir: «Bir gün
gələcək ki, insanlar artıq "İsrail övladlarını
Misir torpağından çıxaran Rəbbin varlığına
and olsun" deməyəcək, [8] amma "İsrail
nəslindən törəyənləri şimal ölkəsindən və

***22:18** – 2Pad. 23:36-24:6; 2Saln. 36:5-7*
[10] **22:23** *Livan* – Yerusəlimdəki padşah sarayının adı. Bax: 1Pad. 7:2.
***22:24** – 2Pad. 24:8-15; 2Saln. 36:9-10*
***23:5-6** – Yer. 33:14-16*

sürgün etdiyi bütün başqa ölkələrdən geri
qaytaran Rəbbin varlığına and olsun” deyəcək.
Beləcə öz torpaqlarında yaşayacaqlar».

### *Yəhudanın yalançı peyğəmbərləri*

9 Peyğəmbərlər haqqında:
Ürəyim içimdə parçalandı,
Bütün sümüklərim titrədi.
Rəbbə görə,
Onun müqəddəs sözlərinə görə
Bir sərxoş kimi,
Şəraba aludə olan adam kimiyəm.
10 Çünki ölkə zinakarlarla doludur,
Lə’nətə görə yas tutur.
Çöldəki otlaqlar quruyub,
Adamlar pis yola düşüb.
Güclərini zorakılığa sərf edirlər.
11 Rəbb bəyan edir:
«Peyğəmbər də, kahin də allahsızdır,
Mə’bədimdə pisliklərini gördüm.
12 Buna görə getdikləri yol
Qaranlıqda sürüşkən yer kimi olacaq,
Orada qovulub yıxılacaqlar.
Çünki cəzalanacaqları il
Başlarına fəlakət gətirəcəyəm»
Rəbb belə bəyan edir.
13 «Samariya peyğəmbərləri arasında
Bu iyrənc işi gördüm:
Baalın adı ilə peyğəmbərlik edərək
Xalqım İsraili yoldan azdırdılar.
14 Yerusəlim peyğəmbərləri arasında
Bu qorxunc işi gördüm:
Zina edirlər,
Yalan dalınca gedirlər.
Zorakıların qoluna güc verirlər.
Beləcə heç kəs pisliyindən dönmür.
Hamısı Mənim üçün Sodom kimi,
Şəhər xalqı Homorra kimi oldu».

15 Buna görə də Ordular Rəbbi
Peyğəmbərlər haqqında belə deyir:
«Baxın Mən onlara yovşan yedirəcəyəm,
Zəhərli su içirəcəyəm.
Çünki allahsızlıq Yerusəlim
peyğəmbərlərindən
Bütün ölkəyə yayıldı».

16 Ordular Rəbbi belə deyir:
«Sizin üçün peyğəmbərlik edən
Peyğəmbərlərin sözünə qulaq asmayın.
Onlar sizə boş şeylər öyrədir.
Rəbbin ağzından çıxanları deyil,
Özlərinin uydurduqları görüntüləri
söyləyirlər.
17 Onlar mənə xor baxanlara deyir:
“Rəbb söylədi ki, sizin üçün
Əmin-amanlıq olacaq”.
İnadkarlıqla ürəklərinin istədiyinə
uyanlara deyirlər:
“Üstünüzə fəlakət gəlməyəcək”.
18 Rəbbin sözünü anlayıb eşitmək üçün
Rəbbin məclisində kimsə durubmu?
Onun sözünə qulaq asıb eşidən varmı?
19 Budur, Rəbbin fırtınası qəzəblə
qopacaq,
Qasırğa fırlanıb
Pis adamların başında çatlayacaq.
20 Ürəyinin istəyinə çatana qədər,
Onu bitirənə qədər
Rəbbin qəzəbi dayanmayacaq.
Gələcək günlərdə bunu açıq-aşkar
anlayacaqsınız.

21 Bu peyğəmbərləri Mən göndərmədim,
Amma ora-bura qaçdılar.
Onlara Mən söz demədim,
Amma peyğəmbərlik etdilər.
22 Ancaq onlar məclisimdə dursaydılar,
Sözlərimi xalqıma çatdırardılar.
Pis yollarından, şər əməllərindən
Xalqı çəkindirərdilər».

23 Rəbb bəyan edir:
«Mən yalnız yaxında olan Allah deyiləm,
Həm də uzaqda olan Allaham.
24 Kimsə gizli yerlərdə saxlana bilər ki,
Mən onu görə bilməyim?»
Rəbb belə bəyan edir.
«Yeri, göyü Mən doldurmamışammı?»
Rəbb belə bəyan edir.

25 «Mənim adımdan yalan söyləyən
peyğəmbərlərin “Yuxu gördüm, yuxu
gördüm!” sözlərini eşitdim. 26 Nə vaxta qədər
yalan söyləyən, öz ürəklərinin uydurmalarını
bildirən peyğəmbərlər bu işlə məşğul olacaq?
27 Ataları necə Baal bütünə görə adımı
unutdularsa, onlar da zənn edir ki, bir-
birlərinə danışdıqları yuxularla xalqıma adımı
unutduracaq. 28 Yuxu görən peyğəmbər
yuxusunu söyləsin. Amma sözüm nazil olan
adam onu dəqiq danışsın. Daha buğdanın
yanında saman nədir?» Rəbb belə bəyan edir.
29 «Mənim sözüm bir od kimi, qayaları

***23:14** – Yar. 18:20*

parçalayan gürz kimi deyilmi?» Rəbb belə
bəyan edir. 30 «Buna görə də Mən
peyğəmbərlərə qarşıyam, onlar sözlərimi bir-
birlərindən oğurlayır» Rəbb belə bəyan edir.
31 «Bax Mən peyğəmbərlərə qarşıyam. Onlar
öz dillərini tərpədib "Rəbb belə deyir"
söyləyir» Rəbb belə bəyan edir. 32 «Bax Mən
yalançı yuxular görüb peyğəmbərlik edənlərə
qarşıyam» Rəbb belə bəyan edir. «Onlar bu
yuxuları danışıb yalanları və boş lovğalıqları
ilə xalqımı yoldan azdırır. Onları Mən
göndərmədim, onlara heç nə buyurmadım. Bu
xalqa heç bir faydaları yoxdur» Rəbb belə
bəyan edir.

33 «Əgər bu xalqdan biri yaxud bir
peyğəmbər ya da bir kahin səndən "Bəs
Rəbbin yük olan kəlamı nədir?" soruşsa, ona
söylə: "Yük sizsiniz. Mən sizi atacağam"
Rəbb belə bəyan edir. 34 "Rəbbin yük olan
kəlamıdır" deyən peyğəmbərə, kahinə yaxud
adi adama gəlincə, Mən o adamı da, onun
ailəsini də cəzalandıracağam. 35 Hər biriniz öz
yoldaşınıza, soydaşınıza belə deyin: "Rəbb nə
cavab verdi? Rəbb nə söylədi?" 36 Bir daha
Rəbbin yük olan kəlamını yada
salmayacaqsınız, çünki hər kəsin sözü özünə
yük olacaq. Bununla siz var olan Allahın,
Ordular Rəbbinin, Allahımızın sözlərini təhrif
etdiniz. 37 Peyğəmbərə belə söylə: "Rəbb sənə
nə cavab verdi? Rəbb nə söylədi?" 38 "Rəbbin
yük olan kəlamıdır" desəniz də, Rəbb hökmən
belə deyər: "‹Rəbbin yük olan kəlamıdır›
deyirsiniz, halbuki Mən sizə xəbərdarlıq edib
‹Rəbbin yük olan kəlamıdır› deməməyi
söyləmişdim. 39 Buna görə də sizi tamamilə
unudacağam, sizi də, özünüzə və atalarınıza
verdiyim şəhəri də önümdən rədd edəcəyəm.
40 Üzərinizə heç vaxt unudulmayan biabırçılıq,
əbədi rüsvayçılıq gətirəcəyəm"».

### *İki səbət əncirlə müqayisə*

24 1 Babil padşahı Navuxodonosor
Yəhuda padşahı Yehoyaqim oğlu
Yehoyakini, Yəhuda başçılarını, ustaları və
sənətkarları Yerusəlimdən sürgün edib Babilə
apardı. Bu hadisədən sonra Rəbb mənə Öz
mə'bədi önündə qoyulmuş iki səbət əncir
göstərdi. 2 Bir səbətdə ilk məhsula oxşayan
çox yaxşı əncirlər, o biri səbətdə isə əzik
olduqları üçün yeməyə yararsız olan çox pis
əncirlər var idi. 3 Rəbb mənə dedi: «Nə
görürsən, Yeremya?» Mən dedim: «Əncir.
Yaxşı əncirlər çox yaxşıdır, pis əncirlər isə
çox pis, əzilib yararsız hala düşmüşdür, onları
yemək olmaz».

4 Mənə Rəbbin bu sözü nazil oldu:
5 «İsrailin Allahı Rəbb belə deyir: "Buradan
Xaldey ölkəsinə sürgünə göndərdiyim
Yəhuda əsirlərini bu yaxşı əncirlər kimi yaxşı
hesab edəcəyəm. 6 Yaxşı yaşasınlar deyə
gözlərim onların üzərində olacaq və onları
yenə bu ölkəyə qaytaracağam. Onları
dirçəldəcəyəm, yıxmayacağam, onları
əkəcəyəm, çıxarmayacağam. 7 Onlara ürək
verəcəyəm ki, Mənim Rəbb olduğumu
bilsinlər. Onlar Mənim xalqım, Mən də
onların Allahı olacağam, çünki onlar bütün
qəlbləri ilə Mənə üz tutacaq".

8 Rəbb belə deyir: "Amma Yəhuda padşahı
Sidqiyanı, onun başçılarını, Yerusəlimdə
salamat qalıb bu ölkədə yaxud Misirdə
yaşayanları yeməyə yararsız olan əzik əncir
kimi edəcəyəm. 9 Onları yer üzünün bütün
ölkələrinin qarşısında dəhşətli hala salacağam.
Onları sürgün etdiyim hər yerdə rüsvay olub
ibrətə çevriləcək, kinayə və lə'nət
qazanacaqlar. 10 Özlərinə və atalarına
verdiyim torpaqdan silinib qurtarana qədər
üstlərinə qılınc, aclıq və vəba
göndərəcəyəm"».

### *Yetmiş illik sürgün*

25 1 Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının dördüncü
ilində bütün Yəhuda xalqı barədə Yeremyaya
söz nazil oldu. Bu, Babil padşahı
Navuxodonosorun padşahlığının birinci ilində
oldu. 2 Yeremya peyğəmbər bütün Yəhuda
xalqına və Yerusəlimdə yaşayanların
hamısına bu sözü bildirib dedi: 3 «İyirmi üç il
ərzində – Yəhuda padşahı Amon oğlu
Yoşiyanın padşahlığının on üçüncü ilindən bu
günə qədər Rəbbin sözü mənə nazil oldu.
Mən də dəfələrlə bu sözləri sizə bildirdim,
amma siz qulaq asmadınız. 4 Rəbb peyğəmbər
qullarını dəfələrlə yanınıza göndərdi, amma
eşitmədiniz, qulaq asmadınız. 5 Onlar sizə belə
söylədi: "İndi öz pis yolunuzdan, pis
əməllərinizdən dönün ki, Rəbbin əbədi olaraq
sizə və atalarınıza verdiyi torpaqda
yaşayasınız. 6 Başqa allahlara qulluq və səcdə
edərək onların tərəfdarı olmayın, əl işiniz olan

***24:1** – 2Pad. 24:12-16; 2Saln. 36:10*

***25:1** – 2Pad. 24:1; 2Saln. 36:5-7; Dan. 1:1-2*

bütlərlə Məni qəzəbləndirməyin ki, Mən də
sizə pislik etməyim”. 7 Rəbb bəyan edir:
“Ancaq siz Mənə qulaq asmadınız, əl işiniz
olan bütlərlə Məni qəzəbləndirib özünüzə
ziyan vurdunuz”. 8 Buna görə də Ordular
Rəbbi deyir: “İndi ki sözlərimə qulaq
asmadınız, 9 Mən də bütün şimal tayfalarını və
qulum Babil padşahı Navuxodonosoru
çağıracağam”. Bu, Rəbbin sözüdür. “Onları
bu ölkənin, burada yaşayanların və bütün ətraf
millətlərin üstünə gətirəcəyəm. Bunları
tamamilə məhv edəcəyəm, ölkəni dəhşət və
rişxənd hədəfinə çevirəcək, əbədi bir
xarabalığa döndərəcəyəm. 10 Sevinc və şadlıq
sədasını, bəy-gəlin səsini, dəyirman daşlarının
taqqıltısını, çıraq işığını onların içindən yox
edəcəyəm. 11 Bütün bu ölkə xarabaya, dəhşətli
bir yerə çevriləcək. Bu millətlər Babil
padşahına yetmiş il qulluq edəcək”.

12 Rəbb bəyan edir: “Yetmiş il bitəndən
sonra isə günahlarına görə Babil padşahını,
onun millətini və Xaldey ölkəsini
cəzalandıracağam. Oranı əbədi olaraq
viranəliyə çevirəcəyəm. 13 O ölkə üçün
söylədiklərimin hamısını, Yeremyanın bütün
millətlər barəsində bu kitabda yazılmış
peyğəmbərlik sözlərinin hamısını oranın
başına gətirəcəyəm. 14 Bir çox millət, böyük
padşahlar onları özlərinə qul edəcək.
Əməllərinə və əllərinin işinə görə onlara əvəz
verəcəyəm”».

### *Rəbbin qəzəb kasası*

15 Bəli, İsrailin Allahı Rəbb mənə belə dedi:
«Budur, qəzəbimlə dolu bir şərab kasası! Onu
əlimdən al və səni yanına göndərəcəyim
bütün millətlərə içirt. 16 Onlar içən kimi
səndələyəcəklər, üstlərinə göndərəcəyim
qılıncın qorxusundan ağılları çaşacaq».

17 Onda mən kasanı Rəbbin əlindən aldım
və Onun məni yanlarına göndərdiyi bütün
millətlərə içirtdim. 18 Kasadan bunlar içdi:
indiki kimi viranəliyə, dəhşətə, rişxənd
hədəfinə və lə’nətə düçar olsunlar deyə
Yerusəlim əhalisi, Yəhuda şəhərləri,
padşahları və başçıları, 19 Misir padşahı fir’on,
ə’yanları, başçıları və bütün xalqı, 20 Misirdə
yaşayan bütün yadellilər, Us ölkəsinin bütün
padşahları, Filişt ölkəsinin bütün padşahları –
Aşqelon, Qəzzə, Eqron padşahları və
Aşdodda sağ qalanlar, 21 Edom, Moav,
Ammon övladları, 22 bütün Sur və Sidon
padşahları, dənizin o tayındakı ölkələrin
padşahları, 23 Dedan, Tema, Buz və kəkillərini
qırxanların hamısı, 24 bütün Ərəbistan
padşahları, səhrada yaşayan yadelli xalqın
padşahları, 25 bütün Zimri, Elam və Midiya
padşahları, 26 sıra ilə bütün yaxın və uzaq
şimal padşahları, yer üzünün bütün padşahları.
Hamıdan sonra bu kasanı Şeşak[11] padşahı da
içəcək.

27 «Sən onlara söylə ki, İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “İçib sərxoş olun,
sonra qusun, üstünüzə göndərəcəyim qılıncla
vurulub-yıxılın və bir daha ayağa qalxmayın”.
28 Əgər onlar kasanı əlindən alıb içmək
istəməsələr, söylə ki, Ordular Rəbbi belə
deyir: “Mütləq içməlisiniz! 29 Bax Mənim
adımla çağırılan şəhərin üstünə fəlakət
gətirməyə başlayıram. Elə sanırsınız ki, siz
cəzasız qalacaqsınız? Sizi cəzasız
qoymayacağam. Mən yer üzündə yaşayan hər
kəsin üstünə qılınc gətirəcəyəm” Ordular
Rəbbi belə bəyan edir.

30 Buna görə də bütün bu peyğəmbərlik
sözlərini onlara bildirib söylə:
“Rəbb uca yerdən nə’rə çəkəcək,
Müqəddəs məskənindən gurlayacaq.
Öz otlağına qarşı şiddətlə nə’rə çəkəcək,
Dünyada yaşayanların hamısına qarşı
hayqıracaq,
Üzüm əzənlər kimi bağıracaq.
31 Hay-küy dünyanın ucqarlarına qədər
yayılacaq,
Çünki Rəbbin millətlərlə davası var.
Bütün bəşəri mühakimə edəcək,
Pisləri qılınca təslim edəcək”
Rəbb belə bəyan edir.

32 Ordular Rəbbi belə deyir:
“Bax millətdən millətə bəla yayılır,
Dünyanın uzaq yerlərindən
Böyük qasırğa qopur”.
33 O gün Rəbb dünyanı bir ucundan o biri
ucuna qədər öldürülənlərlə dolduracaq. Onlar
üçün yas tutulmayacaq, bir yerə yığılıb
basdırılmayacaqlar, torpağın üstündə peyin
kimi olacaqlar.

---

***25:10*** *– Yer. 7:34; 16:9; Vəhy 18:22-23*
***25:11*** *– 2Saln. 36:21; Yer. 29:10; Dan. 9:2*

[11] **25:26** *Şeşak* – şifrli şəkildə ifadə olunanda *Babil* adını bildirir.
***25:30*** *– Yoel 3:16; Amos 1:2*

[34] Ey çobanlar, ağlayıb fəryad edin,
Ey sürü başçıları, torpaqda eşələnin.
Çünki qətl olunma,
Pərən-pərən salınma vaxtınız çatdı.
Siz qiymətli bir qab kimi yıxılacaqsınız.
[35] Çobanlar qaça bilməyəcək,
Sürü başçıları qurtula bilməyəcək.
[36] Çobanların fəryadını,
Sürü başçılarının bağırtısını eşit,
Çünki Rəbb onların otlaqlarını viran edir.
[37] Rəbbin qızğın qəzəbindən
Dinc pəyələr də məhv oldu.
[38] Rəbb cavan aslan kimi
Yuvasını tərk etdi.
Rəbbin qəzəbi üzündən –
Zor işlədənin qızğın qəzəbi üzündən
Ölkələri viran oldu».

### *Yeremyanın ölümlə hədələnməsi*

26 [1] Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının əvvəlində
Rəbdən bu söz nazil oldu: [2] «Rəbb belə deyir:
"Rəbbin mə'bədinin həyatində dur, ibadət
etmək üçün Yəhuda şəhərlərindən oraya gələn
hər kəsə müraciət et. Sənə buyurduğum hər
şeyi onlara bildir, bir söz də əskiltmə. [3] Bəlkə
qulaq asarlar, öz pis yollarından dönərlər.
Mən də pis əməllərinə görə başlarına
gətirəcəyim fəlakətdən vaz keçərəm". [4] Onlara
söylə ki, Rəbb belə deyir: "Əgər sizə
verdiyim qanuna görə davranmasanız, Mənə
qulaq asmasanız, [5] dəfələrlə sizin yanınıza
göndərdiyim qullarım olan peyğəmbərlərin
sözlərinə qulaq asmasanız – necə ki qulaq
asmırsınız – o zaman [6] bu mə'bədi də Şilo
kimi edəcəyəm, bu şəhəri yer üzünün bütün
millətləri arasında lə'nətə düçar edəcəyəm"».
[7] Kahinlər, peyğəmbərlər və bütün xalq
Yeremyanın Rəbbin mə'bədində söylədiyi bu
sözləri eşitdi. [8] Yeremya Rəbbin xalqa
çatdırmasını buyurduğu sözləri deyib
qurtaranda kahinlər, peyğəmbərlər və oradakı
bütün xalq onu tutub söylədi: «Sən ölməlisən.
[9] Nə üçün "bu mə'bəd Şilo kimi olacaq, bu
şəhər xaraba qalacaq, orada yaşayan
olmayacaq" deyib Rəbbin adı ilə
peyğəmbərlik edirsən?» Rəbbin mə'bədində
olan bütün xalq Yeremyanın ətrafına yığıldı.
[10] Yəhuda başçıları bunları eşidən kimi
padşah sarayından çıxıb Rəbbin mə'bədinə
qalxdı və mə'bədin Yeni darvazasının
girəcəyində oturdu. [11] O zaman kahinlər və
peyğəmbərlər başçılara və bütün xalqa söylədi:
«Bu adam ölümə layiqdir, çünki öz
qulağınızla eşitdiyiniz kimi bu şəhərin
əleyhinə peyğəmbərlik etdi». [12] Onda
Yeremya bütün başçılara və xalqa dedi:
«Rəbb məni göndərdi ki, bu mə'bədin və
şəhərin əleyhinə eşitdiyiniz bütün
peyğəmbərlik sözlərini bildirim. [13] İndi
yaşayışınızı və əməllərinizi islah edin.
Allahınız Rəbbin sözünə qulaq asın. O zaman
Rəbb başınıza gətirəcəyini bildirdiyi bəladan
vaz keçəcək. [14] Mən isə sizin ixtiyarınızdayam.
Gözünüzdə nə yaxşı və düzdürsə, mənimlə
eləcə də rəftar edin. [15] Ancaq yaxşı bilin ki,
məni öldürsəniz, günahsız qanın
məs'uliyyətini özünüzün, bu şəhərin və orada
yaşayanların üzərinə götürmüş olursunuz.
Çünki Rəbb, həqiqətən, məni yanınıza
göndərdi ki, bütün bu sözləri sizə çatdırım».
[16] Başçılar və bütün xalq kahinlərə və
peyğəmbərlərə dedi: «Bu adama ölüm hökmü
çıxarmaq olmaz, çünki bizimlə Allahımız
Rəbbin adından danışdı». [17] Ölkə
ağsaqqallarından bir neçəsi qalxıb toplaşmış
bütün xalqa dedi: [18] «Yəhuda padşahı
Xizqiyanın dövründə Moreşetli Mikeya
peyğəmbərlik edib bütün Yəhuda xalqına
söylədi ki, Ordular Rəbbi belə deyir:
"Sion tarla kimi şumlanacaq,
Yerusəlim daş qalağına dönəcək,
Mə'bədin tikildiyi dağ
Meşəli təpələrə çevriləcək".
[19] Yəhuda padşahı Xizqiya yaxud Yəhuda
xalqından biri onu öldürdümü? Əksinə,
Xizqiya Rəbdən qorxub Ondan lütf istədi,
Rəbb də onlara göndərəcəyini söylədiyi
bəladan vaz keçdi. Biz isə özümüzə böyük
pislik gətirmək təhlükəsindəyik».

### *Padşahın Uriya peyğəmbəri öldürməsi*

[20] Qiryat-Yearimli Şemaya oğlu Uriya adlı
bir adam da Rəbbin adı ilə peyğəmbərlik
edirdi. O da eynilə Yeremya kimi danışaraq
bu şəhərin və ölkənin əleyhinə peyğəmbərlik
edirdi. [21] Padşah Yehoyaqim, bütün
cəngavərləri və başçıları onun sözlərini eşitdi.
Padşah onu öldürmək istədi. Ancaq Uriya
bunu eşidən kimi qorxub Misirə qaçdı.
[22] Bundan sonra padşah Yehoyaqim öz

---

***26:1*** *– 2Pad. 23:36-24:6; 2Saln. 36:5-7*
***26:6*** *– Yeşua 18:1; Zəb. 78:60; Yer. 7:12-14*

***26:18*** *– Mik. 3:12*

adamlarını – Akbor oğlu Elnatanı və bir neçə
nəfəri Misirə göndərdi. 23 Uriyanı Misirdən
çıxarıb padşah Yehoyaqimin yanına gətirdilər.
Padşah onu qılıncla öldürüb ümumi
qəbiristanlığa atdırdı.
24 Ancaq Yeremya öldürülmək üçün xalqa
təslim edilmədi, çünki Şafan oğlu Axiqam
onu qorudu.

### *Yəhudanın Babilə təslim edilməsi*

27 1 Yəhuda padşahı Yoşiya oğlu
Sidqiyanın[12] padşahlığının əvvəlində
Rəbdən Yeremyaya bu söz nazil oldu: 2 «Rəbb
mənə belə dedi: "Özünə qayışlarla bağlanan
taxta bir boyunduruq düzəlt və boynuna tax.
3 Sonra Yerusəlimə, Yəhuda padşahı
Sidqiyanın yanına gələn qasidlər vasitəsilə
Edomun, Moavın, Ammon övladlarının,
Surun və Sidonun padşahlarına xəbər göndər".
4 Ağalarına söyləmək üçün onlara bildir ki,
İsrailin Allahı olan Ordular Rəbbi belə deyir:
"Ağalarınıza söyləyin ki, 5 dünyanı da, yer
üzündə olan insanı da, heyvanı da böyük
gücümlə və uzanan qolumla Mən yaratdım və
kimə istəsəm, ona da verərəm. 6 Bəli, bütün bu
ölkələri Babil padşahı qulum
Navuxodonosorun ixtiyarına verirəm. Hətta
vəhşi heyvanları da xidmət etmək üçün ona
verirəm. 7 Ölkəsinin axırı çatana qədər bütün
millətlər ona, oğluna və nəvəsinə qulluq
edəcək. Sonra isə bir çox millətlər və böyük
padşahlar onu özlərinə qul edəcək. 8 Hansı
millət və ölkə Babil padşahı Navuxodonosora
qulluq etməsə, onun boyunduruğuna girməsə,
həmin milləti onun əli ilə qırıb-çatana qədər
qılınc, aclıq və vəba ilə cəzalandıracağam"
Rəbb bəyan edir. 9 "Siz isə öz
peyğəmbərlərinizə, falçılarınıza,
yuxugörənlərinizə, gələcəyideyənlərinizə və
cadugərlərinizə qulaq asmayın. Onlar sizə
‹Babil padşahına qulluq etməyəcəksiniz›
söyləyir. 10 Onlar sizə yalandan peyğəmbərlik
edir. Bunun nəticəsində öz ölkənizdən
qovulacaqsınız. Sizi sürgün edəcəyəm və
məhv olacaqsınız. 11 Ancaq Babil padşahının
boyunduruğuna girən və ona qulluq edən
milləti öz torpağında saxlayacağam. Torpağı
əkib orada yaşayacaqlar" Rəbb belə bəyan
edir».
12 Mən bütün bu sözləri Yəhuda padşahı
Sidqiyaya bildirib dedim: «Babil padşahının
boyunduruğuna girin, özünə və xalqına qulluq
edin ki, sağ qalasınız. 13 Babil padşahına
qulluq etmək istəməyən hər millət Rəbbin
dediyi kimi məhv olacaq. Sən və xalqın qılınc,
aclıq və vəbadan nə üçün öləsiniz? 14 Sizə
"Babil padşahına qulluq etməyəcəksiniz"
deyən peyğəmbərlərə qulaq asmayın, çünki
onlar sizə yalandan peyğəmbərlik edir.
15 Rəbb bəyan edir: "Onları Mən
göndərmədim, onlar Mənim adımla yalandan
peyğəmbərlik edir. Bunun nəticəsində Mən
sizi sürgün edəcəyəm, siz də, sizə
peyğəmbərlik edən peyğəmbərlər də həlak
olacaqsınız"».
16 Mən kahinlərə və bütün bu xalqa
söylədim: «Rəbb belə deyir: "‹Rəbbin
mə'bədindən götürülən əşyalar tezliklə
Babildən geri qaytarılacaq› deyib sizə
peyğəmbərlik edən peyğəmbərlərinizin
sözlərinə qulaq asmayın. Çünki sizə yalandan
peyğəmbərlik edirlər. 17 Onlara qulaq asmayın,
Babil padşahına qulluq edin ki, sağ qalasınız.
Bu şəhər niyə viran olsun? 18 Əgər onlar
peyğəmbərdirsə, Rəbbin sözünü söyləyirlərsə,
qoy indi Ordular Rəbbinə yalvarsınlar ki,
Rəbbin mə'bədində, Yəhuda padşahının
sarayında və Yerusəlimdə qalan əşyalar
Babilə aparılmasın".
19 Sütunlar, hovuz, ayaqlıqlar və bu şəhərdə
qalan başqa əşyalar barədə Ordular Rəbbi
belə deyir. 20 Bəli, Yəhuda padşahı
Yehoyaqim oğlu Yehoyakini və Yəhuda ilə
Yerusəlimin bütün ə'yanlarını Yerusəlimdən
Babilə sürgün etdiyi zaman Babil padşahı
Navuxodonosorun aparmadığı, 21 Rəbbin
mə'bədində, Yəhuda padşahının sarayında və
Yerusəlimdə qalan əşyalar barədə İsrailin
Allahı Ordular Rəbbi belə deyir: 22 "Onlar
Babilə aparılacaq və Babillilərin işinə
baxacağım günə qədər orada qalacaq. O
zaman onları oradan çıxaracağam və bu yerə
qaytaracağam" Rəbb belə bəyan edir».

### *Yalançı peyğəmbər Xananya*

28 1 Həmin il Yəhuda padşahı
Sidqiyanın padşahlığının əvvəlində –
dördüncü ilinin beşinci ayında Giveonlu
Azzur oğlu Xananya peyğəmbər Rəbbin

---

***27:1*** *– 2Pad. 24:18-20; 2Saln. 36:11-13; Yer. 28:1*

[12] **27:1** *Sidqiyanın* – bə'zi ibrani mətnlərdə və süryani və ərəb tərcümələrində belədir, əksər ibrani mətnlərində isə *Yehoyaqimin.*

mə’bədində, kahinlərin və bütün xalqın
önündə mənə söylədi: 2 «İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Babil padşahının
boyunduruğunu qırdım. 3 Əvvəl Rəbbin
mə’bədində olan, Babil padşahı
Navuxodonosorun buradan götürüb Babilə
apardığı bütün əşyaları iki il ərzində bu yerə
qaytaracağam. 4 Yəhuda padşahı Yehoyaqim
oğlu Yehoyakini və Babilə sürgün olunmuş
bütün Yəhudalıları bu yerə qaytaracağam”
Rəbb belə bəyan edir, “çünki Babil
padşahının boyunduruğunu qıracağam”».

5 O zaman Yeremya peyğəmbər kahinlərin
və Rəbbin mə’bədində dayanan bütün xalqın
önündə Xananya peyğəmbərə cavab verib
6 söylədi: «Amin! Qoy Rəbb belə etsin! Qoy
Rəbb Öz evinin əşyalarını, sürgün olunmuş
bütün adamları Babildən buraya qaytararaq
söylədiyin peyğəmbərlik sözlərini yerinə
yetirsin! 7 Ancaq indi sən və bütün xalq
eşidərkən deyəcəyim bu sözə qulaq as:
8 qədim zamanlardan bəri məndən və səndən
əvvəl yaşayan peyğəmbərlər bir çox ölkələrin
və böyük padşahlıqların əleyhinə müharibə,
fəlakət və vəba olacağını qabaqcadan söylədi.
9 Əgər salamatlıq olacağını söyləyən
peyğəmbərin sözü doğru çıxarsa, həqiqətən,
onun Rəbbin göndərdiyi peyğəmbər olduğu
bilinər». 10 O zaman Xananya peyğəmbər
Yeremya peyğəmbərin boynundan
boyunduruğu götürüb qırdı. 11 Xananya bütün
xalqın önündə söylədi: «Rəbb belə deyir: “İki
il ərzində Babil padşahı Navuxodonosorun
boyunduruğunu bütün millətlərin boynundan
götürüb beləcə qıracağam”». Yeremya isə öz
yoluna davam etdi.

12 Xananya peyğəmbər boyunduruğu
Yeremya peyğəmbərin boynundan götürüb
qırdıqdan sonra Yeremyaya Rəbbin bu sözü
nazil oldu: 13 «Gedib Xananyaya söylə ki,
Rəbb belə deyir: “Sən taxta boyunduruğu
qırdın, ancaq onun yerinə dəmir boyunduruq
düzəltməli olacaqsan”. 14 Çünki İsrailin Allahı
olan Ordular Rəbbi belə deyir: “Bütün bu
millətlərin boynuna dəmir boyunduruq taxdım
ki, Babil padşahı Navuxodonosora qulluq
etsinlər və onlar ona xidmət edəcək. Vəhşi
heyvanları da onun ixtiyarına verdim”».
15 Yeremya peyğəmbər Xananya peyğəmbərə
dedi: «İndi eşit, ey Xananya, axı səni Rəbb
göndərməyib. Sən bu xalqı yalana inandırdın.
16 Buna görə də Rəbb belə deyir: “Bax Mən
səni yer üzündən yox edəcəyəm. Bu il
öləcəksən, çünki xalqı Rəbbə qarşı üsyana
təhrik etdin”». 17 Xananya peyğəmbər həmin
ilin yeddinci ayında öldü.

### *Sürgün olunanlara məktub*

29 1 Yeremya peyğəmbər sürgündə sağ
qalan xalqın ağsaqqallarına, kahinlərə,
peyğəmbərlərə və Navuxodonosorun
Yerusəlimdən Babilə sürgün etdiyi bütün
xalqa Yerusəlimdən bir məktub göndərdi.
Məktubun mətni aşağıda verilir. 2 Bu məktub
padşah Yehoyakinin, onun anasının, saray
ə’yanlarının, Yəhuda və Yerusəlim
başçılarının, ustaların, sənətkarların
Yerusəlimdən sürgünə aparılmasından sonra
göndərildi. 3 Onu Yəhuda padşahı Sidqiyanın
Babil padşahı Navuxodonosorun yanına
göndərdiyi Şafan oğlu Elasa və Xilqiya oğlu
Gemarya apardı.

4 «Mən İsrailin Allahı olan Ordular Rəbbi
Yerusəlimdən Babilə sürgün etdiyim
adamlara belə deyirəm: 5 “Evlər tikib yaşayın,
bağçalar salıb meyvələrini yeyin. 6 Arvad alıb
oğul-qız atası olun. Oğullarınıza arvad alın,
qızlarınızı ərə verin ki, oğul-qızları olsun.
Orada azalmayıb çoxalın. 7 Sizi sürgün
etdiyim şəhərin rifahı üçün çalışın və o şəhər
üçün Rəbbə dua edin. Çünki ora rifah içində
olarsa, siz də rifahda yaşayarsınız”.

8 İsrailin Allahı olan Ordular Rəbbi belə
deyir: “Aranızdakı peyğəmbərləriniz və
falçılarınız sizi aldatmasın, gördüyünüz
yuxulara əhəmiyyət verməyin. 9 Çünki onlar
Mənim adımla sizə yalandan peyğəmbərlik
edir. Onları Mən göndərmədim” Rəbb belə
bəyan edir. 10 Çünki Rəbb belə deyir: “Babildə
yetmiş iliniz bitəndə Mən sizə yenə baş
çəkəcəyəm və sizi buraya qaytaracağım
barədə verdiyim xoş sözü yerinə yetirəcəyəm.
11 Çünki sizin barənizdə olan fikirlərimi Özüm
bilirəm” Rəbb belə bəyan edir. “Mən sizin
pisliyiniz deyil, salamatlığınız barədə
düşünürəm ki, sizə ümidli bir gələcək verim.
12 Siz Məni çağıracaqsınız, gəlib Mənə dua
edəcəksiniz, Mən də sizi eşidəcəyəm. 13 Məni
axtaracaqsınız, əgər bütün qəlbinizlə
axtarsanız, tapacaqsınız. 14 Məni tapmağınıza
izin verəcəyəm” Rəbb belə bəyan edir. “Sizi

---

***29:1-2** – 2Pad. 24:12-16; 2Saln. 36:10*
***29:10** – 2Saln. 36:21; Yer. 25:11; Dan. 9:2*
***29:13** – Qanun. 4:29*

sürgündən geri qaytaracağam, sürgün etdiyim
bütün yerlərdən və millətlərin arasından
toplayacağam. Oradan sizi sürgün
olunduğunuz yerə qaytaracağam" Rəbb belə
bəyan edir. 15 Siz belə dediniz: "Rəbb bizə
Babildə peyğəmbərlər verib".

16 Davudun taxtında oturan padşah, bu
şəhərdə yaşayan bütün xalq, sizinlə birgə
sürgünə aparılmamış soydaşlarınız barədə
Rəbb belə deyir. 17 Bəli, Ordular Rəbbi belə
deyir: "Bax Mən onların üzərinə qılınc, aclıq
və vəba göndərəcəyəm. Onları pisliyinə görə
yeməyə yararsız olan əzik əncirə
döndərəcəyəm. 18 Onları qılınc, aclıq və vəba
ilə tə'qib edəcəyəm, yer üzünün bütün
ölkələrinin qarşısında dəhşətli hala salacağam.
Onları qovduğum bütün millətlərin arasında
lə'nət, dəhşət, rişxənd və rüsvayçılıq hədəfi
olacaqlar". 19 Rəbb bəyan edir: "Ona görə ki
sözlərimə qulaq asmadılar. Həmin sözləri
qullarım olan peyğəmbərlər vasitəsilə
dəfələrlə onlara çatdırdım, ancaq siz qulaq
asmadınız" Rəbb belə bəyan edir. 20 Buna
görə də, ey Yerusəlimdən Babilə göndərdiyim
bütün sürgün olunmuş adamlar, Rəbbin
sözünü eşidin.

21 Mənim adımla sizə yalandan
peyğəmbərlik edən Qolaya oğlu Axav və
Maaseya oğlu Sidqiya barədə İsrailin Allahı
olan Ordular Rəbbi belə deyir: "Bax Mən
onları Babil padşahı Navuxodonosora təslim
edəcəyəm və o, gözlərinizin önündə onları
öldürəcək. 22 Onlar barədə Babildəki bütün
sürgün olunmuş Yəhudalılar bundan sonra
‹Rəbb səni Babil padşahının diri-diri
yandırdığı Sidqiya və Axav kimi etsin› deyə
lə'nət edəcək. 23 Çünki İsraildə çirkin işlər
gördülər, qonşularının arvadları ilə zina
etdilər, onlara əmr etmədiyim halda Mənim
adımdan yalan sözlər söylədilər. Mən bunu
bilirəm və buna şahidəm" Rəbb belə bəyan
edir».

### *Şemayaya müraciət*

24 Nexelamlı Şemaya barədə söylə ki,
25 İsrailin Allahı Ordular Rəbbi belə deyir:
«Sən Yerusəlimdə olan başqa xalqa, kahin
Maaseya oğlu Sefanyaya və başqa kahinlərə
öz adından məktublar göndərdin. Sefanyaya
dedin ki, 26 Rəbb Öz mə'bədinin cavabdehi
kimi Yehoyadanın yerinə səni kahin qoydu.
Özünü peyğəmbər e'lan edən hər dəliyə
kündə və dəmir yaxa vurmalısan. 27 Bəs nə
üçün sizə özünü peyğəmbər e'lan edən
Anatotlu Yeremyanı məzəmmət etmirsən?
28 Çünki Yeremya biz Babildəkilərə bu xəbəri
göndərdi ki, sürgün uzun çəkəcək. Buna görə
də evlər tikib, içində yaşayın, bağça salıb,
meyvələrini yeyin».

29 Kahin Sefanya bu məktubu Yeremya
peyğəmbərə uca səslə oxudu. 30 Bu vaxt
Yeremyaya Rəbbin bu sözü nazil oldu:
31 «Bütün sürgün olunmuşlara xəbər göndərib
söylə ki, Nexelamlı Şemaya barədə Rəbb belə
deyir: "İndi ki Mən göndərmədiyim halda
Şemaya peyğəmbərlik edib sizi yalana
inandırdı, 32 Mən Rəbb də deyirəm ki,
Nexelamlı Şemayanı və onun nəslini
cəzalandıracağam. Bu xalqın arasında onun
nəslindən olan bir kəs sağ qalmayacaq,
xalqıma edəcəyim xeyirxahlığı görməyəcək,
çünki o, xalqı Rəbbə qarşı üsyana təhrik etdi"
Rəbb belə bəyan edir».

### *Allahın öz xalqına və'di*

30 1 Yeremyaya Rəbdən bu söz nazil
oldu: 2 «İsrailin Allahı Rəbb belə deyir:
"Sənə söylədiyim bütün sözləri bir kitaba
yaz". 3 Çünki Rəbb bəyan edir: "Xalqım İsraili
və Yəhudanı sürgündən qaytaracağım günlər
yaxınlaşır. Onları atalarına verdiyim torpağa
qaytaracağam və oranı mülk edəcəklər". Bu,
Rəbbin sözüdür.

4 İsrail və Yəhuda üçün Rəbbin söylədiyi
sözlər bunlardır.

5 Rəbb belə deyir:
"Qorxu səsi eşitdik,
Asayiş deyil, dəhşət səsi.
6 İndi soruşun, bilin ki,
Kişi də uşaq doğarmı?
Elə isə nə üçün doğan qadın kimi
Hər kişinin əllərini belində görürəm?
Nə üçün hamının bənizi solub?
7 Ah, bu nə dəhşətli gündür!
Bir daha belə gün olmayacaq,
Yaqub nəsli üçün sıxıntı dövrü olacaq,
Ancaq yenə də bundan qurtulacaq".
8 Ordular Rəbbi bəyan edir:
"O gün boynundakı boyunduruğu
qıracaq,
İplərini qoparacağam.
Bundan sonra yadellilər onları
Özlərinə qul etməyəcək.
9 Ancaq özlərinin Allahı Rəbbə,
Onlara qoyacağım padşahları Davuda
Qulluq edəcəklər".

[10] Rəbb bəyan edir:
“Qorxma, ey qulum Yaqub,
Dəhşətə düşmə, ey İsrail.
Çünki səni uzaq yerlərdən,
Nəslini sürgün olunduğu ölkədən
qurtaracağam.
Yaqub nəsli yenə geri qayıdacaq,
Rahatlıq tapıb qayğısız olacaq,
Onu kimsə qorxutmayacaq.
[11] Çünki Mən səninləyəm,
Səni qurtaracağam”
Rəbb belə bəyan edir.
“Səni aralarına apardığım
Millətlərin hamısını yox etsəm də,
Səni tamamilə məhv etməyəcəyəm,
Səni ədalətlə tərbiyələndirəcəyəm,
Amma cəzasız da qoymayacağam”.

[12] Çünki Rəbb belə deyir:
“Sənin yaran şəfa tapmaz,
Xoran sağalmaz.
[13] Məhkəmədə işinə baxan yoxdur,
Xəstəliyinə dərman yoxdur,
Sənin dərdinə əlac yoxdur.
[14] Bütün müttəfiqlərin səni unutdu,
Səni arayıb-axtarmırlar.
Düşmən vuran kimi Mən səni vurdum.
Rəhmsizcəsinə cəzalandırdım.
Çünki təqsirkarlığın böyükdür,
Günahların çoxdur.
[15] Niyə yarandan ötrü qışqırırsan?
Dərdin şəfa tapmaz.
Bu işləri ona görə sənə etdim ki,
Təqsirkarlığın böyükdür,
Günahların çoxdur.

[16] Ancaq səni yeyənlərin də hamısı yem
olacaq.
Bütün düşmənlərin sürgünə gedəcək.
Səni soyanlar soyulacaq,
Səni qarət edənlər qarət olunacaq”.
[17] Rəbb bəyan edir:
“Mən səni yenə sağaldacağam,
Yaralarına şəfa verəcəyəm.
Çünki deyirlər ki,
Sion rədd edilib,
Onu axtaran yoxdur”.

[18] Rəbb belə deyir:
“Mən Yaqubun çadırlarını
Sürgündən geri qaytaracağam.
Onun məskənlərinə rəhm edəcəyəm.
Şəhər yenidən viranələri üzərində
tikiləcək,
Saray öz yerində bərpa olunacaq.
[19] Onların arasından
Şükür və şənlik səsləri eşidiləcək.
Mən onları çoxaldacağam,
azalmayacaqlar,
İzzətləndirəcəyəm, alçalmayacaqlar.
[20] Övladları əvvəlki kimi olacaq,
Camaatı önümdə möhkəm duracaq.
Onları sıxışdıranların hamısını
cəzalandıracağam.
[21] Rəhbərləri özlərindən olacaq,
Başçıları aralarından çıxacaq.
Onu özümə yaxınlaşdıracağam,
O da Mənə yaxınlaşacaq.
Başqa cür kim Mənə özü yaxınlaşmağa
Cür’ət edə bilər?”
Rəbb belə bəyan edir.
[22] “Beləcə siz Mənim xalqım,
Mən də sizin Allahınız olacağam”».

[23] Budur, Rəbbin fırtınası qəzəblə
qopacaq,
Şiddətli qasırğası
Pis adamların başında çatlayacaq.
[24] Rəbb Öz ürəyinin istədiyini
Tamamilə edənə qədər
Qızğın qəzəbini söndürməyəcək.
Siz gələcəkdə bunu anlayacaqsınız.

31 [1] Rəbb bəyan edir: «O zaman Mən
bütün İsrail qəbilələrinin Allahı
olacağam, onlar da Mənim xalqım olacaq».

### *İsrail xalqının öz yurduna dönməsi*

[2] Rəbb belə deyir:
«Mən İsrailə dinclik verməyə gedəndə
Qılıncdan qaçıb qurtulan xalq
Çöldə lütf tapdı».
[3] Rəbb uzaqdan mənə görünüb dedi:
«Səni əbədi bir məhəbbətlə sevdim,
Buna görə də sevgi ilə
Səni özümə tərəf çəkdim.
[4] Səni yenidən ayağa qaldıracağam,
Sən də ayağa qalxacaqsan,
Ey bakirə qıza bənzəyən İsrail!
Sən yenə dəflərinlə bəzənib
Şadlıq edənlərlə birgə rəqsə
qoşulacaqsan.

***30:10-11*** – *Yer. 46:27-28*

5 Yenə də Samariya dağlarında bağ
salacaqsan,
Bağ salanlar onun meyvələrindən
dadacaq.
6 Bir gün gələcək ki,
Efrayimin dağlıq bölgəsində
Keşikçilər “qalxın, Siona,
Allahımız Rəbbin yanına çıxaq”
Deyə qışqıracaq».
7 Rəbb belə deyir:
«Yaqubu sevinclə tərənnüm edin,
Millətlərin başçısı üçün səs qaldırın!
Ucadan həmd edib bildirin!
“Ya Rəbb, xalqını,
İsraildən sağ qalanları xilas et!” deyin.
8 Mən onları şimal ölkəsindən
qaytaracağam,
Dünyanın uzaq yerlərindən
toplayacağam.
Aralarında kor, topal,
Hamilə və doğan qadın da olacaq.
Böyük bir kütlə olub buraya
qayıdacaqlar.
9 Onlar ağlaya-ağlaya gələcək,
Yalvardıqları zaman
Onlara yol göstərib geri qaytaracağam.
Axar sular boyunca
Büdrəməyəcəkləri düz yolla aparacağam.
Çünki Mən İsrailin atasıyam,
Efrayim də ilk oğlumdur.

10 Ey millətlər, Rəbbin sözünü eşidin,
Uzaqlardakı adalarda e’lan edib deyin:
“İsraili səpələyən onu bir yerə
toplayacaq,
Sürüsünü qoruyan çoban kimi
Onu qoruyacaq”.
11 Çünki Rəbb Yaqubu xilas etdi,
Ondan güclü olanın əlindən qurtardı.
12 Onlar Sionun yüksək təpəsinə gəlib
Tərənnüm edəcək.
Rəbbin verdiyi ne’mətlər –
Taxıl, təzə şərab, zeytun yağı,
Qoyun-keçi, mal-qara önünə axışacaqlar.
Canları sulanmış bağça kimi olacaq,
Bir daha taqətdən düşməyəcəklər.
13 O zaman bakirə qız, cavan və qoca
kişilər
Birlikdə rəqs edib sevinəcək,
Mən onların yasını şadlığa çevirəcəyəm,
Sevincə çevirəcəyəm.
Kədərlərinə təsəlli verib
Onları sevindirəcəyəm.
14 Kahinləri bol yeməklə doyduracağam,
Xalqım ne’mətlərimlə doyacaq»
Rəbb belə bəyan edir.

15 Rəbb belə deyir:
«Ramada bir səs –
Yas və acı fəryad eşidilir.
Rəhilə uşaqları üçün ağlayır,
Təsəlli istəmir.
Çünki onlar daha yoxdur».
16 Rəbb belə deyir:
«Səsini ağlamaqdan,
Gözlərini yaş tökməkdən qoru,
Çünki çəkdiyin zəhmətin əvəzi veriləcək,
Xalqım düşmən ölkəsindən qayıdacaq»
Rəbb belə bəyan edir.
17 «Gələcəyin üçün ümid var,
Övladların öz yurdlarına dönəcək»
Rəbb belə bəyan edir.

18 Bəli, Mən Efrayimin nalələrini eşitdim:
«Sən məni
Öyrədilməmiş dana kimi
tərbiyələndirdin,
Mən də tərbiyə aldım.
Məni geri qaytar, qayıdım,
Çünki Allahım Rəbb Sənsən.
19 Mən yolumdan azdıqdan sonra tövbə
etdim,
Ağlım başıma gələndə əllərimi yanıma
çırpdım.
Cavanlığımda etdiyim eyib işlərdən
Utandım, rüsvay oldum.
20 Efrayim əziz oğlum deyilmi?
Mənim razı olduğum övlad deyilmi?
Hər dəfə əleyhinə danışanda
Yenə onu yadıma salıram.
Ürəyim onun üçün sızlayır,
Ona hədsiz rəhmim gəlir»
Rəbb belə bəyan edir.

21 «Yol işarələri qoy,
Yol göstərən lövhələr düzəlt.
Böyük yola – getdiyin yola fikir ver.
Geri dön, ey bakirə qıza bənzəyən İsrail,
Öz şəhərlərinə qayıt!
22 Nə vaxta qədər sərgərdan gəzəcəksən,
Ey dönük qız?
Rəbb dünyada yeni bir şey yaradacaq:

---

***31:15** – Mat. 2:18*
***31:15** – Yar. 35:16-19*

Qadın kişini qoruyacaq».
[23] İsrailin Allahı olan Ordular Rəbbi belə
deyir: «Mən onların sürgün olunmuşlarını
geri qaytaranda Yəhuda torpağında və onun
şəhərlərində yenə belə söyləyəcəklər:
“Ey ədalət yurdu, ey müqəddəs dağ,
Rəbb sənə xeyir-dua versin!”
[24] Xalq – əkinçilər, sürüləri ilə gəzən
çobanlar Yəhudada və onun şəhərlərində
birlikdə yaşayacaq. [25] Çünki Mən yorğun
adama su verəcəyəm, taqətsiz adamı
doyduracağam».
[26] Bu zaman oyanıb baxdım, yuxum şirin
olmuşdu.
[27] Rəbb bəyan edir: «İsrail və Yəhuda
torpaqlarında insan toxumu və heyvan
toxumu əkəcəyim günlər yaxınlaşır.
[28] Kökündən çıxarıb yox edəndə, yıxıb-
dağıdanda və bəla gətirəndə onlara necə
nəzarət etdimsə, dirçəldib yerləşdirəndə də
eləcə nəzarət edəcəyəm» Rəbb belə bəyan
edir. [29] «O vaxt adamlar daha “atalar kal üzüm
yedi, oğulların dişi qamaşır” deməyəcək.
[30] Hər kəs öz təqsirinə görə öləcək. Kal üzüm
yeyənin öz dişləri qamaşacaq».

### *Yeni əhd*

[31] Rəbb bəyan edir: «İsrail və Yəhuda xalqı
ilə yeni bir əhd bağlayacağım günlər
yaxınlaşır. [32] Bu əhd atalarını Misir
torpağından çıxartmaq üçün əllərindən
tutduğum gün onlarla bağladığım əhdə
bənzəməyəcək. Onların ağası olduğum halda
o əhdimi pozdular» Rəbb belə bəyan edir.
[33] «O günlərdən sonra İsrail xalqı ilə
bağlayacağım əhd belədir: Qanunumu onların
daxilinə qoyub ürəklərinə yazacağam. Mən
onların Allahı, onlar da Mənim xalqım
olacaq» Rəbb belə bəyan edir. [34] «Bundan
sonra bir kəs öz qonşusunu yaxud qardaşını
“Rəbbi tanıyın” deyib öyrətməyəcək. Çünki
böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq.
Bəli, təqsirlərini bağışlayacağam, günahlarını
daha yada salmayacağam» Rəbb belə bəyan
edir.
[35] Gündüz işıq olsun deyə günəşi çıxaran,
Gecə işıq olsun deyə aya və ulduzlara
qaydalar qoyan,
Dalğaları kükrəsin deyə dənizi qabardan
Rəbb –
Adı Ordular Rəbbi Olan belə deyir:
[36] «Əgər qoyulan bu qayda-qanunlar
Önümdən götürülərsə,
Yalnız onda İsrail nəsli əbədilik
Bir millət olmaqdan çıxar»
Rəbb belə bəyan edir.
[37] Rəbb belə deyir:
«Əgər yuxarıda göylər ölçülə bilsə,
Aşağıda yerin təməlləri üzə çıxarıla bilsə,
Mən də onda bütün etdikləri işlərdən
ötrü
Bütün İsrail nəslini rədd edərəm»
Rəbb belə bəyan edir.
[38] Rəbb bəyan edir: «Xananel qülləsindən
Künc darvazasına qədər şəhərin Mənim üçün
yenidən tikiləcəyi günlər gəlir. [39] Oradan da
ölçü ipi Qarev təpəsinə doğru uzanıb Qoaya
dönəcək. [40] Ölülərin və küllərin atıldığı bütün
vadi, Qidron vadisinə qədər uzanan tarlalar,
şərqdə At darvazasının küncünədək Rəbb
üçün müqəddəs olacaq. Şəhər bir daha
kökündən çıxarılmayacaq, heç vaxt
dağıdılmayacaq».

### *Yeremyanın tarla alması*

32 [1] Yəhuda padşahı Sidqiyanın
padşahlığının onuncu,
Navuxodonosorun padşahlığının on
səkkizinci ilində Rəbdən Yeremyaya söz nazil
oldu. [2] Bu zaman Babil padşahının ordusu
Yerusəlimi mühasirəyə almışdı. Yeremya
peyğəmbər Yəhuda padşahının sarayındakı
keşikçilər həyatində məhbus idi. [3] Yəhuda
padşahı Sidqiya onu burada həbs edərək
demişdi: «Sən nə üçün bu cür peyğəmbərlik
edib söyləyirsən ki, Rəbb belə deyir: “Bu
şəhəri Babil padşahına təslim edəcəyəm, o
buranı ələ keçirəcək. [4] Yəhuda padşahı
Sidqiya Xaldeylilərin əlindən qaçıb
qurtarmayacaq, hökmən Babil padşahına
təslim ediləcək. Onunla üz-üzə söhbət edəcək,
göz-gözə dayanacaq. [5] Sidqiya Babilə
aparılacaq, Mən ona baş çəkənə qədər orada
qalacaq. Əgər Xaldeylilərlə vuruşsanız, uğur
qazanmayacaqsınız?” Rəbb belə bəyan edir».
[6] Yeremya dedi: «Mənə Rəbbin bu sözü
nazil oldu: [7] “Əmin Şallum oğlu Xanamel

---

***31:29*** *– Yez. 18:2*
***31:31-34*** *– İbr. 8:8-12*
***31:31*** *– Mat. 26:28; Mrk. 14:24; Luk. 22:20; 1Kor. 11:25; 2Kor. 3:6*
***31:33-34*** *– İbr. 10:16-17*

***32:1*** *– 2Pad. 25:1-7*

sənin yanına gəlib deyəcək ki, Anatotdakı
tarlamı satın al. Çünki qəyyumum kimi
tarlamın satınalma haqqı sənə məxsusdur”.
[8] Sonra Rəbbin sözünə uyğun olaraq əmim
oğlu Xanamel keşikçilər həyatində yanıma
gəlib dedi: “Binyamin bölgəsində olan
Anatotdakı tarlamı satın al, çünki miras haqqı
da, qəyyumluq haqqı da sənə məxsusdur. Onu
özün üçün satın al”. O zaman Rəbb sözünün
yerinə yetdiyini başa düşdüm. [9] Beləcə
Anatotdakı tarlanı əmim oğlu Xanameldən
satın aldım. Tarlanın əvəzində ona on yeddi
şekel gümüş çəkib verdim. [10] Satış qəbzini
çağırdığım şahidlərin önündə imzalayıb
möhürlədim, gümüşü tərəzidə çəkdim.
[11] Qayda-qanunlar yazılmış, möhürlənmiş
satış qəbzini və açıq müqavilə kağızını
götürdüm. [12] Əmim oğlu Xanamelin, satış
qəbzini imzalayan şahidlərin və keşikçilər
həyatində oturan bütün Yəhudalıların gözü
önündə satış qəbzini Maxseya oğlu Neriya
oğlu Baruka verdim. [13] Onların gözü önündə
Baruka əmr edib dedim: [14] “İsrailin Allahı
olan Ordular Rəbbi belə deyir: ‹Uzun müddət
qalsın deyə bu möhürlənmiş satış qəbzini və
açıq müqavilə kağızını götürüb bir gil qabın
içinə qoy›”. [15] Çünki İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Bu ölkədə yenə
evlər, tarlalar və bağlar satın alınacaq”.

[16] Satış qəbzini Neriya oğlu Baruka
verdikdən sonra Rəbbə dua edib dedim: [17] “Ah
Xudavənd Rəbb, böyük gücünlə və uzanan
qolunla yeri, göyü yaratdın. Edə bilməyəcəyin
heç bir şey yoxdur. [18] Sən minlərlə insana
məhəbbət göstərirsən, amma ataların etdiyi
günahların əvəzini övladlarından alırsan. Sən
böyük və güclü Allahsan, adın Ordular
Rəbbidir. [19] Tədbirlərin əzəmətli, işlərin
böyükdür! İnsanların bütün əməlləri Sənin
nəzərin altındadır, hər kəsə işlərinə və
etdiklərinin nəticəsinə görə əvəz verirsən.
[20] Sən Misirdə, İsraildə və bütün insanlar
arasında bu günə qədər əlamətlər və
mö’cüzələr göstərdin. Bu gün olduğu kimi
şöhrət qazandın. [21] Sən Öz xalqın İsraili
əlamətlərlə, mö’cüzələrlə, qüvvətli əlinlə,
uzanan qolunla böyük dəhşət saçaraq Misir
torpağından çıxartdın. [22] Atalarına verəcəyinə
and içdiyin bu torpağı – süd və bal axan
torpağı onlara verdin. [23] Onlar gəlib torpağı
özlərinə mülk etdi, amma Sənin sözünə qulaq
asmadı, Sənin qanununa uyğun yaşamadı, əmr
etdiyin şeylərin heç birinə əməl etmədi. Buna
görə də bütün bu fəlakətləri başlarına gətirdin.
[24] Şəhəri ələ keçirmək üçün divarlarının
yanına torpaq qalaqları yığılır. Şəhər qılınc,
aclıq və vəba üzündən oraya hücum edən
Xaldeylilərə təslim ediləcək. Söylədiklərin
yerinə yetdi, Sən də bunu görürsən! [25] Amma,
ya Xudavənd Rəbb, Sən mənə ‹tarlanı
gümüşlə özün üçün satın al və şahidlər çağır›
dedin. Şəhər isə Xaldeylilərə təslim edilir”».

[26] Yeremyaya Rəbbin bu sözü nazil oldu:
[27] «Bütün bəşərin Allahı Rəbb Mənəm.
Mənim edə bilməyəcəyim bir şey varmı?
[28] Buna görə də Rəbb belə deyir: “Bax Mən
bu şəhəri Xaldeylilərə və Babil padşahı
Navuxodonosora təslim edəcəyəm, o da oranı
alacaq. [29] Şəhərə hücum edən Xaldeylilər
gəlib oraya od vuracaq. Şəhəri də, evləri də
yandıracaqlar. O evlərin damlarında Baalın
şərəfinə buxur yandırıb başqa allahlara maye
təqdimləri gətirərək Məni qəzəbləndirmişdilər.
[30] Çünki İsrail və Yəhuda övladları
cavanlıqlarından bəri həmişə gözümdə pis
olan işlər görür. İsrail övladları gördükləri
işlərlə Məni qəzəbləndirməkdən başqa bir şey
etmədi” Rəbb belə bəyan edir. [31] “Bu şəhər
tikildiyi vaxtdan indiyə qədər Məni o qədər
qəzəbləndirdi ki, onu önümdən rədd edib
atacağam. [32] Çünki İsrail və Yəhuda
övladlarının – özlərinin, padşahlarının,
başçılarının, kahinlərinin, peyğəmbərlərinin,
Yəhudada və Yerusəlimdə yaşayanların Məni
qəzəbləndirmək üçün etdikləri pisliklərin
sayı-hesabı yoxdur. [33] Onlar Mənə üzlərini
deyil, arxalarını çevirdi. Onları dəfələrlə
öyrətdimsə də, Mənə qulaq asmadılar və dərs
almadılar. [34] Mənim adımla çağırılan bu
mə’bədə iyrənc bütlərini qoyaraq onu
murdarladılar. [35] Ben-Hinnom dərəsində
Molek bütünə qurban olaraq oğullarını və
qızlarını odda qurban etməkdən ötrü Baal
üçün səcdəgahlar qurdular. Mən belə iyrənc
bir şeyi etməyi və Yəhudanı günaha batırmağı
nə onlara buyurdum, nə də ağlıma gətirdim.

[36] Siz bu şəhər barədə ‹qılınc, aclıq və vəba
ilə Babil padşahına təslim edilir› deyirsiniz”.
Amma indi İsrailin Allahı Rəbb deyir:
[37] “Onları qızğın qəzəb və böyük hiddətlə

---

***32:28*** *– 2Pad. 25:1-11; 2Saln. 36:17-21*
***32:34*** *– 2Pad. 23:10; Yer. 7:30-31; 19:1-6*
***32:35*** *– Lev. 18:21*
***32:35*** *– 2Pad. 23:10; Yer. 7:31*

sürgün etdiyim bütün ölkələrdən
toplayacağam. Onları buraya qaytarıb əmin-
amanlıq içində yaşamalarını tə’min edəcəyəm.
38 Onlar Mənim xalqım olacaq, Mən də
onların Allahı olacağam. 39 Onlara eyni ürək,
eyni həyat tərzi verəcəyəm ki, özlərinin və
övladlarının yaxşılığı üçün Mənə həmişə
hörmət etsinlər. 40 Onlarla əbədi bir əhd
bağlayacağam. Onlara yaxşılıq etməkdən
dönməyəcəyəm, ürəklərinə elə tə’sir
edəcəyəm ki, Mənə hörmət etsinlər və
Məndən heç vaxt ayrılmasınlar. 41 Onlara
yaxşılıq etməyə şad olacağam. Həqiqətən,
bütün ürəyimlə, bütün canımla onları bu
ölkədə dirçəldəcəyəm”.

42 Rəbb belə deyir: “Bu xalqın başına bütün
bu böyük fəlakətləri necə gətirdimsə, söz
verdiyim bütün yaxşılıqları da onlara bəxş
edəcəyəm. 43 Sizin ‹viran olmuş, insansız,
heyvansız qalmış, Xaldeylilərə təslim
olunmuş› dediyiniz bu torpaqda yenə tarlalar
satın alınacaq. 44 Binyamin bölgəsində,
Yerusəlim ətrafındakı kəndlərdə, Yəhuda
şəhərlərində, dağlıq bölgənin, yamaclı-
düzənlikli bölgənin və Negevin şəhərlərində
tarlalar gümüşlə satın alınacaq, satış qəbzləri
şahidlərin önündə imzalanıb möhürlənəcək,
çünki onların sürgün olunmuşlarını geri
qaytaracağam” Rəbb belə bəyan edir».

### *Vətənə qayıtmaq və’di*

33 1 Yeremya hələ keşikçilər həyətində
məhbus olanda ikinci dəfə ona Rəbbin
sözü nazil oldu. 2 O dedi: «Dünyanı yaradan,
qurub möhkəmləndirən, adı Rəbb Olan belə
deyir: 3 “Məni çağır, sənə cavab verim,
bilmədiyin böyük, dərkedilməz şeyləri sənə
bildirim”.

4 Mühasirə zamanı torpaq qalaqları və
qılınca qarşı sipər olmaq üçün bu şəhərin
uçurulmuş evləri və Yəhuda padşahlarının
uçurulmuş sarayları barədə İsrailin Allahı
Rəbb belə deyir: 5 “Xaldeylilər vuruşmaq,
evləri qəzəb və qızğınlıqla həlak etdiyim
insanların cəsədləri ilə doldurmaq üçün
gələcək. Bu insanların etdikləri pisliklərə görə
bu şəhərdən üz döndərdim. 6 Yenə də bu
şəhərə sağlamlıq və şəfa verəcəyəm. Əhalisini
sağaldacağam, onların tam salamatlıq və
əmin-amanlıq içində yaşamalarını tə’min
edəcəyəm. 7 Yəhuda və İsrail sürgünlərini
yenə geri qaytaracağam. Onları əvvəlki kimi
dirçəldəcəyəm. 8 Onları Mənə qarşı etdikləri
bütün günahlardan təmizləyəcəyəm. Mənə
qarşı etdikləri günahları da, asilikləri də
bağışlayacağam. 9 Dünyanın bütün
millətlərinin önündə bu şəhər Mənim üçün
sevinc, tə’rif və şərəf mənbəyinə çevriləcək.
Bu millətlər Yerusəlim xalqına etdiyim
yaxşılıqları, verdiyim əmin-amanlığı görəndə
qorxuya düşüb titrəyəcək”.

10 Rəbb belə deyir: “Deyirsiniz ki, bu şəhər
viran olmuş, insansız və heyvansız qalmışdır.
Ancaq tərk edilmiş, insansız və heyvansız
qalmış Yəhuda şəhərlərində, Yerusəlim
küçələrində 11 sevinc və şadlıq sədası, bəy-
gəlin səsi, Rəbbin mə’bədinə şükür təqdimləri
gətirənlərin səsi yenə eşidiləcək:

‹Ordular Rəbbinə şükür edin,
Çünki O, xeyirxahdır,
Məhəbbəti əbədidir›.

Çünki Mən ölkədən sürgün olunanları əvvəlki
kimi geri qaytaracağam” Rəbb belə bəyan
edir.

12 Ordular Rəbbi deyir: “Viran olmuş,
insansız və heyvansız qalmış bu ölkənin
bütün şəhərlərində yenə çobanların öz
sürülərini dincəltdikləri otlaqlar olacaq.
13 Dağlıq bölgənin, yamaclı-düzənlikli
bölgənin, Negev, Binyamin bölgəsinin
şəhərlərində, Yerusəlimin ətrafındakı
kəndlərdə, Yəhuda şəhərlərində sürülər yenə
çoban dəyənəyinin altından keçəcək” Rəbb
belə deyir.

14 Rəbb bəyan edir: “İsrail və Yəhuda
nəslinə verdiyim xoş və’di yerinə yetirəcəyim
günlər gəlir.

15 O zaman, o günlər
Davud üçün saleh bir Pöhrə
yetişdirəcəyəm.
O, ölkədə ədalət və salehliklə
davranacaq.
16 O günlər Yəhuda xilas olacaq,
Yerusəlim əmin-amanlıqda yaşayacaq.
O, ‹Rəbb salehliyimizdir› deyə
çağırılacaq”.

17 Rəbb belə deyir: “Davud nəslindən İsrail
taxtında oturan bir adam heç vaxt əskik
olmayacaq. 18 Levili kahinlərdən önümə

---

***33:11*** *– 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezr. 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1*
***33:14-16*** *– Yer. 23:5-6*
***33:17*** *– 2Şam. 7:12-16; 1Pad. 2:4; 1Saln. 17:11-14*
***33:18*** *– Say. 3:5-10*

yandırma qurbanı gətirən, taxıl təqdimi
yandıran, qurban kəsən bir kəs heç vaxt əskik
olmayacaq"».
19 Yeremyaya Rəbbin bu sözü nazil oldu:
20 «Rəbb belə deyir: "Necə ki müəyyən
vaxtlarda gecə və gündüz olması üçün gecə-
gündüzlə kəsdiyim əhdi poza bilməzsiniz,
21 eləcə də padşahlıq etməsi üçün taxtında
oturan bir oğlu barədə qulum Davudla və
Mənə xidmət edən Levili kahinlərlə
bağladığım əhd pozula bilməz. 22 Qulum
Davudun nəslini və Mənə xidmət edən
Levililəri saysız-hesabsız göy cisimləri və
ölçülməz olan dəniz qumu qədər
çoxaldacağam"».
23 Yeremyaya Rəbbin bu sözü nazil oldu:
24 «Bu xalqın "Rəbb seçdiyi iki ailəni rədd
etdi" dediyini görmürsənmi? Xalqımı artıq bir
millət kimi saymayaraq ona xor baxırlar.
25 Rəbb belə deyir: "Necə ki gecə-gündüzlə
əhd bağlayıb yer və göyün dəyişməz
qaydalarını qoydum, 26 eləcə də Yaqub nəsli
ilə qulum Davudu da rədd etməyəcəyəm.
Davudun oğullarından birini İbrahim, İshaq
və Yaqub nəslinə padşahlıq etmək üçün
seçəcəyəm. Çünki Mən onların sürgün
olunmuşlarını geri qaytaracağam və onlara
rəhm edəcəyəm"».

### *Padşah Sidqiyaya müraciət*

34 1 Babil padşahı Navuxodonosor öz
hakimiyyəti altındakı bütün
padşahlıqlar və xalqlardan yığılan ordusu ilə
birgə Yerusəlimə və ətrafındakı şəhərlərə
qarşı döyüşən vaxt Rəbdən Yeremyaya bu söz
nazil oldu: 2 «İsrailin Allahı Rəbb deyir ki, get
Yəhuda padşahı Sidqiya ilə danış, söylə ki,
Rəbb belə deyir: "Bu şəhəri Babil padşahına
təslim edəcəyəm və o buraya od vuracaq.
3 Sən Sidqiya onun əlindən qaçıb
qurtulmayacaqsan, mütləq ələ keçib ona
təslim ediləcəksən. Babil padşahını öz
gözünlə görəcəksən, o səninlə üzbəüz
danışacaq. Sonra Babilə aparılacaqsan".
4 Ancaq, ey Yəhuda padşahı Sidqiya, Rəbbin
sözünə qulaq as. Rəbb sənin barəndə belə
deyir: "Qılıncla öldürülməyəcəksən, 5 əmin-
amanlıqda öləcəksən. Səndən əvvəl padşah
olan atalarının şərəfinə ətirli maddə
yandırdıqları kimi sənin də şərəfinə ətirli
maddə yandırıb ‹ah, ağamız› deyərək yas
tutacaqlar. Çünki Mən Rəbb bunu söylədim"».
6 Yeremya peyğəmbər bütün bu sözləri
Yerusəlimdə Yəhuda padşahı Sidqiyaya
söylədi. 7 Həmin vaxt Babil padşahının ordusu
Yerusəlimə və Yəhudanın hələ ələ
keçirilməmiş şəhərləri olan Lakişə və
Azeqaya hücum edirdi. Yəhudanın qalalı
şəhərlərindən yalnız bunlar qalmışdı.

### *Qullara azadlıq*

8 Padşah Sidqiya Yerusəlimdəki xalqla əhd
kəsərək qulların azadlığını e'lan etdikdən
sonra Rəbdən Yeremyaya söz nazil oldu. 9 Bu
əhdə görə hər kəs İbrani xalqından olan kişi
və qadın qullarını azad etməli, Yəhudi
soydaşını yanında qul kimi saxlamamalı idi.
10 Bir-birləri ilə belə əhd bağlayan bütün
başçılar və xalq buna qulaq asıb öz kişi və
qadın qullarını azad etdilər, bir daha heç kəsi
özlərinə qul etməyəcəklərinə söz verdilər,
qulaq asıb qullarını azad etdilər. 11 Amma
sonra fikirlərini dəyişib azad etdikləri kişi və
qadın qulları yenə özlərinə qul etdilər.
12 Bundan sonra Rəbdən Yeremyaya bu söz
nazil oldu: 13 «İsrail Allahı Rəbb belə deyir:
"Mən atalarınızı Misir torpağından – köləlik
diyarından çıxardığım gün onlarla əhd
bağlayıb dedim: 14 ‹Sizə satılıb altı il qulluq
edən İbrani soydaşlarınızı yeddinci il azad
edib sərbəst buraxın›. Ancaq atalarınız Məni
eşidib qulaq asmadı. 15 İndi isə siz tövbə edib
gözümdə doğru olanı etdiniz. Hamınız
soydaşlarınızın azadlığını e'lan etdiniz.
Mənim önümdə, Mənim adımla çağırılan
mə'bəddə bu barədə əhd bağladınız. 16 Amma
sonra fikrinizi dəyişib adıma hörmətsizlik
etdiniz. İstəklərinə görə azad etdiyiniz kişi və
qadın qullarınızı təzədən zorla qul etdiniz".
17 Buna görə də Rəbb belə deyir: "Qul olan
soydaşlarınızı – öz həmvətənlərinizi azad
etməyərək Mənə qulaq asmadınız. İndi Mən
də sizə azadlıq – qılınc, vəba və aclıqdan
məhv olmanız üçün azadlıq e'lan edəcəyəm.
Sizi yer üzünün bütün ölkələrinin qarşısında
dəhşətli hala salacağam. 18 Əhdimi pozan,
önümdə bağladığım əhdin şərtlərinə əməl
etməyən bu adamları iki yerə bölüb parçaları
arasından keçdikləri dana kimi edəcəyəm.
19 Dana parçalarının arasından keçmiş Yəhuda
və Yerusəlim başçılarını, saray ə'yanlarını,

---

***34:1*** *– 2Pad. 25:1-11; 2Saln. 36:17-21*

***34:14*** *– Çıx. 21:2; Qanun. 15:12*

kahinləri və bütün ölkə xalqını [20] öz düşmənlərinə – canlarını almaq istəyənlərə təslim edəcəyəm. Cəsədləri göydəki quşlara və yerdəki heyvanlara yem olacaq. [21] Yəhuda padşahı Sidqiyanı və onun başçılarını canlarını almaq istəyən düşmənlərinə – Babil padşahının üzərinizdən çəkilən ordusuna təslim edəcəyəm”. [22] Rəbb bəyan edir: “Mən əmr edib Babillilər bu şəhərə tərəf geri qaytaracağam. Onlar hücum edib şəhəri ələ keçirəcək, ona od vuracaq. Yəhuda şəhərlərini heç kəsin yaşamadığı bir viranəliyə çevirəcəyəm”».

### *Rekavlıların nümunəsi*

35 [1] Yəhuda padşahı Yoşiya oğlu Yehoyaqimin dövründə Rəbdən Yeremyaya bu söz nazil oldu: [2] «Rekavlıların evinə gedib onlarla danış. Onları Rəbbin mə’bədinin otaqlarından birinə aparıb içməyə şərab ver». [3] Bunun üçün Xavassinya oğlu Yeremya oğlu Yaazanyanı, onun qardaşlarını, bütün övladlarını və Rekav ailəsinin o biri üzvlərini yanıma alıb [4] Allah adamı İqdalya oğlu Xananın oğullarının Rəbbin mə’bədindəki otağına apardım. Bu otaq qapı gözətçisi Şallum oğlu Maaseyanın otağı üzərindəki başçılar otağının yanında idi. [5] Mən Rekav ailəsinin üzvlərinin qabağına şərab dolu camlar və kasalar qoyaraq «buyurun, şərab için» dedim. [6] Lakin onlar dedi: «Biz şərab içmirik. Çünki atamız Rekav oğlu Yehonadav bizə belə əmr etdi: “Siz və nəsliniz heç vaxt şərab içməyin! [7] Özünüz üçün ev tikməyin, toxum əkməyin, bağ salmayın. Bu şeyləri almayın, etməyin, ömrünüz boyu çadırlarda yaşayın. Belə etsəniz, köç etdiyiniz torpaqlarda uzun müddət yaşayarsınız”. [8] Atamız Rekav oğlu Yehonadavın bizə əmr etdiyi hər şeyə qulaq asdıq. Nə biz, nə arvadlarımız, nə də oğul-qızlarımız heç vaxt şərab içmədik. [9] İçində yaşamaq üçün evlər tikmədik, bağlar, tarlalar və əkinlər salmadıq. [10] Çadırlarda yaşadıq. Atamız Yehonadav nə əmr etdisə, hamısına qulaq asıb əməl etdik. [11] Amma Babil padşahı Navuxodonosor bu ölkəyə hücum edən zaman “gəlin Xaldey və Aram ordusundan qaçmaq üçün Yerusəlimə gedək” dedik. Buna görə də Yerusəlimdə qalırıq».

---

*35:1* – *2Pad. 23:36-24:6; 2Saln. 36:5-7*

[12] Bundan sonra Yeremyaya Rəbbin bu sözü nazil oldu: [13] «İsrailin Allahı olan Ordular Rəbbi deyir ki, get Yəhuda adamlarına və Yerusəlimdə yaşayanlara bunları söylə: “Siz heç bir dərs almayacaq, sözlərimə qulaq asmayacaqsınız?” Rəbb belə bəyan edir. [14] “Rekav oğlu Yehonadav öz nəslinə şərab içməmələrini əmr etdi, nəsli də onun əmrinə əməl etdi və bu günə qədər də şərab içmirlər. Çünki atalarının əmrinə qulaq asdılar. Mən isə sizinlə dəfələrlə danışdığım halda Mənə qulaq asmadınız. [15] Öz qullarım olan peyğəmbərləri dəfələrlə sizin yanınıza göndərdim. Onlar sizə dedi: ‹İndi hər biriniz öz pis yolunuzdan dönün, əməllərinizi islah edin, başqa allahların tərəfdarı olaraq onlara qulluq etməyin. Onda sizə və atalarınıza verdiyim ölkədə yaşayacaqsınız›. Amma Məni eşitməyib qulaq asmadınız. [16] Rekav oğlu Yehonadavın övladları atalarının əmr etdiyinə əməl etdi, amma bu xalq Mənə qulaq asmadı”. [17] Buna görə də İsrailin Allahı olan Ordular Allahı Rəbb belə deyir: “Mən söylədiyim bütün fəlakətləri Yəhuda və Yerusəlimdə yaşayan hər kəsin başına gətirəcəyəm. Çünki onlara xəbərdarlıq etdim, qulaq asmadılar, onları çağırdım, cavab vermədilər”».

[18] Yeremya Rekav nəslinə dedi: «İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: “Siz atanız Yehonadavın əmrinə qulaq asdınız, onun bütün əmrlərinə əməl etdiniz, sizə əmr etdiyi hər şeyi yerinə yetirdiniz”. [19] Buna görə də İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: “Rekav oğlu Yehonadavın nəslindən Mənə xidmət edən bir adam heç vaxt əskik olmayacaq”».

### *Yehoyaqimin Yeremyanın tumarını yandırması*

36 [1] Yəhuda padşahı Yoşiya oğlu Yehoyaqimin padşahlığının dördüncü ilində Rəbdən Yeremyaya bu söz nazil oldu: [2] «Bir tumar götür, Yoşiyanın dövründə səninlə ilk dəfə danışdığım gündən indiyə qədər İsrail, Yəhuda və başqa millətlər haqqında sənə söylədiyim bütün sözləri oraya yaz. [3] Bəlkə Yəhuda xalqı başına gətirməyi niyyət etdiyim bütün fəlakətlər barəsində xəbər alanda öz pis yolundan dönər, Mən də

---

*36:1* – *2Pad. 24:1; 2Saln. 36:5-7; Yer. 45:1; Dan. 1:1-2*

onların təqsirlərini və günahlarını
bağışlayaram». 4 O zaman Yeremya Neriya
oğlu Baruku çağırdı. Baruk da Rəbbin
Yeremyaya söylədiyi bütün sözləri onun
dilindən eşidib tumara yazdı. 5 Yeremya
Baruka əmr edib dedi: «Mən məhbusam,
Rəbbin mə'bədinə gedə bilmərəm. 6 Sən oruc
günü Rəbbin mə'bədinə get. Oradakı xalqa
mənim dilimdən eşidib tumara yazdığın
Rəbbin sözlərini oxu. Yəhuda şəhərlərindən
gələn bütün xalqa bunu oxu. 7 Bəlkə onda
Rəbbə yalvarışla müraciət edib öz pis
yollarından dönərlər. Çünki Rəbbin bu xalq
barədə ifadə etdiyi qəzəb və hiddət böyükdür».
8 Neriya oğlu Baruk Yeremya peyğəmbərin
əmr etdiyi hər şeyə əməl etdi, tumarda
yazılmış Rəbbin sözlərini Onun mə'bədində
oxudu.

9 Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının beşinci ilinin
doqquzuncu ayında Yerusəlimdə yaşayan və
Yəhuda şəhərlərindən Yerusəlimə gələn bütün
xalq Rəbbin önündə oruc e'lan etdi. 10 Mirzə
Şafan oğlu Gemaryanın yuxarı həyətdə,
mə'bədin Yeni darvazasının girişindəki
otağında Baruk tumardan Yeremyanın
sözlərini Rəbbin mə'bədinə yığışmış bütün
xalqa oxudu.

11 Şafan oğlu Gemarya oğlu Mikeya
tumardan oxunan Rəbbin sözlərini eşidən
kimi 12 aşağı enib saraydakı mirzə otağına
getdi. Bütün başçılar orada toplaşmışdı: mirzə
Elişama, Şemaya oğlu Delaya, Akbor oğlu
Elnatan, Şafan oğlu Gemarya, Xananya oğlu
Sidqiya və başqaları. 13 Mikeya Barukun xalqa
oxuduğu tumardan hər şeyi onlara danışdı.

14 Bundan sonra bütün başçılar Kuşi oğlu
Şelemya oğlu Netanya oğlu Yehudini
Barukun yanına göndərdi. Yehudi Baruka
«xalqa oxuduğun tumarı götür gəl» dedi.
Neriya oğlu Baruk əlində tumar onların
yanına getdi. 15 Başçılar ona dedi: «Buyur
əyləş, bunu bizə də oxu». Baruk da tumarı
onlara oxudu. 16 Onlar bütün bu sözləri
eşidəndə qorxu içində bir-birlərinə baxıb
Baruka dedilər: «Bütün bu sözləri mütləq
padşaha bildirməliyik». 17 Sonra Barukdan
soruşdular: «İndi bizə söylə, bütün bu sözləri
necə yazdın? Yeremya diktə etdimi?» 18 Baruk
onlara dedi: «Bütün bu sözləri Yeremya mənə
diktə etdi, mən də mürəkkəblə tumara
yazdım». 19 Başçılar Baruka dedi: «Sən də,
Yeremya da gedin gizlənin. Harada
olduğunuzu heç kəs bilməsin».

20 Sonra onlar tumarı mirzə Elişamanın
otağında qoyub həyətdə olan padşahın yanına
getdi. Eşitdikləri hər şeyi ona danışdılar.
21 Padşah tumarı götürüb gətirməsi üçün
Yehudini göndərdi. Yehudi tumarı mirzə
Elişamanın otağından götürüb gətirdi. Onu
padşaha və padşahın yanında duran bütün
başçılara oxudu. 22 Bu zaman doqquzuncu ay
idi və padşah qış sarayında yaşayırdı. Onun
önündə odlu manqal yanırdı. 23 Yehudi
tumardan hələ üç-dörd sütun oxumuşdu ki,
padşah mirzə bıçağı ilə onları kəsib
manqaldakı oda atdı. Bunu o vaxta qədər etdi
ki, bütün tumar manqalda yanıb-qurtardı.
24 Tumardakı bütün sözləri eşidən padşah və
onun ə'yanları nə qorxuya düşdülər, nə də
paltarlarını cırdılar. 25 Elnatan, Delaya və
Gemarya tumarı yandırmaması üçün yalvarsa
da, padşah onlara qulaq asmadı. 26 Əksinə, o,
şahzadə Yeraxmeelə, Azriel oğlu Serayaya və
Avdeel oğlu Şelemyaya əmr etdi ki, mirzə
Baruku və Yeremya peyğəmbəri tutsunlar.
Ancaq Rəbb onları gizlətmişdi.

27 Barukun Yeremyanın dilindən eşidib
yazdığı tumarı padşah yandırandan sonra
Rəbdən Yeremyaya bu söz nazil oldu:
28 «Başqa bir tumar götür, bütün əvvəlki
sözləri – Yəhuda padşahı Yehoyaqimin
yandırdığı ilk tumarda olanları oraya yaz.
29 Yəhuda padşahı Yehoyaqim üçün də söylə
ki, Rəbb belə deyir: "Sən bu tumarı yandırıb
söylədin ki, nə üçün Babil padşahının mütləq
gəlib bu ölkəni xarabalığa çevirəcəyini,
oradakı insanları da, heyvanları da məhv
edəcəyini bu tumara yazdın?" 30 Buna görə də
Yəhuda padşahı Yehoyaqim barədə Rəbb belə
deyir: "Onun nəslindən heç kəs Davudun
taxtında oturmayacaq. Cəsədi gündüzün
istisinə, gecənin ayazına atılacaq. 31 Özünü,
nəslini və ə'yanlarını günahlarından ötrü
cəzalandıracağam. Haqqında danışdığım
bütün fəlakətləri onların, Yerusəlimdə
yaşayanların və Yəhuda adamlarının başına
gətirəcəyəm, çünki qulaq asmadılar"».

32 Yeremya başqa bir tumar götürüb mirzə
Neriya oğlu Baruka verdi. Yəhuda padşahı
Yehoyaqimin oda atıb yandırdığı tumardakı
bütün sözləri Baruk Yeremyanın diktəsi ilə
tumara yazdı. O sözlərə bənzər bir çox söz də
oraya əlavə olundu.

### *Yeremya həbsxanada*

37 [1] Babil padşahı Navuxodonosorun
Yəhudaya tə'yin etdiyi Yoşiya oğlu
Sidqiya, Yehoyaqim oğlu Yehoyakinin yerinə
padşah oldu. [2] Ancaq Yeremya peyğəmbər
vasitəsilə Rəbbin söylədiyi sözlərə nə padşah
Sidqiya, nə onun ə'yanları, nə də ölkə xalqı
qulaq asdı.
[3] Padşah Sidqiya Şelemya oğlu Yehukalı və
Maaseya oğlu kahin Sefanyanı Yeremya
peyğəmbərin yanına göndərdi ki, ona desinlər:
«Bizim üçün Allahımız Rəbbə dua et». [4] O
vaxt Yeremya xalqın arasında açıq gedib-
gəlirdi, çünki onu hələ zindana atmamışdılar.
[5] Bu zaman fir'onun qoşunları Misirdən
çıxmışdı. Yerusəlimi mühasirəyə alan
Xaldeylilər bu barədə xəbər eşidən kimi
Yerusəlimdən çəkildi.
[6] O vaxt Yeremya peyğəmbərə Rəbbin bu
sözü nazil oldu: [7] «İsrailin Allahı Rəbb belə
deyir: "Məndən soruşmaq üçün sizi yanıma
göndərən Yəhuda padşahına söyləyin ki, sizə
kömək etməyə çıxan fir'onun ordusu öz
ölkəsinə – Misirə qayıdacaq. [8] Xaldeylilər
yenə gəlib bu şəhərə hücum edəcək və onu ələ
keçirib yandıracaq". [9] Rəbb belə deyir:
"Xaldeylilər mütləq geri çəkiləcək" deyib
özünüzü aldatmayın, çünki onlar geri
çəkilməyəcək. [10] Əgər sizə hücum edən bütün
Xaldey ordusunu məğlub etsəniz və onların
arasında yalnız yaralı adamlar qalsa belə,
yenə hər biri öz çadırından qalxıb bu şəhəri
yandıracaq».
[11] Fir'on ordusunun üzündən Xaldey ordusu
Yerusəlimdən çəkilən zaman [12] Yeremya
Binyamin torpağına getmək üçün
Yerusəlimdən yola düşdü. Oradakı xalq
arasında öz irs payını almaq istəyirdi.
[13] Binyamin darvazasına çatanda keşikçilərin
başçısı Xananya oğlu Şelemya oğlu İriyanı
orada gördü. İriya «sən Xaldeylilərin tərəfinə
keçirsən» deyərək onu tutdu. [14] Yeremya
«yalandır, mən Xaldeylilərin tərəfinə
keçmirəm» dedi. Ancaq İriya Yeremyaya
qulaq asmadı və onu tutub başçıların yanına
gətirdi. [15] Başçılar Yeremyaya qəzəblənib onu
döydülər. Sonra onu mirzə Yonatanın evinə –
həbsxanaya saldılar, çünki o evi həbsxana
etmişdilər. [16] Yeremya çəni olan zirzəmidə
zindana salındı, uzun müddət orada qaldı.
[17] O zaman padşah Sidqiya adam göndərib
onu gətirtdi. Padşah öz sarayında gizlicə
ondan soruşdu: «Rəbdən bir söz varmı?»
Yeremya «var» deyə cavab verdi, «Babil
padşahına təslim ediləcəksən». [18] Sonra
Yeremya padşah Sidqiyaya dedi: «Sənə,
ə'yanlarına və bu xalqa qarşı nə günah etdim
ki, məni həbsxanaya saldınız? [19] "Babil
padşahı sizə və bu ölkəyə hücum etməyəcək"
deyə sizin üçün peyğəmbərlik edən
peyğəmbərləriniz indi haradadır? [20] Ey ağam
padşah, indi xahiş edirəm, qulaq as. Xahiş
edirəm, bu yalvarışımı qəbul et və məni mirzə
Yonatanın evinə qaytarma, qoy orada
ölməyim». [21] Padşah Sidqiya əmr etdi və
Yeremyanı keşikçilər həyətində saxladılar.
Şəhərdə çörək ehtiyatı qurtarana qədər hər
gün ona çörək bişirənlər küçəsindən gətirib
bir parça çörək verirdilər. Beləcə Yeremya
keşikçilər həyətində qaldı.

### *Yeremyanın quyuya atılması*

38 [1] Mattan oğlu Şefatya, Paşxur oğlu
Gedalya, Şelemya oğlu Yehukal və
Malkiya oğlu Paşxur Yeremyanın bütün xalqa
dediyi bu sözləri eşitdi: [2] «Rəbb belə deyir:
"Bu şəhərdə qalan adam qılıncdan, aclıqdan
və vəbadan öləcək. Ancaq Xaldeylilərə təslim
olan yaşayacaq, heç olmasa öz canını qurtarıb
sağ qalacaq". [3] Rəbb belə deyir: "Bu şəhər
hökmən Babil padşahının ordusuna təslim
ediləcək və o bu şəhəri tutacaq"». [4] Başçılar
padşaha dedi: «Qoy bu adam öldürülsün.
Çünki belə sözlər deyib bu şəhərdə salamat
qalan döyüşçüləri və bütün xalqı ruhdan salır.
Yəqin bu adam xalqa yaxşılıq deyil, pislik
arzulayır». [5] Padşah Sidqiya dedi: «Onu sizin
əlinizə verirəm, çünki padşah sizin əleyhinizə
bir iş görə bilməz». [6] O zaman onlar
Yeremyanı götürüb padşahın oğlu Malkiyanın
keşikçilər həyətində olan quyusuna atdı.
Yeremyanı kəndirlə oraya saldılar. Quyuda su
yox idi, yalnız çirkab var idi. Yeremya
çirkaba batdı.
[7] Padşah sarayında olan hərəmağası Kuşlu
Eved-Melek Yeremyanın quyuya atıldığını
eşitdi. Bu zaman padşah Binyamin
darvazasında oturmuşdu. [8] Eved-Melek
padşah sarayından gəlib padşaha belə söylədi:
[9] «Ağam padşah, bu adamlar Yeremya
peyğəmbəri quyuya ataraq onunla pis rəftar
etdi. O orada acından öləcək, çünki daha
şəhərdə çörək qalmadı». [10] Padşah Kuşlu

---

*37:1 – 2Pad. 24:17; 2Saln. 36:10*

Eved-Melekə əmr edib dedi: «Özünlə otuz
nəfər götür, nə qədər ki ölməyib, Yeremya
peyğəmbəri quyudan çıxart». 11 Eved-Melek
adamları özü ilə götürüb saray xəzinəsinin
altında olan bir otağa girdi və oradan yırtıq
paltarlar, cırıq əskilər götürdü. Sonra onları
iplərlə quyuya Yeremyaya salladılar. 12 Kuşlu
Eved-Melek Yeremyaya dedi: «Yırtıq
paltarları və əskiləri iplərin üstündən
qoltuqlarının altına qoy». Yeremya belə də
etdi. 13 Yeremyanı iplərlə çəkib quyudan
çıxartdılar. Yeremya keşikçilər həyətində
qaldı.

### *Sidqiyanın yenə Yeremyaya sual verməsi*

14 Padşah Sidqiya adam göndərib Yeremya
peyğəmbəri öz yanına – Rəbbin mə'bədinin
üçüncü girişinə gətirdi. Padşah Yeremyaya
dedi: «Səndən bir şey soruşacağam, məndən
heç nə gizlətmə». 15 Yeremya Sidqiyaya dedi:
«Sənə bildirsəm, məni öldürəcəksən. Sənə
nəsihət versəm də, mənə qulaq
asmayacaqsan». 16 Padşah Sidqiya Yeremyaya
gizlicə and içib dedi: «Bizə nəfəs verən, var
olan Allaha and olsun ki, səni
öldürməyəcəyəm və canını almaq istəyən
adamlara təslim etməyəcəyəm».

17 Yeremya Sidqiyaya dedi: «İsrailin Allahı
olan Ordular Allahı Rəbb belə deyir: "Əgər
sən Babil padşahının başçılarına təslim olsan,
canın qurtaracaq və bu şəhər də odda
yanmayacaq, ailənlə birgə sağ qalacaqsan.
18 Ancaq Babil padşahının başçılarına təslim
olmasan, bu şəhər Xaldeylilərə təslim
ediləcək və onu yandıracaqlar. Sən də onların
əlindən qaçıb qurtara bilməyəcəksən"».
19 Padşah Sidqiya Yeremyaya dedi:
«Xaldeylilərin tərəfinə keçən Yəhudilərdən
qorxuram. Xaldeylilər məni onların əlinə verə
bilər, onlar da mənimlə pis rəftar edər».
20 Yeremya dedi: «Verməzlər. Xahiş edirəm,
sənə söyləyəcəyimə əməl edərək Rəbbin
sözünə qulaq as. Onda xeyir taparsan, canın
da amanda qalar. 21 Ancaq sən təslim olmaq
istəmədiyin halda Rəbb mənə bunu göstərir:
22 Yəhuda padşahının sarayında qalan bütün
qadınlar Babil padşahına təslim ediləcək.
Onda o qadınlar deyəcək:

"Güvəndiyin adamlar səni aldadıb
Məğlubiyyətə düçar etdi.
Ayaqların palçığa batanda
Onlar səni qoyub qaçdı".

23 Sənin bütün arvadların və oğulların
Xaldeylilərə təslim ediləcək. Özün də onların
əlindən qaçıb qurtara bilməyəcəksən, Babil
padşahı səni ələ keçirəcək. Bu şəhər də
yandırılacaq».

24 Sidqiya Yeremyaya dedi: «Bu söhbəti
heç kəs bilməməlidir, yoxsa ölə bilərsən.
25 Əgər səninlə danışdığımı başçılar eşitsə,
yanına gəlib "padşaha nə söylədin və padşah
sənə nə dedi, bizə bildir, bizdən gizlətmə,
yoxsa səni öldürərik" desə, 26 onlara "padşaha
yalvardım ki, məni Yonatanın evinə
qaytarmasın və orada ölməyim" söylə».

27 Bütün başçılar Yeremyanın yanına gəlib
ondan söz soruşdu. O da padşahın əmr etdiyi
kimi bütün bu sözləri onlara söylədi. Daha
ona bir söz demədilər, çünki bu söhbəti heç
kəs eşitməmişdi. 28 Yerusəlim alındığı zaman
Yeremya orada idi və keşikçilər həyətində
qalırdı.

### *Yerusəlimin süqutu*

*(2Pad. 25:1-12; Yer. 52:4-16)*

39 1 Yəhuda padşahı Sidqiyanın
padşahlığının doqquzuncu ilinin
onuncu ayında Babil padşahı Navuxodonosor
bütün ordusu ilə Yerusəlimin qarşısına gəlib
şəhəri mühasirəyə aldı. 2 Sidqiyanın
padşahlığının on birinci ilində, dördüncü ayın
doqquzuncu günü şəhər divarında dəlik açıldı.
3 Babil padşahının bütün başçıları – Nerqal-
Sareser, Samqar-Nevo, baş mə'mur Sarsekim,
baş münəccim Nerqal-Sareser və bütün başqa
ə'yanlar içəri girib Orta darvazada oturdu.

4 Yəhuda padşahı Sidqiya və bütün
döyüşçülər onları görəndə gecə vaxtı şəhərdən,
padşah bağçası yolundan, iki divar arasındakı
qapıdan çıxıb qaçdılar və Aravaya üz tutdular.
5 Xaldey ordusu onları tə'qib edib Yerixo
düzənliyində Sidqiyaya çatdı. Sidqiyanı tutub
Xamat torpağındakı Rivlaya, Babil padşahı
Navuxodonosorun yanına gətirdilər. O,
Sidqiya barədə hökm verdi. 6 Babil padşahı
Rivlada Sidqiyanın gözü önündə onun
oğlanlarını öldürtdü. Babil padşahı bütün
Yəhuda ə'yanlarını da öldürtdü. 7 Sidqiyanın
isə gözlərini kor etdi və onu Babilə aparmaq
üçün zəncirlədi. 8 Xaldeylilər padşah sarayını
və xalqın evlərini yandırdılar, Yerusəlimin
divarlarını uçurtdular. 9 Keşikçilər rəisi
Nevuzaradan şəhərdə sağ qalan xalqı, onun

---

***38:28*** *– Yez. 33:21*

tərəfinə keçənləri – sağ qalan bütün əhalini
Babilə sürgün etdi. 10 Keşikçilər rəisi
Nevuzaradan xalqdan heç bir şeyi olmayan
bə’zi yoxsulları Yəhuda torpağında saxladı,
həmin gün onlara üzümlüklər və zəmilər verdi.

### *Yeremyanın azad olunması*

11 Babil padşahı Navuxodonosor Yeremya
barədə keşikçilər rəisi Nevuzaradana əmr edib
dedi: 12 «Onu aparıb yaxşı bax, pis rəftar etmə.
Özü sənə nə desə, onu elə». 13 Keşikçilər rəisi
Nevuzaradan, baş mə’mur Nevuşazban, baş
münəccim Nerqal-Sareser və Babil
padşahının başqa ə’yanları adam göndərib
14 Yeremyanı keşikçilər həyətindən gətirdilər
və evinə aparmaq üçün Şafan oğlu Axiqam
oğlu Gedalyaya tapşırdılar. O da xalqın
arasında yaşamağa başladı.

15 Keşikçilər həyətində məhbus ikən
Yeremyaya Rəbbin bu sözü nazil olmuşdu:
16 «Get Kuşlu Eved-Melekə söylə ki, İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir: “Bu
şəhərin üzərinə yaxşılıq deyil, pislik gətirərək
dediyim sözləri yerinə yetirəcəyəm. O gün
bunlar sənin gözlərin önündə baş verəcək.
17 Ancaq o gün səni xilas edəcəyəm” Rəbb
belə bəyan edir. “Qorxduğun adamlara təslim
edilməyəcəksən. 18 Bəli, Mən səni xilas
edəcəyəm, sən qılıncla həlak olmayacaqsan.
Heç olmasa öz canını qurtaracaqsan, çünki
sən Mənə güvəndin” Rəbb belə bəyan edir».

### *Yeremya Gedalyanın yanında*

40 1 Keşikçilər rəisi Nevuzaradan
Yeremyanı Ramada qoyub getdikdən
sonra Rəbbin sözü Yeremyaya nazil oldu.
Nevuzaradan onu Babilə sürgün olunan bütün
Yerusəlim və Yəhuda xalqı ilə birgə
zəncirlənmiş halda Ramaya aparmışdı.
2 Keşikçilər rəisi Yeremyanı tapıb ona dedi:
«Bu yerin başına Allahın Rəbb bu bəlanı
gətirəcəyini söylədi, 3 sonra da onu yerinə
yetirib dediyi kimi etdi. Çünki Rəbbə qarşı
günah etdiniz, sözünə qulaq asmadınız, buna
görə də başınıza bu iş gəldi. 4 İndi səni əlinə
vurulan zəncirlərdən azad edirəm. Əgər
mənimlə birgə Babilə getmək istəyirsənsə, gəl
gedək, sənin qayğına qalaram. Ancaq
mənimlə birgə Babilə getmək istəmirsənsə,
getmə. Bax bütün ölkə sənin qarşındadır, hara
getmək sənin üçün yaxşı və düzgündürsə, ora
da get».
5 Yeremya hələ qayıtmamış Nevuzaradan
dedi: «Babil padşahının Yəhuda şəhərləri
üzərinə qoyduğu Şafan oğlu Axiqam oğlu
Gedalyanın yanına qayıt və onunla birgə xalq
arasında yaşa. Yaxud da hara getmək
istəyirsən, ora get». Keşikçilər rəisi ona azuqə
və hədiyyə verib buraxdı. 6 Yeremya Mispaya
Axiqam oğlu Gedalyanın yanına getdi və
onunla birgə ölkədə qalan xalq arasında
yaşadı.

### *Gedalyanın öldürülməsi*

*(2Pad. 25:22-26)*

7 Çöldə olan bütün qoşun başçıları və
onların adamları eşitdi ki, Babil padşahı,
Axiqam oğlu Gedalyanı ölkəyə başçı qoymuş
və ölkənin yoxsul əhalisindən Babilə sürgün
olunmamış kişiləri, qadınları və uşaqları onun
ixtiyarına vermişdir. 8 Bu adamlar Mispaya,
Gedalyanın yanına gəldi: Netanya oğlu İsmail,
Qareahın oğulları Yoxanan və Yonatan,
Tanxumet oğlu Seraya, Netofalı Efayın
oğulları, Maakalının oğlu Yezanya və onların
adamları. 9 Şafan oğlu Axiqam oğlu Gedalya
onlara və öz adamlarına and içib dedi:
«Xaldeylilərə qulluq etməkdən qorxmayın.
Ölkədə qalıb Babil padşahına qulluq edin,
sizin üçün yaxşı olar. 10 Mənə gəlincə, bizim
yanımıza gələcək Xaldeylilərin qabağında sizi
təmsil etmək üçün Mispada qalacağam.
Ancaq siz şərab, yay meyvələri və zeytun
yağı yığıb qablarınıza doldurun və aldığınız
şəhərlərdə yaşayın».

11 Moavda, Ammonlular arasında, Edomda
və başqa ölkələrdə olan bütün Yəhudilər
Babil padşahının Yəhudada müəyyən sayda
əhali saxladığını və Şafan oğlu Axiqam oğlu
Gedalyanı onlara başçı qoyduğunu eşitdi.
12 Yəhudilərin hamısı sürgün olunduqları
bütün yerlərdən qayıtdı. Yəhuda torpağına,
Mispada olan Gedalyanın yanına gəldilər,
çoxlu şərab və yay meyvələri topladılar.

13 Qareah oğlu Yoxanan və çöllərdə olan
bütün qoşun başçıları Mispada olan
Gedalyanın yanına gəlib 14 ona dedi:
«Ammonluların padşahı Baalisin sənin canını
almaq üçün Netanya oğlu İsmaili
göndərdiyini bilirsənmi?» Ancaq Axiqam
oğlu Gedalya onlara inanmadı. 15 Qareah oğlu
Yoxanan Mispada Gedalyaya gizlicə söylədi:
«Burax gedim, Netanya oğlu İsmaili öldürüm,
heç kəs bilməyəcək. Nə üçün o səni öldürsün
və ətrafına yığılmış bütün Yəhudilər dağılsın,

Yəhudadan sağ qalanlar da məhv olsun?»
16 Ancaq Axiqam oğlu Gedalya Qareah oğlu
Yoxanana dedi: «Bu işi etmə, çünki İsmail
barəsində yalan danışırsan».

41 1 Elə oldu ki, yeddinci ayda padşah
nəslindən və ə’yanlarından olan
Elişama oğlu Netanya oğlu İsmail on nəfərlə
birgə Mispaya, Axiqam oğlu Gedalyanın
yanına gəldi. Orada birlikdə yemək yeyərkən
2 Netanya oğlu İsmail və onunla birgə olan on
nəfər qalxıb Babil padşahının ölkəyə başçı
qoyduğu Şafan oğlu Axiqam oğlu Gedalyanı
qılıncla vurub-öldürdülər. 3 İsmail Mispada
Gedalya ilə birgə olan bütün Yəhudiləri və
oradakı Xaldey döyüşçülərini də öldürdü.
4 Gedalyanın öldürülməsindən bir gün sonra,
hələ heç kəs olanları bilməyərkən 5 Şekemdən,
Şilodan və Samariyadan saqqalları qırxılmış,
paltarları cırıq, bədənlərinə yara vurmuş,
Rəbbin mə’bədinə gətirmək üçün əllərində
taxıl təqdimi və buxur olan səksən nəfər adam
gəldi. 6 Onları qarşılamaq üçün Mispadan
Netanya oğlu İsmail gəldi. O ağlaya-ağlaya
adamların qabağına çıxıb onlara dedi:
«Axiqam oğlu Gedalyanın yanına gəlin».
7 Adamlar şəhərə girəndə Netanya oğlu İsmail
və yanında olan adamlar onları öldürüb
cəsədlərini quyuya atdılar. 8 Ancaq onlar
arasında olan on nəfər İsmailə dedi: «Bizi
öldürmə, çünki bizim tarlada saxlanan buğda,
arpa, zeytun yağı və balımız var». İsmail də
fikrindən dönüb onları yoldaşları ilə birgə
öldürmədi. 9 İsmailin öldürdüyü Gedalya ilə
adamlarının cəsədlərini atdığı quyunu padşah
Asa İsrail padşahı Baaşaya qarşı müdafiə
tədbiri olaraq qazmışdı. Netanya oğlu İsmail
onu öldürülənlərlə doldurdu. 10 Sonra İsmail
keşikçilər rəisi Nevuzaradanın Axiqam oğlu
Gedalyanın ixtiyarına verdiyi Mispadakı
bütün xalqı və padşah qızlarını əsir tutdu.
Netanya oğlu İsmail Mispada qalan bütün
xalqı əsir götürüb Ammonlulara sığınmaq
üçün yola düşdü.

### *Yoxananın xalqı xilas etməsi*

11 Qareah oğlu Yoxanan və onunla birgə
olan bütün qoşun başçıları Netanya oğlu
İsmailin etdiyi bütün pisliklər barədə eşitdi.
12 Onda bütün adamlarını götürüb Netanya
oğlu İsmaillə vuruşmağa getdilər. Onu
Giveonda olan böyük hovuzun yanında
tapdılar. 13 İsmailin yanında olan bütün xalq
Qareah oğlu Yoxananı və onunla olan bütün
qoşun başçılarını görəndə sevindi. 14 İsmailin
Mispadan sürgün etdiyi bütün xalq dönüb geri
qayıtdı və Qareah oğlu Yoxananın yanına
getdi. 15 Ancaq Netanya oğlu İsmail səkkiz
nəfərlə birgə Yoxanandan qaçıb-qurtuldu və
Ammonluların yanına getdi.
16 Qareah oğlu Yoxanan və yanındakı bütün
qoşun başçıları sağ qalanların hamısını –
Axiqam oğlu Gedalyanı öldürən Netanya oğlu
İsmailin Mispadan əsir apardığı döyüşçüləri,
qadınları, uşaqları və hərəmağalarını
Giveondan götürüb gətirdilər.
17 Xaldeylilərdən qaçmaq üçün Misirə tərəf
yola düşdülər və Bet-Lexem yaxınlığındakı
Gerut-Kimhamda qaldılar. 18 Çünki Netanya
oğlu İsmail Babil padşahının ölkəyə başçı
qoyduğu Axiqam oğlu Gedalyanı öldürdüyü
üçün Xaldeylilərdən qorxurdular.

### *Yeremyanın duasına Rəbbin cavabı*

42 1 Bütün qoşun başçıları, Qareah
oğlu Yoxanan, Hoşaya oğlu
Yezanya[13] və böyükdən kiçiyə qədər bütün
xalq yaxınlaşıb 2 Yeremya peyğəmbərə dedi:
«Xahiş edirik, yalvarışımız sənə məqbul olsun,
bizim üçün – bu qalan xalq üçün Allahın
Rəbbə dua et, çünki necə ki görürsən, o boyda
xalqdan azalıb bu qədər qalmışıq. 3 Qoy hara
gedəcəyimizi, nə edəcəyimizi Allahın Rəbb
bizə bildirsin». 4 Yeremya peyğəmbər onlara
dedi: «Razıyam. İstədiyiniz kimi Allahınız
Rəbbə dua edəcəyəm və barənizdə Rəbb nə
cavab versə, sizə bildirəcəyəm. Sizdən heç
nəyi gizli saxlamayacağam». 5 Onlar
Yeremyaya dedi: «Allahın Rəbbin bizə
bildirmək üçün sənə nazil etdiyi hər sözə əməl
etməsək, qoy Rəbb Özü əleyhimizə həqiqi və
e’tibarlı şahid olsun. 6 Səni yanına
göndərdiyimiz Allahımız Rəbbin sözünü
bəyənsək də, bəyənməsək də, ona qulaq
asacağıq ki, işimiz yaxşı getsin. Bəli,
Allahımız Rəbbin sözünə qulaq asacağıq».
7 On gün sonra Rəbbin sözü Yeremyaya
nazil oldu. 8 Qareah oğlu Yoxananı, onunla
birgə olan bütün qoşun başçılarını, böyükdən
kiçiyə qədər bütün xalqı çağırıb 9 onlara dedi:
«Yalvarışınızı önünə təqdim etmək üçün məni
yanına göndərdiyiniz İsrailin Allahı Rəbb belə
deyir: 10 “Əgər bu ölkədə qalsanız, Mən sizi

***41:1-3*** *– 2Pad. 25:25*

[13] **42:1** *Yezanya* – yaxud *Azarya.* Bax: Yer. 43:2.

dirçəldərəm, daha dağıtmaram, sizi əkərəm,
daha çıxarmaram. Çünki başınıza gətirdiyim
bütün bəlalara görə təəssüflənirəm. [11] Babil
padşahından qorxmayın. Siz ondan
qorxursunuz, ancaq qorxmayın" Rəbb belə
bəyan edir. "Çünki Mən sizinləyəm və sizi
azad edib onun əlindən qurtaracağam. [12] Mən
sizə mərhəmət göstərəcəyəm ki, o da rəhm
edib sizi öz torpağınıza qaytarsın". [13] Ancaq
siz "bu torpaqda yaşamayacağıq" deyərək
Allahınız Rəbbin sözünə qulaq asmasanız,
[14] "yox, biz Misir torpağına gedəcəyik, orada
müharibə görməyəcəyik, şeypur səsi
eşitməyəcəyik, aclıq çəkməyəcəyik və orada
qalacağıq" desəniz, [15] onda, ey qalan
Yəhudalılar, Rəbbin sözünü eşidin. İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir: "Əgər
siz, doğrudan da, Misirə gedib orada sakin
olmağı qərara alsanız, [16] o zaman
qorxduğunuz həmin qılınc Misir torpağında
sizə yetişəcək. Qorxduğunuz aclıq Misirdə
sizi tə'qib edəcək və orada öləcəksiniz.
[17] Misirə gedib sakin olmağı qərara alan hər
kəs qılınc, aclıq və vəbadan öləcək. Onlardan
heç kəs sağ qalmayacaq, başlarına gətirdiyim
bəladan qaçıb qurtarmayacaq".

[18] Çünki İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Yerusəlimdə yaşayanların üzərinə
necə qəzəbim və qızğınlığım töküldüsə, siz
Misirə getsəniz, eləcə qızğınlığım üzərinizə
töküləcək. Siz lə'nət, dəhşət, nifrin və
rüsvayçılıq hədəfi olacaqsınız. Bir daha bu
yeri görməyəcəksiniz". [19] Ey Yəhudanın qalan
camaatı, sizin üçün Rəbb "Misirə getməyin"
söylədi. Yaxşı bilin ki, bu gün sizə
xəbərdarlıq etdim. [20] Çünki siz fəlakət gətirən
bir səhv etdiniz. Məni Allahınız Rəbbin
yanına göndərib dediniz: "Allahımız Rəbbə
bizim üçün dua et, Allahımız Rəbbin deyəcəyi
hər şeyi bizə bildir, biz elə də edərik". [21] Mən
bu gün sizə xəbər verdim, ancaq siz məni
yanınıza göndərdiyi heç bir işdə Allahınız
Rəbbin sözünə qulaq asmadınız. [22] İndi yaxşı
bilin ki, gedib sakin olmaq istədiyiniz yerdə
qılınc, aclıq və vəbadan öləcəksiniz».

### *Yeremyanın Misirə aparılması*

43 [1] Yeremya bütün xalqa özlərinin
Allahı Rəbbin sözlərini, Onun
Yeremya vasitəsilə onlara nazil etdiyi hər şeyi
söyləməyi qurtaranda [2] Xoşaya oğlu Azarya,
Qareah oğlu Yoxanan və bütün dikbaş
adamlar Yeremyaya dedi: «Sən yalan
söyləyirsən. "Gedib Misirdə sakin olmayın"
demək üçün Allahımız Rəbb səni bizim
yanımıza göndərmədi. [3] Ancaq Neriya oğlu
Baruk səni bizə qarşı təhrik edir ki,
Xaldeylilər bizi öldürsün yaxud da Babilə
sürgün etsin». [4] Qareah oğlu Yoxanan, bütün
qoşun başçıları və xalq Rəbbin Yəhuda
torpağında qalmaq əmrinə qulaq asmadı.
[5] Əksinə, Qareah oğlu Yoxanan və bütün
qoşun başçıları sürgün olunduqları millətlərin
arasından Yəhuda torpağında sakin olmaq
üçün qayıdan Yəhudalıların qalanını –
[6] kişiləri, qadınları, uşaqları, padşahın
qızlarını, keşikçilər rəisi Nevuzaradanın Şafan
oğlu Axiqam oğlu Gedalyanın yanında
qoyduğu hər kəsi, Yeremya peyğəmbəri və
Neriya oğlu Baruku götürüb getdilər. [7] Onlar
Rəbbin sözünə qulaq asmayıb Misir torpağına
getdi və Taxpanxesə çatdı.

[8] Taxpanxesdə Yeremyaya Rəbbin bu sözü
nazil oldu: [9] «Əlinə böyük daşlar al və onları
Yəhuda kişilərinin gözü önündə Taxpanxesə
fir'on sarayına girilən yerdə olan kərpic
döşəmənin palçığında gizlət. [10] Sonra onlara
söylə ki, İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Bax Mən xəbər göndərib qulum
Babil padşahı Navuxodonosoru gətirdəcəyəm
və gizlətdiyim bu daşların üstündə onun
taxtını quracağam. Padşah öz çadırını onların
üstündə açacaq. [11] O gəlib Misir ölkəsini
məğlub edəcək. Ölüm üçün ayrılanlar ölümə,
sürgün üçün ayrılanlar sürgünə, qılınc üçün
ayrılanlar qılınca təslim ediləcək. [12] Misir
allahlarının mə'bədlərində od qalayacağam.
Babil padşahı onları yandıracaq, bütləri alıb
aparacaq. Bir çoban paltarını necə bitdən
təmizləyirsə, o da Misir ölkəsini eləcə
təmizləyəcək. Sonra oradan sağ-salamat
çıxacaq. [13] O, Misir torpağında Günəş
allahının mə'bədinin dik daşlarını dağıdacaq,
Misir allahlarının mə'bədlərini yandıracaq"».

### *Yeremyanın Misirdəki Yəhudalılara müraciəti*

44 [1] Misir ölkəsində, Miqdolda,
Taxpanxesdə, Nofda yaşayan və
Patros torpağında sakin olan bütün
Yəhudalılar barədə Yeremyaya bu söz nazil
oldu: [2] «İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Yerusəlim və bütün Yəhuda

---

***43:5-7*** *– 2Pad. 25:26*
***43:11*** *– Yer. 15:2; Vəhy 13:10*

şəhərləri üzərinə gətirdiyim bəlanın hamısını
gördünüz. 3 Etdikləri pislikdən ötrü o şəhərlər
bu gün viran olmuş və sakinsiz qalmışdır.
Onlar özlərinin, sizin və atalarının
tanımadıqları başqa allahlara buxur yandırıb
qulluq edərək Məni qəzəbləndirdi. 4 Mən
dəfələrlə qullarım olan peyğəmbərləri sizin
yanınıza göndərib ‹Mənim nifrət etdiyim
iyrənc işləri görməyin› dedim. 5 Ancaq onlar
eşitmədi, qulaq asmadı. Pisliklərindən
dönmədilər, başqa allahlara buxur yandırmağı
dayandırmadılar. 6 Buna görə də qızğınlığım
və qəzəbim daşıb-töküldü, Yəhuda
şəhərlərində, Yerusəlim küçələrində od qaladı.
Onlar bu gün olduğu kimi xaraba və viranə
oldular”.
7 İndi İsrailin Allahı olan Ordular Allahı
Rəbb belə deyir: “Kişinizi də, qadınınızı da,
uşağınızı da, südəmərinizi də Yəhuda içində
qırıb-çatacağam ki, sizdən heç kəs sağ
qalmasın. 8 Sakin olmaq üçün gəldiyiniz Misir
torpağında əlinizlə düzəltdiyiniz başqa
allahlara buxur yandırmaqla Məni
qəzəbləndirdiniz. Beləcə öz başınıza fəlakət
gətirirsiniz. Dünyanın bütün millətlərinin
qarşısında lə’nət və rüsvayçılıq hədəfinə
çevriləcəksiniz. 9 Yəhuda ölkəsində,
Yerusəlim küçələrində atalarınızın, Yəhuda
padşahlarının, onların arvadlarının, sizin və
arvadlarınızın etdikləri pislikləri
unutdunuzmu? 10 Bu günə qədər təvazökarlıq
etmədilər, qorxmadılar, qanunuma, sizə və
atalarınıza verdiyim qaydalara əməl
etmədilər”.
11 Buna görə də İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: “Bax Mən sizə pislik edib
bütün Yəhudalıları qırıb-çatmağı qərara aldım.
12 Misirə gəlib sakin olmağı qərara alan
Yəhudanın sağ qalanlarını aradan
götürəcəyəm və onların hamısı Misir
ölkəsində həlak olacaq. Qılıncdan keçiriləcək
və aclıqdan tələf olacaqlar, böyükdən kiçiyə
qədər qılınc və aclıqdan öləcəklər. Lə’nət,
dəhşət, nifrin və rüsvayçılıq hədəfinə
çevriləcəklər. 13 Yerusəlimi qılınc, aclıq və
vəba ilə necə cəzalandırdımsa, Misir
torpağında yaşayanları da eləcə
cəzalandıracağam. 14 Sakin olmaq üçün Misir
torpağına gələn Yəhudanın sağ qalanlarından
heç kəs qaçıb qurtarmayacaq, heç kəs salamat
qalıb Yəhuda torpağına qayıtmayacaq. Oraya
qayıdıb sakin olmaq istəsələr də, bir neçə
qaçqından başqa qayıdan olmayacaq”».
15 Arvadlarının başqa allahlara buxur
yandırdıqlarını bilən bütün kişilər, orada
dayanan qadınlar – böyük bir camaat və Misir
torpağında, Patrosda yaşayan bütün xalq
Yeremyaya müraciət edib dedi: 16 «Sənin bizə
Rəbbin adı ilə söylədiyin sözə qulaq
asmayacağıq. 17 Dediyimiz hər şeyi mütləq
edəcəyik: Göylər Mələkəsi ilahəyə buxur
yandırıb maye təqdimləri verəcəyik. Bir
zamanlar bu işi biz, atalarımız, padşahlarımız
və başçılarımız Yəhuda şəhərlərində,
Yerusəlim küçələrində etdik. O zaman
çörəklə doyur, uğur qazanır və heç bir zərər
görmürdük. 18 Göylər Mələkəsi ilahəyə buxur
yandırmağı, ona maye təqdimlər verməyi
dayandırdığımız vaxtdan bəri hər şeyə möhtac
olduq, qılınc və aclıqdan həlak oluruq».
19 Qadınlar da dedi: «Biz Göylər Mələkəsi
ilahəyə buxur yandırarkən, ona maye
təqdimləri verərkən məgər ərlərimizin xəbəri
yox idi ki, onun təsvirinə oxşar kökələr
düzəldib maye təqdimləri veririk?»
20 O zaman Yeremya kişilərə və qadınlara –
ona bu cavabı vermiş bütün xalqa belə dedi:
21 «Sizin, atalarınızın, padşahlarınızın,
başçılarınızın və ölkə xalqının Yəhuda
şəhərlərində və Yerusəlim küçələrində buxur
yandırmağınızı Rəbb yadına salmadımı,
ağlına gətirmədimi? 22 Rəbb pis işlərinizə,
etdiyiniz iyrənc şeylərə daha dözə bilmir. Ona
görə də indi ölkəniz sakini olmayan
xarabalığa, viranəliyə və lə’nət hədəfinə
çevrildi. 23 Siz buxur yandırıb Rəbbə qarşı
günah etdiniz, Rəbbin sözünə qulaq
asmadınız, qanununa, qaydalarına və
öyüdlərinə əməl etmədiniz. Buna görə də bu
gün başınıza bu fəlakət gəldi».
24 Yeremya qadınlar da daxil olmaqla bütün
xalqa dedi: «Ey Misirdə olan bütün Yəhuda
xalqı, Rəbbin sözünə qulaq asın. 25 İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir: “Göylər
Mələkəsi ilahəyə buxur yandırıb maye
təqdimləri gətirməklə verdiyimiz və’di mütləq
yerinə yetirəcəyik” deyərək siz və
arvadlarınız dilinizlə dediyinizi öz əlinizlə
yerinə yetirdiniz. Eybi yox, verdiyiniz sözə
əməl edin və və’dlərinizi yerinə yetirin.
26 Ey Misir torpağında yaşayan bütün
Yəhuda xalqı, bu işlərə görə Rəbbin sözünü
eşidin: “Mən Öz böyük adıma and içdim ki,

bir daha Misir torpağında heç bir Yəhudalı
şəxs ‹var olan Xudavənd Rəbbin haqqına and
olsun› deyib Mənim adımı çəkməyəcək.
27 İndi Mən onlara yaxşılıq etmək üçün deyil,
pislik etmək üçün məqam gözləyirəm. Misir
torpağında olan bütün Yəhudalılar yox olana
qədər qılınc və aclıqdan həlak olacaq. 28 Az
sayda adam qılıncdan qurtarıb Misir
torpağından Yəhuda torpağına qayıdacaq.
Misir torpağına sakin olmağa gələn Yəhuda
xalqından sağ qalanların hamısı o zaman
biləcək ki, kimin sözü yerinə yetdi, Mənimki
yoxsa onlarınkı? 29 Mən sizi bu yerdə
cəzalandıracağam ki, başınıza bəla gələcəyi
barədə sözlərimin mütləq yerinə yetəcəyini
biləsiniz” Rəbb belə bəyan edir. “Bunun
əlaməti belə olacaq”. 30 Rəbb belə deyir:
“Yəhuda padşahı Sidqiyanı canını almaq
istəyən düşməni Babil padşahı
Navuxodonosora necə təslim etdimsə, Misir
padşahı fir’on Xofranı da canını almaq
istəyən düşmənlərinə eləcə təslim
edəcəyəm”».

### *Allahın Baruka və’di*

45 1 Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının dördüncü
ilində Neriya oğlu Baruk, Yeremyanın dediyi
bu sözləri kitaba yazanda Yeremya
peyğəmbər ona belə söylədi: 2 «Ey Baruk,
sənin barəndə İsrailin Allahı Rəbb belə deyir:
3 “Sən dedin ki, vay mənim halıma! Çünki
Rəbb dərdlərimə kədər də qatdı, iniltimdən
yoruldum, rahatlıq tapmıram”. 4 Sən ona söylə
ki, Rəbb belə deyir: “Bax Mən tikdiyimi
dağıdacağam, əkdiyimi çıxaracağam, özü də
bütün ölkədə. 5 Əgər sən özün üçün çox şey
istəyirsənsə, istəmə. Çünki Mən bütün bəşərin
üzərinə bəla gətirəcəyəm” Rəbb belə bəyan
edir. “Ancaq hara gedirsən, get, heç olmasa
canını qoruyacağam”».

### *Misirin məğlub olması*

46 1 Bu, millətlər barədə Yeremya
peyğəmbərə nazil olan Rəbbin
sözüdür. 2 Misir haqqında, Misir padşahı
fir’on Nekonun ordusu barədə nazil olan
sözdür. Bu ordu Fərat çayı sahilində olan
Karkemişdə idi. Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının dördüncü ilində
Babil padşahı Navuxodonosor onu məğlub
etdi.

3 «Qalxan və sipər hazırlayıb
Döyüşə girin!
4 Atlarınızı yəhərləyin,
Ayğırlarınıza minin, ey atlılar!
Dəbilqə geyinib sıraya düzülün,
Nizələrinizi itiləyib zireh geyinin!
5 Nə üçün mən bunu gördüm?
Onlar dəhşətə düşüb geri döndü,
Döyüşçüləri məğlub oldu,
Tez qaçıb heç geriyə də baxmadı.
Hər tərəfdə dəhşətdir!»
Rəbb belə bəyan edir.
6 «Bərk qaçan qaça bilməyəcək,
Güclü qurtula bilməyəcək.
Şimalda Fərat çayı sahilində
Büdrəyib yıxılacaqlar.

7 Nil kimi qalxan,
Suları sel kimi çalxalanan kimdir?
8 Nil kimi qalxan,
Suları sel kimi çalxalanan Misirdir.
O deyir: “Qalxıb yer üzünü basacağam.
Şəhərləri və orada yaşayanları həlak
edəcəyəm”.
9 Ey atlar, şahə qalxın!
Ey döyüş arabaları, dəli kimi cumun!
Ey qalxanla silahlanmış Kuş və Put
döyüşçüləri,
Kaman götürən və onu çəkən Ludlular,
irəli gedin!

10 O gün Ordular Rəbbi Xudavəndin
günüdür,
Düşmənlərindən qisas alması üçün
Qisas günüdür.
Onları qılınc yeyib-doyacaq,
Qanlarını içib susuzluğunu yatıracaq.
Çünki şimal ölkəsində, Fərat çayı
sahilində
Ordular Rəbbi Xudavənd qurban kəsir.
11 Ey bakirə qıza bənzəyən Misir,
Gileada çıx, məlhəm al.
Çoxlu dərman içməyin əbəsdir,
Sənin dərdinə əlac yoxdur.
12 Millətlər sənin rüsvayçılığını eşitdi,
Fəryadın yer üzünü bürüdü.
Çünki döyüşçü döyüşçünü büdrətdi,
İkisi də birdən yıxıldı».

***44:30*** *– 2Pad. 25:1-7*
***45:1*** *– 2Pad. 24:1; 2Saln. 36:5-7; Yer. 36:1; Dan. 1:1-2*
***46:2-26*** *– Yeş. 19:1-25; Yez. 29:1-32:32*

13 Babil padşahı Navuxodonosorun gəlib
Misir torpağına hücum edəcəyi barədə Rəbb
Yeremya peyğəmbərə bu sözləri nazil etdi:
14 «Misirdə bildirin,
Miqdolda eşitdirin,
Nofda və Taxpanxesdə e'lan edib deyin:
"Qalx və hazırlaş,
Çünki ətrafında olanları
Qılınc yeyib-qurtardı".
15 Cəngavərlərin nə üçün yerə yıxıldı,
Dayana bilmədi?
Çünki Rəbb onu yerə vurdu.
16 Dəfələrlə büdrədilər,
Bir-birlərinin üstünə yıxılıb dedilər:
"Qalxın zalımların qılıncından qaçıb
Öz xalqımızın yanına,
Doğma vətənimizə qayıdaq".
17 Orada onlar bağırdılar:
"Misir padşahı fir'on boşboğazdır,
O, fürsəti əldən verdi".

18 Adı Ordular Rəbbi olan Padşah bəyan
edir:
"Varlığıma and olsun ki,
Tavor və dəniz sahilindəki Karmel
dağları
Dağlar arasında necə nəzərə çarparsa,
Gələn şəxs də elə olacaq.
19 Ey Misirdə yaşayan,
Sürgünə getmək üçün əşyalarını hazırla.
Çünki Nof viran olub yanacaq,
İçində bir sakin qalmayacaq.
20 Misir çox gözəl bir düyədir,
Ancaq şimaldan üstünə mozalan gəlir.
21 Onun muzdlu əsgərləri də
Bəslənmiş dana kimidir.
Onlar üz çevirib birlikdə qaçdı,
Yerlərində durmadı.
Çünki fəlakətlərinin günü,
Cəzalarının vaxtı gəlmişdi.
22 Sürünən ilan kimi fışıltıları gəlir,
Çünki ordu ilə irəliləyirlər,
Ağac kəsənlər kimi ona qarşı
Balta ilə gəlirlər.
23 Keçilməz olsa da,
Yenə meşəni kəsəcəklər"
Rəbb belə bəyan edir.
"Çünki onlar çəyirtkələrdən çoxdur,
Hesaba gəlməzlər.
24 Misir utandırılacaq,
Şimal xalqına təslim ediləcək".
25 İsrailin Allahı olan Ordular Rəbbi deyir:
"Mən No şəhərinin allahı Amonu, fir'onu,
Misiri, onun allahlarını, padşahlarını və
fir'ona güvənənləri cəzalandıracağam.
26 Canlarını almaq istəyənlərə – Babil padşahı
Navuxodonosora və onun ə'yanlarına təslim
edəcəyəm. Ancaq sonra əvvəllər olduğu kimi
adamlar yenə Misirdə yaşayacaq" Rəbb belə
bəyan edir.

### *Rəbbin Öz xalqına və'di*

27 "Qorxma, ey qulum Yaqub,
Dəhşətə düşmə, ey İsrail.
Çünki səni uzaq yerlərdən,
Nəslini sürgün olunduğu ölkədən
qurtaracağam.
Yaqub geri qayıdacaq,
Rahatlıq tapıb qayğısız olacaq,
Onu qorxudan olmayacaq.
28 Qorxma, ey qulum Yaqub,
Çünki Mən səninləyəm"
Rəbb belə bəyan edir.
"Səni aralarına sürgün etdiyim
Millətlərin hamısını yox etsəm də,
Səni tamamilə məhv etməyəcəyəm,
Ədalətlə tərbiyələndirəcəyəm.
Amma cəzasız qoymayacağam"».

### *Filiştlilər barədə vəhy*

47 1 Fir'on Qəzzəyə hücum etməzdən
əvvəl Yeremya peyğəmbərə Filiştlilər
barədə Rəbbin bu sözü nazil oldu:
2 «Rəbb belə deyir:
"Budur, şimaldan sular qalxır,
Onlar sel kimi daşacaq,
Ölkənin və oradakı hər şeyin,
Şəhərin və orada yaşayanların üstünə
axacaq.
İnsanlar fəryad edəcək,
O ölkədə yaşayanların hamısı nalə
çəkəcək.
3 Ayğırlarının yeri döyən dırnaqlarının
səsindən,
Döyüş arabalarının vəlvələsindən,
Təkərlərinin gurultusundan
Əlləri taqətdən düşdüyü üçün
Atalar dönüb oğullarına baxmır.
4 Çünki Filiştlilərin məhv ediləcəyi gün
gəlir.

---

***46:13*** *– Yer. 43:10-13*

***46:27-28*** *– Yer. 30:10-11*
***47:1-7*** *– Yeş. 14:29-31; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7*

Sur və Sidona yardım edə bilən,
Sağ qalan hər kəs yox ediləcək.
Rəbb Kaftor sahilindən gələn[14]
Filiştlilərin sağ qalanlarını həlak edəcək.
5 Qəzzə saçını yolacaq,
Aşqelon susdurulacaq.
Ey düzənliklərində sağ qalanlar,
Nə vaxta qədər bədənlərinizi
yaralayacaqsınız?
6 ‹Ey Rəbbin qılıncı,
Nə vaxt sakitləşəcəksən?
Qınına dön, dayan və sakit ol!›
deyəcəksiniz.
7 Rəbb əmr etdiyi halda
Qılınc necə susa bilər?
Rəbb onu oraya – Aşqelona,
Dəniz sahilinə qarşı göndərdi”».

### *Moav barədə vəhy*

48 1 Moav barədə İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir:
«Vay Nevonun halına!
Çünki viranəliyə çevriləcək.
Qiryatayim dağılacaq,
Ələ keçiriləcək.
Qalası dağılacaq,
Darmadağın olacaq.
2 Artıq Moavın şöhrəti qalmayıb.
Xeşbonda onun məhvi üçün niyyət
qururlar:
“Gəlin onu yox edək ki,
Daha bir də belə millət olmasın”.
Ey Madmen,[15] sən də susdurulacaqsan,
Qılınc səni qovacaq.
3 Xoronayimdən fəryad səsi gələcək:
“Şəhər dağıldı və böyük qırğın oldu!”
4 Moav dağıdıldı,
Övladlarının fəryadı ucaldı.
5 Ağlaya-ağlaya
Luxit yoxuşundan çıxırlar,
Çünki Xoronayim enişində
Qırğına görə acı fəryadlar eşidilir.
6 Qaçın, canınızı qurtarın!
Çöldəki yulğun ağacı kimi az-az
görünün.
7 Öz istehkamlarına və mal-dövlətinə
güvəndiyin üçün
Sən də ələ keçiriləcəksən.
Allahın Kemoş da kahinləri və başçıları
ilə birlikdə
Sürgün ediləcək.
8 Rəbbin söylədiyi kimi
Məhv edən hər şəhərin üstünə gələcək,
Heç bir şəhər qurtulmayacaq.
Vadi yerlə yeksan olacaq,
Yayla viran ediləcək.
9 Moav torpağına duz tökün ki,
Bərəkətsiz olsun.
Şəhərləri elə viran olacaq ki,
Orada kimsə yaşamayacaq.

10 Rəbbin işini yarımçıq görənə
Lə’nət olsun!
Qılıncını qan tökməkdən saxlayana
Lə’nət olsun!
11 Moav cavanlığından bəri qayğısız idi.
Tortası dibdə qalan şəraba oxşayırdı.
Qabdan qaba boşaldılmadı,
Sürgünə getmədi.
Buna görə də dadını dəyişmədi,
Ətrini itirmədi.
12 Ancaq onu qabdan qaba tökəcək adamları
göndərəcəyim günlər gəlir» Rəbb belə bəyan
edir. «Bəli, onu tökəcəklər, qablarını
boşaldacaqlar, küplərini parça-parça
edəcəklər. 13 İsrail xalqı güvəndiyi Bet-Eldən
necə utandısa, Moav da allahı Kemoşdan
eləcə utanacaq.
14 Nə üçün “biz igidik,
Döyüşə qabil əsgərlərik” deyirsiniz?
15 Moav məhv olacaq,
Onun şəhərlərinə hücum edəcəklər.
Ən seçmə döyüşçüləri öldürülməyə
gedəcək»
Adı Ordular Rəbbi olan Padşah bunu
bəyan edir.
16 «Moavın fəlakəti gəlmək üzrədir,
Onun bəlası sür’ətlə yaxınlaşır.
17 Ey onun ətrafında olanlar,
Onun adını bilənlər,
Onun üçün yas tutub deyin:
“Qüdrətli əsa, əzəmətli dəyənək
Necə də qırıldı!”

18 Ey qıza bənzəyən Divonun sakini,
Cah-cəlalından düş,
Susuz yerdə otur.

---

[14] **47:4** *Kaftor* – indiki Krit adası.
***48:1-47*** *– Yeş. 15:1-16:14; 25:10-12; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11*
[15] **48:2** İbrani dilində *Xeşbon – niyyət qurmaq, Madmen – susdurmaq* sözlərinə oxşayır.
***48:5*** *– Yeş. 15:5*

Çünki Moavı məhv edən
Sənin də üstünə gələcək,
Qalalarını dağıdacaq.
19 Ey Aroer sakini,
Yol kənarında durub gözlə!
Qaçan kişidən, qurtulan qadından
"Nə olub?" deyə soruş.
20 Moav alçaldıldı,
Çünki dağıldı.
Fəryad et, bağır!
Moavın məhv olduğunu
Arnon vadisində bildir.

21 Yayladakı şəhərlər – Xolon, Yahsa,
Mefaat,
22 Divon, Nevo, Bet-Divlatayim,
23 Qiryatayim, Bet-Qamul, Bet-Meon,
24 Qeriyot, Bosra –
Uzaq və yaxın bütün Moav şəhərləri
məhkum oldu.
25 Moavın buynuzu kəsildi, qolu qırıldı»
Rəbb belə bəyan edir.

26 «Moavı sərxoş edin,
Çünki Rəbbin qarşısında qürurlandı.
Moav öz qusduğuna bələnəcək,
Masqaraya çevriləcək.
27 Bəs İsrail sənə masqara olmadımı?
Məgər o oğrular arasında tutuldu ki,
Ondan danışanda həqarətlə başını
yelləyirsən?
28 Ey Moav sakinləri,
Şəhərlərinizi tərk edib
Qayalara sığının.
Yuvasını uçurumun ağzında quran
Göyərçin kimi olun.
29 Moavın qüruru, onun hədsiz
məğrurluğu,
Təkəbbürü, təşəxxüsü, lovğalığı,
Özünü yüksək tutması barədə biz
eşitmişdik.
30 Azğınlığını bilirəm»
Rəbb belə bəyan edir.
«Öyünməsi də boş şeydir, etdikləri də.
31 Buna görə də Moav üçün nalə
çəkəcəyəm,
Bütün Moav üçün fəryad edəcəyəm,
Qir-Xeres xalqı üçün yas tutacağam.
32 Ey Sivma tənəyi,
Sənin üçün Yazer xalqından çox
ağlayacağam.
Budaqların Ölü dənizi aşıb Yazerə çatdı.
Məhv edən sənin yay meyvələrinin,
Yetişmiş üzümünün üstünə atıldı.
33 Moavın meyvə bağlarından,
tarlalarından
Sevinc və nəş'ə yox oldu.
Üzümsıxanlardan axan şərabı kəsdim.
Heç kəs sevinc nidası ilə üzüm əzmir.
Gələn səda sevinc nidası deyil.
34 Xeşbonun fəryadı Elaleyə qədər
eşidilir.
Yahsaya qədər, Soardan Xoronayimə,
Eqlat-Şelişiyaya qədər səslərini
ucaltdılar.
Çünki Nimrim suları da qurudu.
35 Moavda səcdəgahlarda qurban
gətirənləri,
Öz allahlarına buxur yandıranları məhv
edəcəyəm»
Rəbb belə bəyan edir.
36 «Buna görə də Moav üçün
Ürəyim ney kimi inləyir.
Qir-Xeres xalqı üçün
Ürəyim ney kimi inləyir.
Çünki əldə etdiyi mal-dövlət yox oldu.
37 Hər kəs saçını, saqqalını kəsəcək,
Əlini yaralayacaq,
Belinə çul sarıyacaq.
38 Moav damlarından, meydanlarından
Yalnız ağlaşma səsi gəlir.
Çünki Moavı heç kəsin bəyənmədiyi
Bir qab kimi qırdım»
Rəbb belə bəyan edir.
39 «Moav necə viran oldu!
Necə də fəryad edirlər!
Moav xəcalətdən arxaya dönür.
Bütün ətrafındakılar üçün
Rişxənd və dəhşət nümunəsi oldu».

40 Rəbb belə deyir:
«Bax düşmən qartal kimi uçub
Moav üzərində qanadlarını gərəcək.
41 Qeriyot ələ keçiriləcək,
Qalalar alınacaq.
O gün Moav döyüşçülərinin ürəyi
Doğuş ağrısı çəkən qadının ürəyi kimi
olacaq.
42 Moav viran olacaq,

***48:29,32-33** – Yeş. 16:6,8,10*

***48:34,37** – Yeş. 15:2,4*

Xalqlar arasından silinəcək.
Çünki Rəbb qarşısında qürurlandı.
43 Ey Moav sakinləri,
Qarşınıza dəhşət, dərin çuxur və tələ
çıxacaq»
Rəbb belə bəyan edir.
44 «Dəhşətdən qaçan dərin çuxura
düşəcək,
Dərin çuxurdan çıxa bilən tələyə
düşəcək.
Çünki Moavın üzərinə
Cəza ilini gətirəcəyəm»
Rəbb belə bəyan edir.
45 «Xeşbonun kölgəsində
Qaçqınlar taqətsiz durmuşlar.
Çünki Xeşbondan od,
Sixonun ortasından alov çıxdı.
Moavın alnını,
Hər yana səs salanların başlarını
Yandırıb-yaxdı.
46 Vay halına, ey Moav!
Kemoşun xalqı yox oldu.
Oğulların sürgünə göndərildi,
Qızların əsir alındı.

47 Ancaq gələcəkdə
Moavdan sürgün olunanları geri
qaytaracağam»
Rəbb belə bəyan edir.

Moav barədəki hökm burada sona çatır.

### *Ammon barədə vəhy*

49 1 Ammon övladları barədə Rəbb
belə deyir:
«İsrailin övladları yoxmu?
Onun varisi yoxmu?
Elə isə nə üçün Milkom Qada sahib oldu?
Niyə onun xalqı Qad şəhərlərində
yaşayır?
2 Bu səbəbdən də o günlər gəlir ki,
Ammon övladlarının Rabba şəhərinə
Döyüş nə’rələri eşitdirəcəyəm»
Rəbb belə bəyan edir.
«Rabba bir xarabalıq qalağı olacaq,
Qəsəbələri yandırılacaq.
Beləcə İsrail onu torpağından qovanları
qovacaq»
Rəbb belə deyir.

3 «Nalə çək, ey Xeşbon,
Çünki Ay şəhəri viran oldu.
Fəryad edin, ey Rabba qızları,
Çula bürünüb yas tutun.
Divarlar arasında ora-bura qaçın.
Çünki Milkom kahinləri və başçıları ilə
birlikdə
Sürgünə gedəcək.
4 Vadilərlə nə üçün öyünürsən?
Taqətin kəsilir,
Ey dönük qız!
Sən mal-dövlətinə güvənərək
“Üstümə kim gələ bilər” deyirdin.
5 Ətrafında olanların hamısından
Sənin üzərinə dəhşət gətirəcəyəm»
Ordular Rəbbi olan Xudavənd belə
bəyan edir.
«Hamı o yan-bu yana qaçacaq,
Qaçanları toplayan olmayacaq.
6 Ancaq bundan sonra sürgün olunan
Ammon övladlarını geri qaytaracağam»
Rəbb belə bəyan edir.

### *Edom barədə vəhy*

7 Edom barədə Ordular Rəbbi belə deyir:
«Teman şəhərində müdriklik qalmadımı?
Ağıllı adamların nəsihəti tükəndimi?
Onların müdrikliyi söndümü?
8 Qaçın, arxaya dönün,
Dərin mağaralarda gizlənin,
Ey Dedanda yaşayanlar!
Çünki Esavı cəzalandırdığım vaxt
Başına fəlakət gətirəcəyəm.
9 Əgər üzüm yığanlar sənin bağına
girsəydi,
Bir neçə salxım saxlamazdılarmı?
Gecə oğrular gəlsəydi,
Yalnız istədiklərini oğurlamazdılarmı?
10 Amma mən Esavı çıl-çılpaq
soyunduracağam.
Onun gizli yerlərini aşkar edəcəyəm.
Özü də gizlənə bilməyəcək,
Övladları, qohum-qonşuları həlak olacaq,
Özü də məhv olacaq.
11 Öz yetimlərini burax,
Onları Mən yaşadaram.
Dul qadınların da Mənə güvənsin».
12 Rəbb belə deyir: «Layiq olmayanlar da
cəza kasası içmək məcburiyyətində ikən

***48:43** – Yeş. 24:17*
***48:45-46** – Say. 21:28-29*
***49:1-6** – Yez. 21:28-32; 25:1-7; Amos 1:13-15; Sef. 2:8-11*

***49:7-22** – Yeş. 34:5-17; 63:1-6; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Mal. 1:2-5*

sənmi cəzasız qalacaqsan? Yox, cəzasız
qalmayacaqsan, mütləq bu kasadan
içəcəksən». 13 Rəbb bəyan edir: «Adım
naminə and içirəm ki, Bosra xarabalığa
çevriləcək, dəhşət, rüsvayçılıq, viranəlik və
lə'nətə düçar olacaq. Bütün şəhərləri əbədi
olaraq viran qalacaq.
14 Rəbdən bir xəbər eşitdim:
Millətlər arasına göndərdiyi elçi
"Edoma hücum etmək üçün yığılıb
Döyüşə hazırlaşın!" deyir.
15 Bax səni millətlər arasında
alçaldacağam,
Sənə insanlar xor baxacaq.
16 Saldığın dəhşət və ürəyindəki qürur
Səni aldatdı.
Sən ki qaya[16] oyuqları arasında
yaşayırsan,
Təpələrin başını öz əlində saxlayırsan.
Yuvanı qartal kimi ucalarda qursan da,
Səni oradan endirəcəyəm»
Rəbb belə bəyan edir.
17 «Edom dəhşət hədəfi olacaq,
Oradan keçən hər kəs
Bütün yaralarından ötrü
Heyrət içində ona fit çalacaq».
18 Rəbb deyir:
«Sodomla Homorranı və ətrafındakı
kəndləri
Necə dağıtdımsa,
Orada da kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq.
19 Budur, aslan İordan çayının
kənarındakı sıx meşədən
Yaxşı sulanan otlağa qalxdığı kimi
Mən də Edomluları bir anda öz
yurdundan qovacağam.
Seçib ona rəhbər qoyacağım adam
kimdir?
Mənim kimisi varmı?
Mənimlə dava edən,
Mənim qabağımda duran bir çoban
varmı?»
20 Buna görə də Rəbbin Edoma qarşı
fikrini,
Temanda yaşayanlara qarşı məqsədini
eşidin:
Sürünün ən kiçikləri də sürgün ediləcək,
Xalqına görə Edom otlaqları
Səhraya çevriləcək.
21 Dağılmalarının gurultusundan
Yer üzü titrəyəcək.
Qışqırıqlarının səsi
Qırmızı dənizədək eşidiləcək.
22 Düşmən qartal kimi qalxıb üstünə
cumacaq,
Bosra üzərində qanadlarını gərəcək.
O gün Edom döyüşçülərinin ürəyi
Doğuş ağrısı çəkən qadının ürəyi kimi
olacaq.

### *Dəməşq barədə vəhy*

23 Bu sözlər Dəməşq barədədir:
«Xamat və Arpad utanacaq,
Çünki pis xəbər eşidib
Ruhdan düşdülər.
Sakit durmayan dəniz kimi
Coşub narahat oldular.
24 Dəməşq əldən düşdü,
Qaçmağa üz qoydu,
Onu vahimə bürüdü.
Doğan qadın kimi
Onu sancı və ağrı tutdu.
25 Necə oldu ki, Məni sevindirən,
Şöhrətli şəhər tərk edilmədi?
26 Buna görə də cavanları
Meydanlarında həlak olacaq.
O gün bütün döyüşçüləri susdurulacaq»
Ordular Rəbbi belə bəyan edir.
27 «Dəməşqin divarlarına od salacağam,
Ben-Hadadın saraylarını yandırıb məhv
edəcək».

### *Qedar və Xasor barədə vəhy*

28 Babil padşahı Navuxodonosorun məğlub
etdiyi Qedar və Xasor padşahlıqları barədə
Rəbb belə deyir:
«Qalxın Qedara hücum edin,
Şərq xalqını məhv edin.
29 Onların çadırlarını və sürülərini
Əllərindən alacaqlar,
Çadır pərdələri, bütün əşyaları və
dəvələri
Götürülüb aparılacaq.
Onlara "Hər tərəfdən dəhşət!"
Deyib bağıracaqlar.
30 Ey Xasorda yaşayanlar,
Qaçın, uzaqlaşın,
Dərin mağaralarda gizlənin»
Rəbb belə bəyan edir.
«Çünki Babil padşahı Navuxodonosor

---

[16] **49:16** *Qaya* – ibrani mətnində *sela*. *Qaya* mə'nası daşıyan Sela Edomun paytaxtı idi.
***49:18*** – *Yar. 19:24-25*

***49:23-27*** – *Yeş. 17:1-3; Amos 1:3-5; Zək. 9:1*

Sizin barənizdə bir fikrə gəldi,
Sizə qarşı tədbir tökdü.
31 Qalxın qayğısız və asayiş içində
yaşayan
Xalqın üzərinə hücum edin»
Rəbb belə bəyan edir.
«Onların şəhər darvazaları və sürgüləri
yoxdur,
Xalqı da özbaşına buraxılıb.
32 Dəvələri qarət ediləcək,
Saysız sürüləri qənimət kimi aparılacaq.
Kəkillərini qırxanları
Dörd tərəfə səpələyəcəyəm.
Hər yandan başlarına fəlakət
gətirəcəyəm»
Rəbb belə bəyan edir.
33 «Xasor çaqqal yuvasına,
Əbədi viranəliyə çevriləcək.
Orada kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq».

### *Elam barədə vəhy*

34 Yəhuda padşahı Sidqiyanın padşahlığının
əvvəlində Rəbb Yeremya peyğəmbərə Elam
barədə bu sözləri nazil etdi:
35 «Ordular Rəbbi belə deyir:
"Baxın Elamın kamanını,
Əsas qüvvələrini sındıracağam.
36 Elam üzərinə göylərin hər tərəfindən
Dörd küləyi gətirəcəyəm,
Xalqını dörd tərəfə səpələyəcəyəm.
Elamdan sürgün olunanların
Aralarına getmədiyi bir millət
qalmayacaq.
37 Düşmənlərinin qarşısında,
Canını almaq istəyənlərin önündə
Elamı dəhşətə salacağam.
Başlarına fəlakət gətirib
Şiddətli qəzəbimi yağdıracağam"
Rəbb belə bəyan edir.
"Onları tamamilə yox edənə qədər
Arxalarınca qılınc göndərəcəyəm.
38 Elamda taxtımı quracaq,
Elam padşahı ilə başçılarını məhv
edəcəyəm"
Rəbb belə bəyan edir.
39 "Ancaq gələcəkdə
Elamdan sürgün olunanları geri
qaytaracağam"
Rəbb belə bəyan edir».

***49:36*** *– Dan. 7:2; Vəhy 7:1*

### *Babil barədə vəhy*

50 1 Rəbb Babil və Xaldey ölkəsi
barədə Yeremya peyğəmbər vasitəsilə
bu sözləri nazil etdi:
2 «Millətlərə bildirib e'lan edin.
Bayraq qaldırıb xəbər verin,
Heç nəyi gizlətməyin!
Deyin ki, Babil ələ keçiriləcək,
Bel allahı utandırılacaq,
Marduk allahı dəhşətə düşəcək,
Bütləri alçaldılacaq,
Mə'budları parça-parça olacaq.
3 Çünki onun üstünə şimaldan
Bir millət hücum edəcək,
Ölkəsini viran edəcək.
Orada yaşayan olmayacaq,
İnsan da, heyvan da qaçıb gedəcək».

4 Rəbb bəyan edir: «O gün, o zaman
İsrail xalqı ilə Yəhuda xalqı
Birlikdə gələcək,
Onlar ağlaya-ağlaya gəlib
Özlərinin Allahı Rəbbi axtaracaq.
5 Üzləri Siona tərəf
Oraya gedən yolu soruşacaqlar,
Onlar gəlib unudulmaz, əbədi bir əhdlə
Rəbbə bağlanacaq.
6 Xalqım itmiş qoyunlar kimidir,
Çobanları onları azdırdı,
Dağlarda özbaşına dolandırdı,
Onlar dağdan təpəyə getdi,
Yatdıqları yeri unutdu.
7 Kim onları tapdısa, yedi.
Düşmənləri dedi:
"Biz təqsirkar deyilik,
Çünki onlara əsl otlaq olan Rəbbə –
Atalarının Ümidgahı Rəbbə qarşı günah
etdilər".

8 Babildən qaçıb qurtarın!
Xaldey ölkəsini tərk edin,
Sürüyə yol göstərən təkə kimi olun!
9 Çünki Mən şimal ölkəsindən
Babilə qarşı böyük millətlər ittifaqını
Oyandırıb çıxaracağam.
Babilin önündə düzülüb
Onu şimaldan ələ keçirəcəklər.
Oxları mahir döyüşçü oxları kimi olacaq,
Heç biri əliboş qayıtmayacaq.

***50:1-51:64*** *– Yeş. 13:1-14:23; 47:1-15*
***50:8*** *– Vəhy 18:4*

10 Xaldey ölkəsi qarət olunacaq,
Onu qarət edənlər maldan doyacaq»
Rəbb belə bəyan edir.
11 «Ey irsimi talayanlar,
İndi ki sevinib şadlıqla coşursunuz,
Xırmanda taxıl döyən düyə kimi
tullanırsınız,
Ayğır kimi kişnəyirsiniz,
12 Ananız çox utanacaq,
Sizi doğanın üzü qızaracaq.
Xaldey millətlərin ən zəifi,
Quraq, boz bir səhra olacaq.
13 Rəbbin qəzəbi üzündən
Heç kəs orada yaşamayacaq,
Tamamilə viran olacaq.
Hər keçən Babilin aldığı
Bütün yaraları görəndə
Heyrət içində fit çalacaq.

14 Ey bütün kaman çəkənlər,
Babilin ətrafında döyüş üçün düzülün.
Oraya ox atın, oxunuzu əsirgəməyin.
Çünki o, Rəbbə qarşı günah etdi.
15 Hər tərəfdən ona qarşı nə’rə çəkin,
O təslim oldu,
Qüllələri yıxıldı, divarları uçuldu.
Çünki bu, Rəbbin qisasıdır.
Ondan qisas alın,
O nə etdisə, başına onu gətirin.
16 Babildə əkinçiləri məhv edin,
Biçin vaxtı oraqçıları rədd edin.
Zalımların qılıncı üzündən
Hər kəs öz xalqının yanına qayıtsın,
Hamı öz ölkəsinə qaçsın.

### *İsrailin qayıtması*

17 İsrail dağılmış bir sürüyə bənzər,
Onu aslanlar qaçırtdı.
Onu əvvəl Aşşur padşahı yedi,
Sonra Babil padşahı Navuxodonosor
Onun sümüklərini qırdı».
18 Buna görə də İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir:
«Aşşur padşahını necə cəzalandırdımsa,
Babil padşahı ilə ölkəsini də
Eləcə cəzalandıracağam.
19 Lakin İsraili yenə öz otlağına
gətirəcəyəm,
O, Karmeldə və Başanda otlayacaq.
Efrayim və Gilead dağlıq bölgələrində
İstədiyi qədər yeyib-doyacaq.
20 O gün, o zaman
İsraildə təqsir axtarılacaq,
Ancaq olmayacaq.
Yəhudada da günah axtarılacaq,
Ancaq tapılmayacaq.
Çünki salamat qoyduğum adamları
bağışlayacağam»
Rəbb belə bəyan edir.

### *Rəbbin Babili cəzalandırması*

21 «Meratayim torpağına,
Peqodda yaşayanlara hücum et.
Onları tə’qib edib öldür,
Bütünlüklə yox et»
Rəbb belə bəyan edir.
«Sənə nə buyururamsa, hamısını et.
22 Ölkədə müharibə və böyük qırğın
Gurultusu eşidilir.
23 Bütün dünyanın gürzü
Necə də qırılıb parçalandı!
Babil necə də millətlər arasında
Viranə oldu!
24 Sənin üçün tələ qurdum, ey Babil,
Sən də bilmədən tələmə düşdün.
Tutulub yaxalandın,
Çünki Rəbbə qarşı çıxdın.
25 Rəbb cəbbəxanasını açdı,
Qəzəbinin silahlarını çıxartdı.
Çünki Ordular Rəbbi Xudavəndin
Xaldey ölkəsində edəcəyi bir iş var.
26 Hər yandan ona hücum edin,
Anbarlarını açın,
Mallarını qalaq-qalaq yığın.
Onu tamamilə məhv edin,
Ondan bir şey qalmasın.
27 Bütün buğalarını kəsin,
Sallaqxanaya getsinlər.
Vay onların halına!
Çünki onların günü,
Cəza vaxtı gəldi.
28 Allahımız Rəbbin qisasını,
Onun mə’bədinin qisasını
Sionda e’lan etmək üçün
Babil ölkəsindən qaçıb qurtaranların
Səsini eşidin!

29 Bütün oxçuları, kaman çəkənləri
Babilə qarşı çağırın.
Ətrafını mühasirəyə alın,
Heç kəs qaçıb qurtara bilməsin.
Ona işlərinə görə əvəz verin.
O nə etdisə, başına onu gətirin.
Çünki Rəbbə, İsrailin Müqəddəsinə qarşı

---

***50:29*** – *Vəhy 18:6.*

Məğrurluq etdi.
30 Buna görə də cavanları
Meydanlarda həlak olacaq,
O gün bütün döyüşçüləri susdurulacaq»
Rəbb belə bəyan edir.
31 «Budur, Mən sənə qarşıyam, ey
məğrur»
Ordular Rəbbi olan Xudavənd belə
bəyan edir.
«Çünki sənin günün,
Səni cəzalandıracağım vaxt gəldi.
32 Məğrur büdrəyib-yıxılacaq,
Onu qaldıran olmayacaq,
Şəhərlərinə od salacağam,
Bütün ətrafda olanları
Yandırıb yox edəcək».

33 Ordular Rəbbi belə deyir:
«Bütün İsrail xalqı da,
Yəhuda xalqı da əziyyət çəkir.
Onları əsir tutanlar möhkəm saxlayır,
Buraxmaq istəmir.
34 Amma onların Satınalanı güclüdür,
Onun adı Ordular Rəbbidir.
Rəbb mütləq onların işinə baxacaq ki,
Ölkəyə rahatlıq versin,
Amma Babil sakinlərinə təşviş gətirsin».

35 Rəbb bəyan edir: «Xaldeylilərə qarşı
qılınc gəlsin!
Babildə yaşayanlara, Babil başçılarına,
Müdriklərinə qarşı qılınc gəlsin!
36 Yalançı peyğəmbərlərə qarşı qılınc
gəlsin!
Axmaqlıqları üzə çıxacaq.
Döyüşçülərinə qarşı qılınc gəlsin!
Onlar çaşqınlığa düşəcək.
37 Atlarına, döyüş arabalarına,
Aralarındakı yadelli muzdlulara qarşı
qılınc gəlsin!
Hamısı arvad kimi ürkək olacaq.
Xəzinələrinə qarşı qılınc gəlsin!
Onlar qarət ediləcək.
38 Sularına quraqlıq gəlsin!
Onlar quruyacaq.
Çünki Babil bütlər ölkəsidir,
Onlar qorxunc bütlərlə dəli oldu.
39 Buna görə də orada vəhşi heyvanlar,
Çaqqallar, bayquşlar yaşayacaq,
Daha insan yaşamayacaq,
Əbədi olaraq orada heç kəs sakin
olmayacaq.
40 Sodomla Homorranı və ətrafındakı
kəndləri
Allah necə dağıtdısa,
Orada kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq.

41 Budur, şimaldan bir ordu gəlir,
Dünyanın uzaq yerlərindən
Böyük bir millət və çoxlu padşahlar
Hərəkətə gəlir.
42 Onlar ox-kaman və nizə ilə
silahlanmış,
Qəddar və rəhmsizdir.
Atların üstündə gələrkən
Səsləri dəniz kimi gurlayır.
Döyüşə hazır döyüşçülər
Önündə düzüləcək, ey Babil xalqı!
43 Babil padşahı onların xəbərini eşitdi,
Əlləri yanına düşdü.
Doğan qadın kimi
Onu üzüntü və sancı bürüdü.

44 Budur, aslan İordan çayının
kənarındakı sıx meşədən
Yaxşı sulanan otlağa qalxdığı kimi
Mən də Xaldeyliləri bir anda öz
yurdundan qovacağam.
Seçib ona rəhbər qoyacağım adam
kimdir?
Mənim kimisi varmı?
Mənimlə dava edəcək,
Mənim qabağımda duracaq
Bir çoban varmı?»
45 Buna görə də Rəbbin Babilə qarşı
fikrini,
Xaldey ölkəsinə qarşı məqsədini eşidin:
«Sürünün ən kiçikləri də sürgün ediləcək,
Xalqına görə otlaqlar səhraya çevriləcək.
46 "Babil süqut etdi" səsindən yer üzü
titrəyəcək,
Millətlər arasında onun fəryadı
eşidiləcək».

## 51

1 Rəbb belə deyir:
«Mən Babildə və Lev-Qamayda[17]
yaşayanlara qarşı
Həlakedici bir külək əsdirəcəyəm.
2 Babilə taxılsovuranlar[18] göndərəcəyəm,

***50:39*** *– Yeş. 13:20; Vəhy 18:2*

***50:40*** *– Yar. 19:24-25*

[17] **51:1** *Lev-Qamay – düşmənlərimin ürəyi* mə'nasında olub Xaldey ölkəsinin rəmzi adıdır.

Onu sovurub ölkəsini boş qoyacaqlar,
Qara gündə hər yandan ona hücum
edəcəklər.
3 Oxçu kamanını çəkməsin,
Zirehini geyməsin.
Onun cavanlarına rəhm etməyin,
Ordusunu tamamilə məhv edin.
4 Öldürülənlər Xaldey ölkəsində,
Yaralılar Babil küçələrində
Yerə səriləcək.

5 Ancaq İsrailin Müqəddəsinə qarşı
Ölkələri təqsirlə dolduğu halda
Özlərinin Allahı Ordular Rəbbi
İsrail və Yəhuda xalqlarını tərk etmədi.
6 Babilin içindən qaçın!
Hər kəs canını qurtarsın!
Onun günahına görə məhv olmayın.
Çünki Rəbbin qisas zamanıdır,
Ona öz əvəzini verəcək.
7 Babil Rəbbin əlində bir qızıl kasa idi,
Bütün dünyanı sərxoş edirdi.
Millətlər onun şərabını içdi,
Ona görə də çılğınlaşdı.
8 Babil qəflətən düşüb parça-parça
olacaq,
Onun üçün yas tutun!
Yarasına məlhəm sürtün,
Bəlkə şəfa tapar.
9 Babilə şəfa vermək istədik,
Amma sağalmadı.
Onu tərk edək,
Hər birimiz öz ölkəmizə qayıdaq.
Çünki Babilin hökmü göylərə çatır,
Buludlara qədər yüksəlir.
10 Rəbb bizə bəraət verdi.
Gəlin Allahımız Rəbbin nələr etdiyini
Sionda e'lan edək!

11 Oxları itiləyin,
Kaman qablarını doldurun!
Rəbb Midiya padşahlarını hərəkətə
gətirdi.
Məqsədi Babili yox etməkdir,
Rəbb Öz qisasını, mə'bədinin qisasını
alacaq.
12 Babil divarlarına qarşı
Bayraq yüksəldin!
Keşikçiləri çoxaldın,
Növbətçiləri öz yerinə qoyun,
Pusquda durun.
Çünki Rəbb Babildə yaşayanlara qarşı
Həm niyyət qurdu,
Həm də söylədiyini yerinə yetirdi.
13 Ey axar suların sahilində yaşayanlar,
Çoxlu xəzinələri olanlar,
Axırınız gəldi,
Vaxtınız yetişdi».
14 Ordular Rəbbi öz varlığına and içdi:
«Səni çəyirtkə sürüsü ilə dolduran kimi
Mütləq əsgərlərlə dolduracağam,
Sənə qarşı zəfər nə'rəsi çəkəcəklər».

### *Rəbbin mədhi*

15 Rəbb qüdrəti ilə yer üzünü yaratdı,
Hikməti ilə dünyanı qurdu,
Dərrakəsi ilə göyləri yaydı.
16 O gurlayanda göydəki sular çağlayır,
Yerin ucqarlarından buludları yüksəldir,
Yağış üçün şimşək çaxdırır,
Anbarlarından külək çıxarır.
17 Hər kəs ağılsız oldu,
Bilikləri qalmadı.
Hər zərgər düzəltdiyi bütdən utanacaq,
Çünki onun tökdüyü büt puçdur,
Onda nəfəs yoxdur.
18 Onlar boş şey, masqaraçıların işidir,
Cəza vaxtı məhv olacaqlar.
19 Yaquba Nəsib Olan isə onlara
bənzəməz,
Çünki irs qəbiləsi ilə birgə
Hər şeyi yaradan Odur.
Onun adı Ordular Rəbbidir.

### *Babilin cəzalanması*

20 «Sən mənim toppuzum, döyüş
silahımsan,
Səninlə millətləri qırıram,
Səninlə padşahlıqları məhv edirəm.
21 Səninlə atları və süvariləri qırıram,
Səninlə döyüş arabaları və minicilərini
qırıram,
22 Səninlə kişi və qadınları qırıram,
Səninlə qoca və cavanları qırıram,
Səninlə gənc oğlan və qızları qırıram.
23 Səninlə çoban və sürüsünü qırıram,
Səninlə əkinçi və öküzlərini qırıram,
Səninlə valilərlə vəkilləri qırıram.

---

[18] **51:2** *Taxılsovuranlar* – yaxud *yadellilər.*
***51:6*** *– Vəhy 18:4*
***51:7*** *– Vəhy 17:2-4; 18:3*
***51:8*** *– Yeş. 21:9; Vəhy 14:8; 18:2*
***51:9*** *– Vəhy 18:5*
***51:13*** *– Vəhy 17:1*
***51:16*** *– Zəb. 135:7; Yer. 10:13*

24 Amma Babildə və Xaldey ölkəsində
yaşayanlara
Sionda etdikləri bütün pis əməllərinin
əvəzini
Gözlərinizin önündə verəcəyəm»
Rəbb belə bəyan edir.

25 «Budur, sənə qarşıyam,
Ey həlak edən dağ»
Rəbb belə bəyan edir.
«Ey bütün dünyanı həlak edən!
Sənə əlimi qaldırıb
Qayanın başından yuvarlayacağam,
Səni yanmış bir dağa çevirəcəyəm.
26 Səndən künc və təməl daşı
götürməyəcəklər,
Sən əbədi bir viranə olacaqsan»
Rəbb belə bəyan edir.

27 «Yer üzündə bayraq qaldırın!
Millətlər arasında şeypur çalın!
Millətləri Babilə qarşı döyüşə hazırlayın!
Urartu, Minni və Aşkenaz
padşahlıqlarını
Ona qarşı toplayın.
Ona qarşı bir sərkərdə tə'yin edin,
Üstünə çəyirtkə sürüsü qədər atlar
göndərin.
28 Millətləri – Midiya padşahlarını,
Valilərini və bütün vəkillərini,
Başçılıqları altındakı bütün ölkələri
Babilə qarşı döyüşə hazırlaşın!
29 Ölkə titrəyib lərzəyə gəlir!
Çünki Rəbbin Babilə qarşı niyyəti –
Oranı sakinsiz bir viranəyə çevirmə
niyyəti
Yerinə yetməlidir.
30 Babil döyüşçüləri vuruşmaqdan əl
çəkdi,
Öz qalalarında oturdu.
Gücləri tükəndi,
Ürkək qadınlara döndülər.
Yaşadıqları yerlər oda verildi,
Darvaza sürgüləri qırıldı.
31 Qasid qasid dalınca,
Xəbərçi xəbərçi dalınca qaçıb
Bu xəbəri Babil padşahına çatdırır:
"Şəhər hər tərəfdən alındı,
32 Çay keçidləri tutuldu,
Qamışlıqlar yandırıldı,
Döyüşçülər çaşqınlığa düşdü"».

33 İsrailin Allahı olan Ordular Rəbbi belə
deyir:
«Vaxtı gələndə xırman yeri necə
tapdalanırsa,
Babil xalqı da elə olacaq.
Qısa müddətdən sonra
Onun da biçin zamanı gələcək».

34 «Babil padşahı Navuxodonosor
Bizi əzib yedi,
Boş bir qaba çevirdi.
Canavar kimi uddu,
Gözəl yeməklərimizlə qarnını doydurdu.
Sonra bizi qusdu.
35 Bizə və əhalimizə qarşı edilən
zorakılıq
Babilin başına gəlsin»
Deyir Sion sakini.
«Tökülən qanımızın haqq-hesabı
Qoy Xaldeylilərdən soruşulsun»
Deyir Yerusəlim.

### *Rəbbin İsrailə köməyi*

36 Buna görə Rəbb belə deyir:
«Məhkəmədə işinizə Mən baxacağam,
Qisasınızı Mən alacağam.
Onun çayını qurudacaq,
Bulağının suyunu kəsəcəyəm.
37 Babil daş qalaqlarına,
Çaqqal yuvasına dönəcək.
Dəhşət hədəfi olacaq,
İstehza ilə ona fit çalacaqlar.
Orada heç kəs yaşamayacaq.
38 Xalqı cavan aslanlar kimi kükrəyəcək,
Şir balaları kimi nərildəyəcək.
39 Ancaq qızışdıqları vaxt
Ziyafət düzəldib onları sərxoş edəcəyəm.
Qoy keflənsinlər,
Əbədi yuxuya dalsınlar,
Heç vaxt oyanmasınlar»
Rəbb belə bəyan edir.
40 «Onları quzu, qoç və təkə kimi
Kəsməyə aparacağam.

### *Babilin sonu*

41 Şeşak[19] necə alındı!
Bütün dünyanın qürurlandığı yer
Necə dəhşətli hala düşdü.
Babil millətlər arasında
Necə dəhşətli hala düşdü!
42 Babili çay basacaq,
Onu gurlayan dalğalar örtəcək.

---

[19] **51:41** *Şeşak* – Bax: 25:26.

43 Qəsəbələri viran olacaq,
Torpaqları heç kəsin yaşamadığı,
Bəşər oğlunun keçmədiyi
Quraq bir çölə dönəcək.
44 Babildə Bel bütünü cəzalandıracağam,
Udduğunu ona qusduracağam.
Artıq millətlər oraya axın-axın
gəlməyəcək,
Babil divarı da yıxılacaq.

45 Oradan çıx, ey xalqım!
Hamınız canınızı qurtarın!
Rəbbin qızğın qəzəbindən qaçın!
46 Ölkədə eşitdiyiniz şayiələrə görə
Cəsarətinizi itirib qorxmayın.
Bir il bir şayiə gəlir,
O biri il başqası.
Ölkədə zorakılıq,
Başçının başçıya qarşı çıxması barədə
Şayiələr yayılır.
47 Buna görə də yəqin ki
Babilin bütlərini cəzalandıracağım
günlər gəlir.
Bütün ölkə utandırılacaq,
Öldürülənləri onun ortasında yerə
səriləcək.
48 O zaman yer, göy və onlardakı hər şey
Babilin başına gələnlərə sevinəcək.
Çünki şimaldan gələn məhv edənlər
Ona hücum edəcək»
Rəbb belə bəyan edir.
49 «İsrailin öldürülənlərinə görə
Babil də məhv olmalıdır,
Necə ki yer üzündə öldürülən hər kəs
Babilə görə məhv oldu.

50 Ey qılıncdan qurtulanlar,
Qaçın, ləngiməyin!
Rəbbi uzaqdan yada salın,
Yerusəlim barədə düşünün!»
51 Biz utandıq,
Çünki təhqir eşitdik,
Üzümüzü rüsvayçılıq örtdü.
Çünki yadellilər Rəbbin mə'bədinin
Müqəddəs yerlərinə girdi.
52 «Buna görə də bütlərini
Cəzalandıracağım günlər gəlir,
Bütün ölkədə yaralılar inildəyəcək»
Rəbb belə bəyan edir.

*__51:45__ – Vəhy 18:4*
*__51:48__ – Vəhy 18:20*
*__51:49__ – Vəhy 18:24*

53 «Babil göylərə çıxsa da,
Ucalardakı qalasını möhkəmləndirsə də,
Məhv edənləri üstünə göndərəcəyəm»
Rəbb belə bəyan edir.

54 «Babildən fəryad,
Xaldey ölkəsindən böyük qırğın səsi
eşidilir.
55 Çünki Rəbb Babili məhv edir,
Onun hay-küyünü susdurur.
Düşmən dalğaları axar sular kimi
kükrəyir,
Səslərinin gurultusu ucalır.
56 Çünki Babilə qarşı bir məhv edən
çıxacaq,
Döyüşçüləri əsir tutulacaq,
Kamanları qırılacaq.
Çünki Rəbb əvəz verən bir Allahdır,
Mütləq cəzalandıracaq.
57 Babil başçılarını, müdriklərini,
Valilərini, vəkillərini, döyüşçülərini
Elə sərxoş edəcəyəm ki,
Əbədi yuxuya dalacaq,
Heç vaxt oyanmayacaqlar»
Adı Ordular Rəbbi olan Padşah belə
bəyan edir.
58 Ordular Rəbbi deyir:
«Babilin qalın divarları yerlə yeksan
ediləcək,
Uca darvazaları oda veriləcək.
Xalqlar boş-boşuna zəhmət çəkir,
Ümmətlərin çəkdiyi əziyyət
Oda təslim ediləcək».

### *Yeremyanın sözünün Babilə çatması*

59 Yəhuda padşahı Sidqiyanın padşahlığının
dördüncü ilində ordu təsərrüfatçısı Maxseya
oğlu Neriya oğlu Seraya, Sidqiya ilə birgə
Babilə gedərkən Yeremya peyğəmbər ona bu
əmri tapşırdı. 60 Yeremya Babilin başına
gələcək bütün fəlakətləri, Babil barədə
yazılmış bütün bu sözləri bir tumara yazdı.
61 Yeremya Serayaya dedi: «Babilə çatanda
bütün bu sözləri oxumağı unutma. 62 De ki:
"Ya Rəbb, buranı dağıdacağını, içində insanın
da, heyvanın da yaşamayacağını, ölkənin
əbədi viran qalacağını söylədin". 63 Bu tumarı
oxuyub qurtaranda sən ona bir daş bağlayıb
Fərat çayının ortasına at 64 və söylə: "Qoy
Babil də belə batsın və Mənim onun başına

*__51:63-64__ – Vəhy 18:21*

gətirəcəyim fəlakətdən bir daha çıxa bilməsin,
qoy onlar taqətdən düşsün”».
Yeremyanın sözləri buraya qədərdir.

### *Yerusəlimin süqutu*

*(2Pad. 24:18-25:21)*

52 1 Sidqiya padşah olduğu vaxt iyirmi
bir yaşında idi və Yerusəlimdə on bir
il padşahlıq etdi. Anası Livnalı Yeremyanın
qızı olub adı Xamutal idi. 2 O, Yehoyaqimin
etdiyi kimi Rəbbin gözündə pis olan işlər
gördü. 3 Həqiqətən, Rəbbin qəzəbinə görə
Yerusəlimin və Yəhudanın başına bu iş gəldi.
Axırda Rəbb onları hüzurundan kənar etdi.
Sidqiya Babil padşahına qarşı üsyan etdi.
4 Sidqiyanın padşahlığının doqquzuncu
ilində, onuncu ayın onuncu günü Babil
padşahı Navuxodonosor bütün ordusu ilə
Yerusəlimin üzərinə hücum etdi, oraya qarşı
ordugah qurdu və ətrafında mühasirə divarları
düzəltdi. 5 Padşah Sidqiyanın hakimiyyətinin
on birinci ilinə qədər şəhər mühasirədə qaldı.
6 Dördüncü ayın doqquzuncu günü şəhərdə
aclıq elə gücləndi ki, şəhər sakinlərinin
yeməyə çörəyi qalmadı. 7 Həmin vaxt şəhərin
divarlarında dəlik açıldı. Gecə ikən
Xaldeylilər şəhərin ətrafında olanda bütün
döyüşçülər padşah bağçasının yanında olan
iki divar arasındakı darvazadan qaçıb Arava
yoluna çıxdı. 8 Ancaq Xaldeylilərin qoşunu
padşahı tə’qib etdi və Yerixo düzənliyində
Sidqiyaya çatdı. Sidqiyanın bütün ordusu onu
tərk edib dağıldı. 9 Padşahı tutub Xamat
torpağındakı Rivlaya, Babil padşahının yanına
apardılar. Babil padşahı onun haqqında hökm
verdi. 10 O, Sidqiyanın gözü önündə oğullarını
öldürtdü, sonra bütün Yəhuda başçılarını da
Rivlada öldürtdü. 11 Həmçinin Sidqiyanın
gözlərini çıxartdı, onu qandallayıb Babilə
apardı. Babil padşahı onu ölənə qədər
zindanda saxladı.
12 Babil padşahı Navuxodonosorun
padşahlığının on doqquzuncu ilində, beşinci
ayın onuncu günü Babil padşahına xidmət
edən keşikçilər rəisi Nevuzaradan Yerusəlimə
gəldi. 13 O, Rəbbin mə’bədinə, padşah
sarayına, Yerusəlimdəki bütün evlərə od
vurub bütün əsas binaları yandırdı.
14 Keşikçilər rəisinə tabe olan bütün Xaldey
ordusu hər tərəfdən Yerusəlim divarlarını
uçurtdu. 15 Keşikçilər rəisi Nevuzaradan
yoxsul adamların bir hissəsini, şəhərdə qalan
xalqı, Babil padşahının tərəfinə keçən
fərariləri və sağ qalan sənətkarları sürgün etdi.
16 Ancaq o, bağçılıq, əkinçilik etmək üçün
ölkədəki yoxsulların bir hissəsini orada
saxladı.
17 Xaldeylilər Rəbbin mə’bədində olan tunc
sütunları, dayaqları və tunc hovuzu parçalayıb
tunclarını Babilə apardı. 18 İbadət zamanı
işlədilən qazanları, kürəkləri, maqqaşları,
piyalələri, nimçələri və bütün tunc qabları
götürüb apardılar. 19 Keşikçilər rəisi xalis
qızıldan və gümüşdən olan tasları,
buxurdanları, piyalələri, qazanları,
çıraqdanları, nimçələri, kasaları götürüb
apardı. 20 Rəbbin mə’bədi üçün padşah
Süleymanın düzəltdiyi iki sütun, hovuz və
altındakı on iki tunc buğa heykəli və
dayaqlardan alınan tuncun ağırlığı hesaba
gəlməzdi. 21 Bir sütunun hündürlüyü on səkkiz
qulac idi, dairəsi on iki qulac idi. Hər biri
dörd barmaq qalınlığında idi, içləri boş idi.
22 Üzərində tunc bir başlıq var idi. Başlığın
hündürlüyü beş qulac idi. Bu başlığın
ətrafında hörmə tor və narlar var idi, hamısı
tuncdan düzəldilmişdi. O biri sütun da
narlarla bəzənmişdi və əvvəlkinə bənzəyirdi.
23 Yanlarda doxsan altı nar var idi. Başlığı
əhatəyə alan hörmə torların üzərində cəmi yüz
nar var idi.
24 Keşikçilər rəisi Nevuzaradan başçı kahin
Serayanı, başçı kahinin müavini Sefanyanı və
üç qapı keşikçisini əsir aldı. 25 Şəhərdə qalan
döyüşçülərin sərkərdəsini, padşahın
məsləhətçilərindən şəhərdə olan yeddi nəfəri,
ölkə xalqını orduya yazan sərkərdənin
mirzəsini və ölkə xalqından şəhərdə qalan
altmış nəfəri əsir tutdu. 26 Keşikçilər rəisi
Nevuzaradan onları götürüb Rivlaya, Babil
padşahının yanına apardı. 27 Babil padşahı
Xamat torpağında olan Rivlada onları öldürdü.
Beləcə Yəhuda xalqı öz ölkəsindən sürgün
olundu.
28 Navuxodonosorun sürgünə apardığı
xalqın sayı belədir: yeddinci ildə üç min
iyirmi üç nəfər Yəhudi; 29 Navuxodonosorun
padşahlığının on səkkizinci ilində
Yerusəlimdən səkkiz yüz otuz iki nəfər;

***52:4*** *– Yez. 24:2*
***52:7*** *– Yez. 33:21*
***52:11*** *– Yez. 12:13*
***52:17-23*** *– 1Pad. 7:15-47*

30 iyirmi üçüncü ilində keşikçilər rəisi
Nevuzaradanın sürgün etdiyi yeddi yüz qırx
beş nəfər Yəhudi. Ümumilikdə dörd min altı
yüz nəfər idi.

### *Padşah Yehoyakinin azad edilməsi*

*(2Pad. 25:27-30)*

31 Yəhuda padşahı Yehoyakinin sürgündə
olmasının otuz yeddinci ilində Evil-Merodak
Babil padşahı oldu. Həmin ilin on ikinci
ayının iyirmi beşinci günü Evil-Merodak
Yəhuda padşahı Yehoyakinə mərhəmət
göstərərək onu zindandan azad etdi. 32 Onunla
mehribanlıqla söhbət etdi və onun üçün özü
ilə birgə Babildə olan padşahların taxtından
yuxarı bir taxt qoydurdu. 33 Yehoyakin
həbsxana paltarlarını əynindən çıxartdı. O
yaşadığı müddətdə həmişə Babil padşahının
süfrəsində yemək yeyərdi. 34 Bütün ömrü
boyu ona Babil padşahı tərəfindən öləcəyi
günə qədər gündəlik azuqə verilirdi.